# 525-ci qəzet

24 yanvar 2013-cü il, cümə axşamı, №013 (3789). Qiymәti 20 qәpik

www.525.az


# Bu gün Avropa Birliyi – Azərbaycan danışıqları başlayır

## *ROLAND KOBİA:* "SAZİŞDƏN SONRAKI İLK BEŞ İL ƏRZİNDƏ AB VƏ AZƏRBAYCAN ARASINDA SƏFƏR EDƏN ƏLAVƏ SƏRNİŞİNLƏRİN SAYI 860000 NƏFƏR OLA BİLƏR"



Avropa Birliyi və Azərbaycan "Ümumi Aviasiya Məkanı Sazişi" ətrafında danışıqlara başlayır. Avropa Birliyinin Azərbaycandakı nümayəndəliyindən APA-ya verilən məlumata görə, AB ilə Azərbaycan arasında Ümumi Aviasiya Məkanı Sazişi ətrafında danışıqların ilk raundu 24-25 yanvar tarixlərində Bakıda keçiriləcək. Avropa Komissiyasının Nəqliyyat və Mobillik üzrə Baş Direktorluğundan olan rəsmiləri və Avropa Birliyinin Azərbaycandakı nümayəndəliyi, eləcə də AB-yə üzv dövlətlərin nümayəndələri Dövlət Mülki Aviasiya Administrasiyası və digər nazirliklərin təmsilçiləri ilə danışıqlar aparacaq.

"Avropa Birliyi və Azərbaycan arasında aviasiya sazişi ətrafında danışıqların başlanması tək ikitərəfli əlaqələrimizin deyil, eləcə də siyasi əlaqələrimizin, iqtisadi, ticarət və insanlar arasındakı əlaqələrin qüvvətləndirilməsi baxımından mühüm addımdır. Perspektiv tədqiqata əsasən sazişdən sonrakı ilk beş il ərzində AB və Azərbaycan arasında səfər edən əlavə sərnişinlərin sayı 860000 nəfər ola bilər. Saziş nəticəsində iqtisadi faydalar əldə ediləcək. Bu, konkret fürsəti əldən qaçırmamalıyıq. AB xüsusilə də regionda artıq bir sıra ölkə ilə belə sazişlər imzalayıb. Danışıqlar masasında Azərbaycanın da eyni siyasi iradə göstərəcəyinə ümidvaram". Bu fikirlər Avropa Birliyinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Roland Kobiaya məxsusdur.

Qeyd edək ki, Avropa Komissiyası 2011-ci ilin oktyabr ayında AB ilə Azərbaycan arasında Ümumi Aviasiya Məkanı Sazişi ətrafında danışıqlar aparmaq üçün AB-yə üzv olan 27 dövlətdən mandat alıb. 2011-ci ilin noyabr ayında AB-nın vitse-prezidenti Siim Kallasın Azərbaycana səfəri AB və Azərbaycanın danışıqlara başlamaq üçün öhdəlik götürdüyünü bir daha təsdiq edib. AB bir sıra qonşu ölkələrlə, o cümlədən Qərbi Balkan ölkələri, Gürcüstan, Moldova, Mərakeş, İordaniya, İsraillə eyni saziş imzalayıb, hazırda Ukrayna, Livan və Tunislə danışıqlar aparmaqdadır.

# *Sergey Lavrov:* "Rusiya Qarabağ danışıqlarında səylərini davam etdirir"

## "QƏBƏLƏ RLS-LƏ BAĞLI MƏSƏLƏ BAĞLANIB"

"ATƏT-in MInsk Qrupunun həmsədrlərindən biri olan Rusiya Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində səylərini davam etdirir". APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bu fikirləri Rusiyanın xarici işlər naziri Sergey Lavrov dünən keçirdiyi brifinqdə bildirib. Onun sözlərinə görə, ATƏT-in Minsk Qrupunun həmsədrləri münaqişənin tənzimlənməsinə dair 2007-ci ildə sənəd hazırlayıblar: "Ermənistan həmin sənədi qəbul etdi. Lakin Azərbaycan tərəfi bildirdi ki, bu sənəd onları qane etmir. Daha sonra həmsədrlər 2009-cu ildə ikinci sənəd hazırladılar. Bu dəfə Ermənistan sənədi qəbul etmədi".

Sergey Lavrov Rusiyanın sabiq prezidenti Dmitri Medvedyevin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan prezidentlərinin 10 görüşünün keçirildiyini xatırladıb: "Bu görüşlərdə Minsk Qrupunun həmsədrləri də iştirak edirdilər. Görüşlərdə Azərbaycan və Ermənistan prezidentlərinə ortaq məxrəcə gəlmək təklif olundu. 2011-ci ilin mayında "Böyük səkkizliyin" görüşündə ABŞ, Rusiya və Fransa prezidentlərinin birgə bəyanatı qəbul olundu. Bəyanatda Azərbaycan və Ermənistan prezidentlərinə çağırış edildi. Prezidentlərin Kazan görüşündə isə 2007 və 2009-cu ildə hazırlanan sənədlərin son variantını qəbul etməyə çağırdılar. Lakin təəssüflər olsun ki, bu sənəd qəbul olunmadı. Çünki tərəflər razılığa gələ bilmədilər".

Lavrov Qəbələ Radiolokasiya Stansiyası ilə bağlı suala da cavab verərlən bu məsələnin artıq qapandığını söyləyib. O bildirib ki, Rusiya bu məsələdə razılıq əldə edilməsinə hazır olub: "Lakin bizim azərbaycanlı dostlarımız qiymət məsələsində güzəştə getmədilər və biz də bu qiyməti ifrat yüksək saydıq. Hazırda stansiyanın bağlanması üçün hazırlıq gedir, bu proses bir neçə ay davam edəcək və azərbaycanlı həmkarlarımız bu barədə məlumatlandırılıb".

# "Adlar və soyadlar haqqında" qanun qəbul olunacaq

"Nazirlər Kabinetinin adlar və soyadlarla əlaqədar qərarı verildikdən sonra Azərbaycanda "Adlar və soyadlar haqqında" qanun qəbul olunacaq". Bunu APA-ya açıqlamasında Milli Məclisin Mədəniyyət komitəsinin sədri Nizami Cəfərov deyib. O bildirib ki, adlar və soyadlarla əlaqədar aydınlaşdırılası məqamlar çoxdur: "Elmi baxımdan AMEA-nın komissiyası öz tövsiyələri hazırladı və Nazirlər Kabinetinə təkliflər verildi. Nazirlər Kabinetində bu məsələnin hüquqi tərəfləri öyrənilir. Amma hətta Nazirlər Kabinetinin qərarı olmuş olsa belə, yenə də qanuna ehtiyac olacaq. Çünki yalnız Nazirlər Kabinetinin qərarı ilə ad, soyad məsələlərini tam əhatə etmək mümkün deyil. Bu məsələnin mütləq hüquqi təfsiri olmalıdır".

N. Cəfərov qeyd edib ki, yeni doğulan uşaqlara milli soyadların verilməsi daha asan prosesdir: "Onlar soyadları yazılarkən asanlıqla "ov", "yev"dən imtina etmək mümkün olur. Əvvəlki illərdə doğulan nəsillərin isə soyadlarını dəyişməsi üçün xeyli sənədlər tələb olunur. Çünki yaşlı adamın müxtəlif qurumlar qarşısında çoxlu öhdəlikləri var. Ona görə də adı və ya soyadı dəyişməkdə həmişə problem olur. Biz təklif edirik ki, ad və ya soyadı dəyişmək prosedurları sadələşdirilsin. Hazırda bu proses çox mürəkkəb olduğundan çox adam əlavə vaxt itirmək istəmir. Qarışıq ailələrdə də soyadla bağlı mübahisələr ortaya çıxa bilər. Bu halda da məhkəmələr vasitəsilə problemi həll eləmək mümkündür".

Komitə sədrinin sözlərinə görə, hazırlanacaq qanunun əsas məqsədi yalnız Azərbaycanda ad-soyad məsələlərini tənzimləmək olmayacaq: "Nazirlər Kabinetinin qərarı təbii ki, yalnız ölkəni əhatə edəcək. Amma qanunda ümummilli xüsusiyyətləri, azərbaycançılıq anlayışlarını əhatə edə bilərik. Qanun dünyada yaşayan bütün azərbaycanlılar üçün də tövsiyə oluna bilər. Bunun üçün qanuna daha çox ehtiyac olacaq".

# Gürcüstan XİN rəhbərinin müavini İvanişvilinin bəyanatına görə istefa verdi

Uzun müddət Gürcüstanın xarici siyasət idarəsində çalışmış və yeni hökumət tərkibində belə vəzifəsini saxlamış xarici işlər nazirinin müavini Nikoloz Vaşakidze şəxsi ərizəsi əsasında istefa verib. APA-nın "GHN"ə istinadən verdiyi məlumata görə, Nikoloz Vaşakidze "ölkənin xarici siyasət kursuna və üslubuna uyğunsuzluğu səbəbindən" istefaya gedib. Vaşakidze agentliyə açıqlamasında qeyd edib ki, onun vəzifədən getməsi həmçinin Gürcüstanın baş naziri Bidzina İvanişvilinin Ermənistanda səsləndirdiyi bəyanatla da əlaqəlidir. O qeyd edib ki, onun üçün bu prinsipial məsələ olub. "Mən bir müddət istirahət etmək niyyətindəyəm, son zamanlar çox gərgin iş rejimində çalışırdım, hansı sahədə fəaliyyətimi davam etmək barədə qərarı isə sonra qəbul edəcəm", deyə Vaşakidze qeyd edib.

Xatırladaq ki, Nikoloz Vaşakidze xarici işlər nazirinin müavini vəzifəsinə 2010-cu ildə təyin olunmuşdu. Bidzina İvanişvilinin məhz hansı bəyanatından söhbət gedir, bu barədə xəbər verilmir.

Xatırladaq ki, İvanişvilinin İrəvana səfəri çərçivəsində Gürcüstanda yaşayan ermənilərin problemlərini həll edəcəyinə söz verib, Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu bildirib və Abxaziyadan keçən dəmir yolunu bərpa edəcəyinə söz vermişdi.

## Bu gün hava necə olacaq?

Bakı və Abşeron yarımadasında yanvarın 24-də hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, səhər və axşam bəzi yerlərdə zəif duman olacağı gözlənilir. Mülayim qərb, şimal-qərb küləyi əsəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, havanın temperaturu gecə 4-9, gündüz 13-18 dərəcə isti təşkil edəcək. Azərbaycanın rayonlarında yanvarın 24-də hava şəraitinin əsasən yağmursuz keçəcəyi, gecə və səhər ayrı-ayrı yerlərdə duman olacağı gözlənilir. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-8, gündüz 13-18 dərəcə isti, dağlarda gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 6-11 dərəcə isti olacağı gözlənilir. Yanvarın 24-25-də ölkə ərazisində hava şəraitinin nisbətən sabit, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın maksimal temperaturu yanvarın 24-də Abşeron yarımadasında və aran rayonlarında 13-18, dağlıq rayonlarda 6-11 dərəcə isti, yanvarın 25-də Abşeron yarımadasında 10-15, aran rayonlarında 11-16, dağlıq rayonlarda 3-8 dərəcə isti təşkil edəcəyi gözlənilir.

## ATƏT cəbhədə növbəti monitorinq keçirdi

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq yanvarın 23-də Azərbaycan Respublikasının Qazax rayonunun Məzəm kəndinin 2,5 km şərq istiqamətindəki təmas xəttində monitorinq keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik və səhra köməkçisi Yevgeniy Şarov, təmas xəttinin qarşı tərəfində isə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle, Xristo Xristov və şəxsi köməkçisi Uilyam Prayor keçirib.

## Ermənilər atəşkəsi pozublar

Erməni silahlı bölmələri srağagün və dünən gecə Ağdam rayonunun Yusifcanlı, Tərtər rayonunun Qızıl Oba, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən atəşkəs rejimini pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, düşmən cavab atəşi ilə susdurulub.

# *Fikrət Məmmədov:* "Azərbaycanda hakimlərin sayı iki dəfə artırılıb"



"Azərbaycanda yeni məhkəmələr yaradılıb, hakimlərin sayı iki dəfə artırılıb". APA-nın məlumatına görə, bunu Sabunçu rayonunda yeni tikiləcək məhkəmə binasının təməlqoyma mərasimində çıxış edən ədliyyə naziri Fikrət Məmmədov deyib.

F. Məmmədov ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə Prezident İlham Əliyevin tapşırıqlarına əsasən həyata keçirilən islahatlardan danışaraq bildirib ki, son illər məhkəmə sistemində köklü dəyişikliklər aparılıb, etik davranış qaydaları qəbul olunub.

F. Məmmədov bu islahatlar və qazanılmış nailiyyətlərin beynəlxalq aləmdə, o cümlədən Avropa Şurası və Avropa Birliyi tərəfindən yüksək dəyərləndirildiyini deyib: "Azərbaycan Hökuməti və Dünya Bankı ilə əməkdaşlığın 20 illiyinin qeyd olunduğu ötən ayda "Ədliyyə sisteminin müasirləşdirilməsi" layihəsi ən mükəmməl layihələrdən hesab olunmaqla "Azərbaycan Respublikası vətəndaşlarına yüksək səviyyəli xidmətlərin göstərilməsi məqsədi ilə müasir infrastrukturun yaradılması" nominasiyasında qalib gəlib. Bütün ölkədə ən yaxşı binalardan olacaq Sabunçu Məhkəmə Kompleksinin inşası məhkəmə sistemində aparılan islahatlara əlavə töhfə verəcək, ədalət mühakiməsinə çatımlılığı daha da asanlaşdırmaqla vətəndaşların hüquqlarının etibarlı təmin olunmasına xidmət edəcək".

# Azərbaycanda gənclər arasında işsizlik səviyyəsi aşağı düşüb

## AZƏRBAYCANDA GƏNCLƏRİN 11 FAİZİ, ERMƏNİSTANDA İSƏ 39,1 FAİZİ İŞSİZDİR

Azərbaycan gənclər arasında işsizlik səviyyəsini azaltmağa müvəffəq olub. APA-nın məlumatına görə, bu barədə Beynəlxalq Əmək Təşkilatının açıqladığı "Qlobal məşğulluq tendensiyaları 2013" adlı hesabatda bildirilir.

Hesabata əsasən, ölkədə gənclər arasında işsizlik səviyyəsi 2000-ci ildə 18,4 faiz təşkil edib və hazırda bu rəqəm 11 faizə düşüb.

"Digər MDB ölkələri və Gürcüstan isə gənclərin işlə təmin olunması sahəsində problemlərlə üzləşməkdə davam edir. Ermənistanda gənclər arasında işsizlik səviyyəsi 39,1 faiz təşkil edir. 2017-ci ildə MDB ölkələrində gənclər arasında işsizlik səviyyəsinin 17,3 faiz (kişilər) və 17,7 faiz (qadınlar) olacağı proqnozlaşdırılır".

Hesabatda qeyd olunur ki, regionda əmək bazarında mövcud olan əsas problem qeyri-rəsmi məşğulluqdur. Qeyri-rəsmi məşğulluğun artması əmək şəraitinin pisləşməsinə səbəb olur. Bu göstərici Qafqaz və Mərkəzi Asiya respublikalarında daha kəskin nəzərə çarpır. 2000-ci illə müqayisədə Azərbaycanda gənclərin qeyri-rəsmi məşğulluq səviyyəsi 30 faizdən 44 faizə, Gürcüstanda 30 faizdən 37 faizə qalxıb. Ermənistanda isə bu rəqəm 49 faiz təşkil edir.

# Xocalı faciəsi növbəti dəfə beynəlxalq səviyyədə soyqırım kimi tanınıb

İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlamentlər İttifaqının (İƏT Pİ) Sudanın paytaxtı Xartum şəhərində keçirilən 8-ci sessiyası öz işini başa çatdırıb. Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) İstanbulda yerləşən Baş Qərargahından APA-ya verilən məlumata görə, DƏ-İKGF tərəfindən təqdim olunan layihə əsasında "İƏT Pİ və DƏ-İKGF arasında əməkdaşlıq" başlığı altında qəbul olunmuş qətnamənin "Xocalıya Ədalət" kampaniyasına həsr edilmiş paraqrafında İƏT-ə üzv 51 ölkənin parlamentlərini öz sıralarında birləşdirən İƏT Pİ Xocalı faciəsini erməni silahlı qüvvələri tərəfindən dinc Azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırım aktı kimi tanıyıb və faciəni insanlığa qarşı törədilən cinayət adlandırıb.

Faciəni törədənlərin hüquqi məsuliyyətə cəlb olunmasını tələb edən İƏT Pİ, həmçinin DƏ-İKGF Mədəniyyətlərarası Dialoq üzrə Baş koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə irəli sürülmüş "Xocalıya ədalət" beynəlxalq məlumat və təşviqat kampaniyasının vacibliyini qeyd edib, o cümlədən, İƏT Pİ-yə üzv parlamentlərdə hadisəyə müvafiq hüquqi və siyasi qiymətin verilməsi və kampaniyaya dəstək göstərilməsi çağırış edib.

Qeyd olunub ki, sənəd üzv parlamentlərin sədrlərinin və millət vəkillərinin iştirakı ilə yekdilliklə qəbul edilib. Xatırladaq ki, daha öncə, 2012-ci ilin noyabr ayında Cibutidə keçirilən İƏT Xarici İşlər Nazirləri Şurasının 39-cu sessiyasında DƏ-İKGF-nin irəli sürdüyü qətnamə əsasında 57 İƏT üzvü ölkələrin xarici işlər nazirləri Xocalı faciəsini soyqırımı aktı kimi tanıyıb və faciə insanlığa qarşı törədilmiş cinayət adlandırıblar.

Sözügedən qətnamədə, həmçinin, DƏ-İKGF tərəfindən həyata keçirilən beynəlxalq "İƏT Modeli" proqramına dəstək ifadə edilib, xüsusilə, proqram çərçivəsində Milli Gənc Parlamentlər Modeli üzrə iki qurum arasında əməkdaşlığın vacibliyi qeyd olunub.

(İƏT Pİ) Təşkilat İƏT-ə üzv olan 51 ölkənin parlamentlərini özündə birləşdirir və müvafiq olaraq Afrika, Asiya və Ərəb regionunda iki ildə bir dəfə parlament sədrlərinin və millət vəkillərinin iştirakı ilə öz sessiyasını keçirir.

# Millət vəkilinə məxsus avtomobil qəza törədib, bir nəfər öldü

Millət vəkili Aydın Mirzəzadəyə məxsus avtomobil yol qəzası törədib. Baş Dövlət Yol Polisi İdarəsindən APA-ya verilən məlumata görə, hadisə Bakının Qaradağ rayonu ərazisində baş verib. Belə ki, millət vəkilinə məxsus "Honda Accord" markalı avtomobil yoldan keçmək istəyən qadını vurub. Piyada, 1958-ci il təvəllüdlü Mariya Cavadova hadisə yerində ölüb. Hadisə zamanı avtomobili A. Mirzəzadənin sürücüsü Faiq Qocayev idarə edib. Avtomobildə A. Mirzəzadə ilə yanaşı, digər millət vəkili Elman Məmmədov da olub.

Faktla bağlı Cinayət Məcəlləsinin 263.2-ci maddəsi ilə cinayət işi başlanıb.

Baxış bucağı

Əkrəm Bəydəmirli



## “Asan xidmət” mərkəzi işlərimizi asanlaşdıra biləcəkmi?

Antikorrupsiya haqqında bu gün çox danışılır, təkliflər səslənir. Kimlərsə inzibati tədbirləri, kimlərsə cəmiyyətdə maarifçilik işlərinin genişlənməsini əsas çıxış yolu kimi önə çəkirlər. Əslində bütün bunlar antikorrupsiya tədbirləri çərçivəsində vacib elementlərdir. Ancaq əsas çıxış yolu deyil.

Müxtəlif yanaşmalar və çıxış yolları ola bilər. Mənim fikrimcə, bunlardan biri də hansısa bir sahədə şəffaflığı təmin etmək məqsədilə optimal mexanizmlərin yaradılmasıdır. Burada məqsəd hansısa qeyri-qanuni ödəniş cəhdlərinin qarşısını birdəfəlik almaqdır.

Məsələn, vaxtilə ali məktəblərə qəbul prosesində şəffaflığı təmin etmək məqsədilə test imtahanlarının tətbiqi uğurlu addım idi. Bu gün də bu mexanizm özünü doğruldur və savadı olan, öz üzərində ciddi çalışan gənc test imtahanlarından yüksək bal toplayıb ali məktəblərə daxil olur. Vaxtilə bir çoxları test sisteminin özünü doğrultmayacağını, testin çox mənfi nəticələrinin olacağını bildirirdilər.Ancaq zaman keçdikcə bu mexanizm özünü tam təsdiqlədi. Onu da qeyd edək ki, bir sıra sahələrdə o cümlədən vergi bəyannamələrinin elektron xidmətlər vasitəsilə həyata keçirilməsi, ümumilikdə, “elektron hökumət” anlayışı özünü doğruldan mexanizmlərdir. Deməli, antikorrupsiya tədbirləri çərçivəsində işlək mexanizmlər zəruridir.

Diqqət yetirəndə hiss olunur ki, yeni yaradılan “Asan xidmət” mərkəzi də yaxşı antikorrupsiya mexanizmi ola bilər. İlk öncə ondan başlayaq ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 1 saylı Bakı “ASAN xidmət” mərkəzində 9 dövlət orqanının 23 hüquqi xidməti həyata keçirilir.Bu da vətəndaşların müxtəlif iş üçün məmur qapısını döyməsinin qarşısını alır. İkinci vacib məqam ondan ibarətdir ki, bu xidmətə müraciət edən vətəndaşlardan hər hansı qeyri-qanuni ödəniş tələb olunmayacaq. Düzdür, bu gün bir çox insanlar buna sadəcə olaraq inana bilmirlər ki, gedib yalnız dövlət rüsumu ödəməklə qanuna müvafiq olaraq şəxsi evləri və yaxud torpaq sahələri üçün qeydiyyat və digər lazımı sənədlər ala bilərlər, hər hansı əlavə ödəniş etmədən bu məsələləri çözə bilərlər.Təcrübə belədir ki, vətəndaş hər hansı bir sənəd üçün gərək şəhəri ələk-vələk etməli idi. İndi isə vəziyyət tam dəyişəcək. Bu, özünü doğrulda biləcək innovativ mexanizmdir.

Xidmət sahəsində yeni modern idarəetmənin yaradılması və bunun davamlı prosesə çevrilməsi əslində zamanın tələbidir.

2013-cü ildə Azərbaycanda “İnformasiya-kommunikasiya texnologiyaları ili” elan olundu.

Prezident İlham Əliyev bu barədə sərəncam imzaladı. Ölkə rəhbərinin təşəbbüsü və dəstəyi ilə “Asan xidmət” mərkəzi reallığa çevrildi.Təbii ki, burada müəyyən problemlərin yaşanması mümkündür. Hələ ki şüurlarda oturuşmayan belə mexanizmi həzm edə bilməyən qosqoca məmurlar işin ümumi ahənginə çətin alışsınlar. Bir çox hallarda bu pilot layihəyə əngəl olacaqlar. Ancaq geriyə yol yoxdur.

Bütün hallarda belə layihənin uğurlu görüntüləri artıq hiss olunmaqdadır. “Asan xidmət” mərkəzi açılandan sonra ora müraciət edənlərin sayı artmaqdadır. Çox güman ki, gələcəkdə digər işlər də “Asan xidmət”ə həvalə olunsun. Bu xidmətlər sırasında avtomobillərin gömrükdən keçirilməsini, fərdi evlərin tikintisinə icazə vermək səlahiyyəti və başqa işlər ola bilər.

Burada bir vacib məqam var.Bütün problemlərin həllini yalnız “Asan xidmət” də axtarmaq düzgün olmaz. Yeni işə düşən bu sistemin daha da təkmilləşməsi və özünü doğrultması üçün bəzi addımların atılmasına ehtiyac var. İlk öncə cəmiyyətdə bu xidmətin mahiyyəti haqqında maarifləndirici aksiyalar davamlı aparılmalıdır.

TV-lərdə, ümumilikdə mediada sosial reklam çarxlarının yayımına ehtiyac var. Çünki əhalinin böyük əksəriyyəti bu barədə məlumatsızdır. Müsbət hal olardı ki, QHT sektoru əməkdaşlığa cəlb olunsun. Burada elə xidmətlər var onu ixtisaslaşmış QHT-lər daha yaxşı yerinə yetirə bilərlər. Artıq dünyada belə təcrübə var: dövlət bir çox sahələrdə işləri QHT-lərə həvalə edir. Əslində bu, demokratik, şəffaf cəmiyyət üçün məqbul variantdır.

# “Bu işləri onlar özləri yazmır”

***ƏHLİMAN ƏMİRASLANOV:*** “ÖZÜ DİSSERTASİYA YAZMAMIŞ ADAMLAR ALİ ATTESTASİYA KOMİSSİYASININ EKSPERT ŞURASININ TƏRKİBİNƏ DÜŞÜRLƏR”



“Xaricdə müdafiə olunan elmi işlərin keyfiyyəti bizi çox narahat edir. Təsəvvür edin ki, əvvəl Moskvada yaşaya-yaşaya 8-10 ilə doktorluq dissertasiyası, 5-6 ilə namizədlik dissertasiyası yazıb müdafiə edirdik. İndi isə 1-2 ilə doktorluq diplomu gətirirlər. Bu, bizi narahat edir”. APA-nın xəbərinə görə, bunu Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Biologiya və Tibb Elmləri Bölməsinin akademik katibi, Azərbaycan Tibb Universitetinin rektoru Əhliman Əmiraslanov Bölmənin 2012-ci illə bağlı hesabatının təqdimatında bildirib. Onun sözlərinə görə, 1-2 ilə doktorluq dissertasiyası yazmaq olmaz: “Sözsüz ki, bu işləri onlar özləri yazmır. Bu adamlar hətta Ali Attestasiya Komissiyasının (AAK) Ekspert Şurasının tərkibinə düşürlər. Özü dissertasiya yazmamış bir adam müdafiə şuralarında təmsil olunur. Bunlar artıq həqiqi işlərə rəy verirlər. Bizim faciəmiz bundan ibarətdir”.

Ə.Əmiraslanov deyib ki, tibb elmləri üzrə daxil olan dissertasiya işləri çox ciddi filtrdən keçirilir: “Biz xüsusi qurum yaratmışıq. Dissertasiyalar müdafiəyə buraxılmazdan əvvəl gizli rəyə göndərilir. Hətta şuraların sədrləri deyirlər ki, siz bizim hüquqlarımızı pozursunuz. Bu elmi işlər bizə gələnə qədər siz onları ayrı yerə göndərirsiniz. Bu universitetin rəhbəri mənəm. Bilməliyəm ki, Elmi Şuraya getməzdən qabaq bu işin keyfiyyəti necədir. Əgər hər hansı çatışmazlıq varsa, gedib onu düzəltsinlər. Biz demirik ki, işi geri qaytarırıq”.

Ə.Əmiraslanov onu da deyib ki, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Biologiya və Tibb Elmləri Bölməsi üzrə doktoranturaya plan yerlərinin xeyli hissəsi boş qalıb. Onun sözlərinə görə, bu sahədə böyük problemlər var: “Biologiya elmləri üzrə institutlar bu yerləri sifariş edirlər. Lakin sonradan bu yerləri tuta bilmirlər. Ona görə də hər bir institut yer sifariş edəndə bilməlidir ki, bu yerləri tutacaq namizədləri var, ya yoxdur. Biologiya və tibb elmlərinə insanlarda maraq oyatmaq lazımdır. Yoxsa doktorantların sayı ilbəil azalır. Mənə elə gəlir ki, bu, çox böyük problem yaradacaq. Bu sahələr üzrə institutlara gənclərin marağını artırmaq üçün nəsə fikirləşmək lazımdır. Belə getsə, ilbəil bu sahədə doktoranturaya qəbul olan doktorantların sayı azalacaq”.

Ə.Əmiraslanov deyib ki, tibb elmləri üzrə də eyni vəziyyətdir: “İndiyədək Tibb Universitetində heç vaxt belə vəziyyət olmamışdı. Bu il isə 6-7 yer boş qaldı. Bütün müəssisələr bu işlə məşğul olmalıdır”.

Akademik katib bölməyə daxil olan bəzi institut direktorlarını da kəskin tənqid edib: “Çox təəssüflər olsun ki, bizim bəzi institut direktorları müdafiə şuralarının məsuliyyətini yaxşı başa düşmürlər. Onlar bu işə çox barmaqarası yanaşırlar, müdafiəyə keyfiyyətsiz dissertasiyalar buraxırlar. Bəzən konfliktlər yaradırlar. Sonda məsələ o yerə çatır ki, AMEA-da biologiya elmləri üzrə müdafiə şuralarının alınıb başqa müəssisələrə verilməsi məsələsi yaranır. Yəni hər elmi tədqiqat müəssisəsinin rəhbəri bilməlidir ki, həmin müəssisələrin nüfuzu oradakı müdafiə şuralarından çox asılıdır. Ona görə də bu işə çox ciddi yanaşmalıdırlar”.

# Koreyanın Azərbaycandakı səfiri Turizm İnstitutunda olub



Dünən Koreya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Çoi Suk-inn və səfirliyin birinci katibi cənab Li Von-sik Azərbaycan Turizm İnstitutunun qonağı olublar. ATİ-nin rektoru, tarix elmləri doktoru, professor Cəfər Cəfərov qonaqları səmimi salamladıqdan sonra 7 yaşlı ali təhsil ocağının turizm sənayesi üçün ixtisaslı kadr hazırlığı sahəsindəki fəaliyyəti və hədəflərindən danışıb.

Səfir Çoi Suk-inn söhbət əsnasında bildirib ki, Koreya Respublikası Azərbaycanla həm dövlət, həm də ictimai qurumlar səviyyəsində geniş spektrli əlaqələrdə maraqlıdır. ATİ təhsil müəssisəsi olduğu üçün ölkənizin nüfuzlu ali məktəbləri ilə Koreya Fondunun əlaqəsini qeyd edə bilərəm. Məhz bu fondun dəstəyi ilə Azərbaycanda koreya dilinin öyrənilməsi və yayılması layihəsi uğurlu olub. Koreya dili və ədəbiyyatı üzrə “İkinci nitq yarışması”nın qalibləri fond tərəfindən mükafatlandırılıb. Söhbət əsnasında cənab səfir onu da qeyd etdi ki, Koreya Respublikasına səfər edən turistlər mədəni və dini turizm proqramlarında “Bulquksa” və “Sokkuram” məbədlərinə, Könbokkun sarayına, Milli Etnoqrafiya Muzeyinə daha çox maraq göstərirlər. Ölkə brendinə çevrilən sənaye müəssisələrinə turist səfərlərinin təşkilini isə əhəmiyyətli hesab edirik. Koreyaya səfər edən hər bir şəxs müəyyən məhsulun hazırlanması anından tutmuş idxalına qədərki prosesi dəqiqliklə izləyə bilir. Bu, ölkəmizin sənaye potensialını tanıtmağa xidmət edir. Turistlərin səfər proqramında uşaq və oyuncaqlar muzeyinə ziyarət də nəzərdə tutulur. Məqsədimiz körpələrimizin və uşaqlarımızın cəmiyyət həyatına hazırlığını təmin etməkdir. Bir faktı da deyim ki, ölkəmizdəki turizm müəssisələri ilə məktəb və məktəbəqədər müəssisələr arasında anlaşma müqavilələri qüvvədədir.

# Çoxuşaqlı ailələrə pulsuz yaşayış sahələri verilə bilər

Azərbaycanda çoxuşaqlı ailələrə yaşayış sahələri pulsuz verilə və həmin ailələrə xüsusi müavinətlər ayrıla bilər. Milli Məclisdən APA-ya verilən məlumata görə, bu, yeni hazırlanan “Çoxuşaqlı ailələrə dövlət dəstəyi haqqında” qanun layihəsində nəzərdə tutulur. Layihə Milli Məclisə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən daxil olub, sənədlə bağlı QHT-lər tərəfindən əlavə təkliflər də var. Belə bir qanunun hazırlanmasına səbəb son 10 ildə çoxuşaqlı ailələrin sayının sürətlə azalması göstərilir.

Təkliflərə görə, çoxuşaqlı ailə dedikdə, övladlığa götürülən uşaqlar da daxil olmaqla, tərkibində 5 və daha çox 18 yaşına qədər, habelə 3 və daha çox əkiz uşaqları olan və onları 18 yaşınadək tərbiyə edən ailə nəzərdə tutulur. Buna baxmayaraq, müzakirələr zamanı göstərilən say tərkibində müvafiq dəyişikliklər də oluna bilər. Qanuna edilən təkliflərdə nəzərdə tutulur ki, çoxuşaqlı ailələrin uşaqları dövlət ali və orta ixtisas məktəblərinin ödənişli fakültələrində güzəştli əsaslarla təhsil almaq imkanı qazanacaqlar. Həmçinin uşaqların məktəbdənkənar təhsil müəssisələrində pulsuz əsaslarla əlavə təhsil alması, bütün təhsil dövründə dərs ləvazimatları, məktəbli və idman formaları ilə pulsuz təmin olunması, bu ailələrin uşaqlarına 6 yaşadək həkim resepti ilə alınan dərmanların pulsuz verilməsi, nəqliyyatdan istifadəyə görə kompensasiya verilməsi, istirahət, mədəniyyət obyektlərinə pulsuz göndəriş verilməsi təklif olunur. Əyani təhsil alan uşaqlar təhsilini bitirənə qədər, lakin 23 yaşdan çox olmamaq şərti ilə, çağırış üzrə həqiqi hərbi xidmətdə olanlar xidmət müddəti bitənə qədər bu kateqoriyaya daxil ediləcək.

Qeyd edək ki, hazırda Milli Məclisin Sosial siyasət komitəsində Dövlət Komitəsi ilə birgə hazırlanan qanun layihəsinə yeni təkliflərin olması da gözlənilir. Layihə bu ilin sonuna kimi Milli Məclisdə müzakirəyə çıxarılacaq.

# Azərbaycan sovet modeli olan zirehli nəqliyyat vasitələrini yeniləri ilə əvəzləyir

Azərbaycan Silahlı Qüvvələrinin texnika parkına daxil olan zirehli nəqliyyat vasitələrinin əhəmiyyətli hissəsi 2020-ci ilədək yenilənəcək.

Bu barədə APA-ya öz hərbi mənbələrindən məlumat verilib. Bu proses Silahlı Qüvvələrin modernləşdirilməsi proqramları çərçivəsində aparılacaq. Yenilənmənin əsasən yerli istehsal və digər ölkələrdən (qeyri-postsovet) alınmalar hesabına həyata keçirilməsi nəzərdə tutulur. İlkin mərhələdə Zirehli Kəşfiyyat Desant Maşını (BRDM), habelə ordunun silahlanmasında yer alan BTR-60 və BTR-70 tipli zirehli transportyorlar müasir və qoruma səviyyəsi yüksək olan texnikalarla əvəzlənəcək. Artıq seçimin birinci mərhələsində Türkiyə istehsalı olan “Cobra” tipli zirehli nəqliyyat vasitələrinə önəm verilib. Bu nəqliyyat vasitələri Azərbaycan mühitində sınaqlar zamanı minaya qarşı qoruması, manevrliliyi baxımından özünü doğruldub.

Texnika parkının yenilənməsi proqramı çərçivəsində Türkiyədən gələcəkdə əlavə sayda “Cobra”ların, habelə digər modellərdə təkərli nəqliyyat vasitələri və döyüş maşınlarının alınması nəzərdə tutulur. Bununla yanaşı, Azərbaycan tərəfi Türkiyə firmalarının istehsalı olan “Arma”, “Pars” və “Əjdər” tipli zirehli maşınlara da marağını ifadə edib.

Paralel olaraq Türkiyə firmaları və CAR-ın “Paramount Group” şirkəti ilə ölkə daxilində hərbi nəqliyyat vasitələrinin istehsalının qurulması, mövcud istehsal həcminin artırılması da nəzərdə tutulur.

# Son illər hakimlər barəsində 55 intizam icraatı başlanıb

7 NƏFƏRİN SƏLAHİYYƏTLƏRİNƏ XİTAM VERİLİB

Sabunçu Rayon və 2 saylı Bakı İnzibati-İqtisadi məhkəmələrində hakimlərin, məhkəmə aparatı işçilərinin, habelə icra məmurlarının iştirakı ilə müşavirələr keçirilib. Ədliyyə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, müşavirələr zamanı fəaliyyətin təkmilləşdirilməsi üzrə tədbirlər və qarşıda duran vəzifələr müzakirə olunub, icra və əmək intizamına ciddi əməl olunması, vətəndaşların haqlı narazılığına səbəb olan qanun pozuntusu, korrupsiyaya şərait yaradan və digər neqativ halların qətiyyətlə aradan qaldırılmasının zəruriliyi bildirilib, belə hallara yol verən hakimlər barədə son illər 55 intizam icraatının başlanıldığı, 7 nəfərin səlahiyyətlərinə xitam verildiyi nəzərə çatdırılıb.

Bununla yanaşı, icra məmurlarına icra prosesi zamanı insan hüquqlarına ciddi riayət olunması, məhkəmə qərarlarının vaxtında və dürüst icrası, işin yaxşılaşdırılması üzrə konkret tapşırıqlar verilib, korrupsiya, süründürməçilik, qeyri-etik davranış və digər neqativ halların yolverilməzliyi, əks təqdirdə ən ciddi intizam tədbirlərinin tətbiqi xüsusi vurğulanıb.

## Avtodayanacaqda uçqun baş verdi

Daxili İşlər Nazirliyi (DİN) Bakıda avtodayanacaqda baş verən uçqun hadisəsi barədə məlumat yayıb. Nazirliyin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, yanvarın 23-də saat 03.50 radələrində Xətai rayonunun Nobel prospektində yeraltı avtodayanacaq tikmək üçün qazıntı işləri aparılarkən, yaxınlıqdakı köhnə divar uçub. Nəticədə orada işləyənlər – Bakı şəhər sakini Sabir Dadaşov, Gədəbəy rayon sakini Filqət Alıyev, Oğuz rayon sakini Nicat Hacıyev və Biləsuvar rayon sakini Ələsgər Qurbanov xəsarət alıblar. Onlar xəstəxanaya yerləşdirilib. Ə.Qurbanov orada ölüb, digərlərinin vəziyyətləri isə ağırdır.

Azərbaycan paytaxtında avtodayanacaqda baş verən uçqun hadisəsi ilə bağlı cinayət işi açılıb. Xətai Rayon Prokurorluğundan APA- ya verilən məlumata görə, baş vermiş hadisə ilə bağlı Xətai Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 222.3 (Tikinti, mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizlik qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olma) maddəsi ilə cinayət işi başlanıb.

## Bütün Azərbaycan vətəndaşları Suriyadan çıxarılıb

Konsulluq qeydiyyatında olan bütün Azərbaycan vətəndaşları Suriyadan çıxarılıb. Bu barədə APA-ya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Elman Abdullayev məlumat verib. O bildirib ki, Azərbaycanın Suriyadakı səfirliyi Livanın paytaxtı Beyruta köçürülsə də, orada baş verən hadisələri yaxından izləyir: “Suriyada yaşayan bütün Azərbaycan vətəndaşları həmin ölkədən çıxarılıb”.

Xatırladaq ki, 2011-ci ilin martından Suriyada başlayan vətəndaş müharibəsi nəticəsində indiyədək 60 min nəfər həlak olub.

## ABU və "Binə" ilə bağlı heç bir araşdırma aparılmır

Fəaliyyəti dayandırılmış Azərbaycan Beynəlxalq Universiteti və “Binə” Ticarət Mərkəzində baş verən qanunsuzluqlarla bağlı Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi tərəfindən heç bir araşdırma aparılmır. APA-nın məlumatına görə, bu barədə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyev jurnalistlərin suallarını cavablandırarkən bildirib: “Adıçəkilən qurumlarla bağlı digər orqanlar tərəfindən araşdırma aparıldığı üçün mən bu barədə heç nə deyə bilmərəm”.

## ***İmran Abdullayev:*** "Qida məhsullarının standartlarında dəyişikliklər edilməlidir"

“Azərbaycanda mövcud olan qida məhsullarının hər birinin standartlarında dəyişikliklər edilməlidir”. Bunu APA-ya açıqlamasında Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin (RGEM) şöbə müdiri İmran Abdullayev bildirib. İ. Abdullayev deyib ki, dünyanın bütün ölkələrində olduğu kimi Azərbaycanda da müxtəlif çeşidli qida standartları var və onların hər birinin 3-5 il etibarlıq müddəti olur. Onun sözlərinə görə, bu müddət ərzində tələblər dəyişdikcə və zərurətlər meydana çıxdıqca bu standartlarda müəyyən dəyişiklik olunmalıdır: “Bizim həyatımızda da müxtəlif çeşidli qida məhsulları var. Azərbaycanın qida ilə bağlı standartlarda əksər ərzaq məhsullarının normativ standartları var. Onlar zaman-zaman işlənir və yeni texnologiyalar çıxdıqca təzələnir. Bu məsələdə qida məhsullarının keyfiyyət və təhlükəsizlik parametrləri əsas götürülür. Təhlükəsizlik parametrlərində çirkləndirici amillərə qoyulan kriteyalar isə Səhiyyə Nazirliyi tərəfindən müəyyənləşdirilir. Ona görə də bütün bu proseslərlə bağlı aidiyyatı təşkilatlar, o cümlədən Səhiyyə Nazirliyi ilə məsləhətləşmələr edilir”.

## Korrupsiyaya qarşı mübarizə idarəsi hesabat açıqladı

Azərbaycan Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə idarəsi 2012-ci il ərzindəki fəaliyyətinə dair hesabatını açıqlayıb.

APA-nın məlumatına görə, idarənin rəisi Kamran Əliyev dünən keçirdiyi mətbuat konfransında bildirib ki, ötən il ərzində idarə tərəfindən vətəndaşların 1198 müraciətinə baxılıb, həmçinin 229 cinayət xarakterli material araşdırılıb. Həmin cinayət xarakterli materialların 58 faizi üzrə cinayət işi başlanıb, digər məlumatlar üzrə isə idarə tərəfindən zəruri qabaqlayıcı tədbirlərin görülməsi təmin edilib.

K. Əliyev qeyd edib ki, Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin 161 nömrəli “Qaynar xətt” əlaqə mərkəzinə 5143 müraciət daxil olub, həmin müraciətlərin 34-ü üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmaqla istintaq aparılıb, onlardan 17-si üzrə ibtidai istintaq yekunlaşdırılaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib. Həmçinin, əlaqəli dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində digər müraciətlərin müsbət həll olunması təmin edilməklə vətəndaşların pozulmuş hüquqları bərpa edilmiş və aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması məqsədilə müvafiq təşkilatlara təqdimatlar göndərilib. Bununla yanaşı, korrupsiya ilə əlaqədar olmayan müraciət müəlliflərinə mülki, ailə, mənzil, inzibati və digər hüquq sahələrində pozulmuş hüquqlarının bərpası yollarına dair ətraflı izahlar verilib.

## İran və Azərbaycan sərhədçiləri görüş keçirib

İran və Azərbaycanın sərhəd xidmətlərinin rəsmiləri arasında görüş keçirilib. APA-nın İRİB-ə istinadən məlumatına görə, toplantı Astara şəhərində baş tutub. Qapalı keçirilmiş görüşdə Azərbaycanın İrandakı səfiri Cavanşir Axundov, İranın Azərbaycandakı səfiri Möhsün Pak Ayin və Azərbaycanın Təbrizdəki baş konsulu Əli Əlizadə iştirak edib. Toplantının nə vaxt və nə üçün qapalı keçirilməsinin səbəblərinə aydınlıq gətirilməyib, eyni zamanda detallarla bağlı ictimaiyyətə heç bir məlumat verilməyib. Lakin yığıncaqda hər iki ölkənin sərhəd bölgələrində yaşayan vətəndaşların milli pasportla gediş-gəliş imkanlarının araşdırıldığı bildirilir.

Qeyd edək ki, Milli Məclis İranla sərhəddə yaşayan Azərbaycan vətəndaşlarına asanlaşdırılmış gediş-gəliş imkanı yaradan memorandumu ləğv edib.

## Azərbaycan ötən il 804 milyon dollarlıq silah alıb

Azərbaycan 2012-ci ildə dünyanın 18-ci ən böyük silah və hərbi texnika idxalçısı olub. APA-nın məlumatına görə, bu barədə Silah Ticarətinin Beynəlxalq Analizi Mərkəzinin (SAMTO) hazırladığı illik hesabatda bildirilir. Mərkəzin hazırladığı statistikaya görə, ötən il Azərbaycan 804 milyon ABŞ dolları dəyərində silah idxalı həyata keçirib. Ən böyük silah idxalçılarının ikinci onluğunda İngiltərə, İtaliya, Yaponiya, Norveç, BƏƏ, ABŞ, Kanada, Azərbaycan, Danimarka və Əfqanıstan yer alıb. Ən böyük silah idxalçılarının birinci onluğuna isə 13 milyard 239 milyon dollar sifarişlə Hindistan başçılıq edib. İlk onluqda sonrakı yerlərdə İraq, Oman, Avstraliya, Səudiyyə Ərəbistanı, Tayvan, Əlcəzair, Çin, İsrail və İndoneziya qərarlaşır.

## Tiflisdə zəlzələ olub

Tiflisdə yanvarın 22-də saat 21.28-də 3,01 bal gücündə zəlzələ baş verib. APA-nın “RBK”ya istinadən verdiyi xəbərə görə, Gürcüstan Seysmoloji xidmətinin məlumatına görə, yeraltı təkanların episentri paytaxtın İsanı-Samqor rayonunda qeydə alınıb. Dağıntı barədə məlumat yoxdur.

## ***Liberman:*** "İsrail–Azərbaycan əlaqələri daha da inkişaf edəcək"

“İsrail-Azərbaycan əlaqələri daha da inkişaf edəcək”. APA-nın xəbərinə görə, bunu İsrailin keçmiş xarici işlər naziri Aviqdor Liberman “Vestnik Kafkaza” saytına müsahibəsində deyib. O, fəaliyyət göstərdiyi müddətdə özünün ən əsas nailiyyətinin İsrailin Azərbaycan və Qazaxıstanla münasibətlərinin möhkəmləndirilməsi olduğunu söyləyib. A. Liberman bildirib ki, bu münasibətlər ümumilikdə yəhudi dövlətinin müsəlman ölkələri ilə əlaqələrinin inkişafına şərait yaradıb. A. Liberman ümid edir ki, seçkilərdən sonra yenidən əvvəlki postuna qayıdacaq: “Lakin əgər bu baş verməzsə, bütün hallarda İsrailin Qafqaz və Mərkəzi Asiya ölkələri ilə əlaqələri eyni istiqamətdə davam edəcək və bu ölkələrlə əməkdaşlıq genişlənəcək. Eyni zamanda ən böyük diqqət həmişə olduğu kimi, Azərbaycan və Qazaxıstanla münasibətlərin daha da inkişaf etdirilməsinə yönələcək”. Onun sözlərinə görə, bu ölkələrlə silah satışı, yeni texnologiyalar, elmi və mədəni mübadilə sahələrində uzunmüddətli müqavilələr mövcuddur.

# *İlham Əliyev:* "Davosda özümüzü beynəlxalq biznes ictimaiyyətinə təqdim etmək niyyətindəyik"

"Ölkəmiz inkişaf edir və bu inkişaf çox sürətlə gedir. Biz özümüzü beynəlxalq biznes ictimaiyyətinə, xüsusilə də ölkəmizlə işləməyənlərə təqdim etmək niyyətindəyik".

APA-nın məlumatına görə, Azərbaycan Prezidenti İlham Əliyev Davos səfəri çərçivəsində CNN telekanalının məşhur jurnalisti Riçard Kvestə verdiyi müsahibəsində belə deyib.



Prezident qeyd edib ki, Azərbaycan öz qapılarını ölkəmizdə işləmək, iqtisadiyyatına investisiya yatırmaq istəyən dostlar və tərəfdaşlara geniş şəkildə açıb. Prezident Riçard Kvestin Davos forumunun xarici investorların ölkə ilə tanış olmasına şərait yaradan geniş meydan olması ilə bağlı sualını belə cavablandırıb: "Şübhəsiz ki bu belədir. Bura mənim haqqında danışdığım işləri həyata keçirmək üçün ən yaxşı yerdir. Çünki burada beynəlxalq biznesin, siyasətin elitası təmsil olunur. Davos Forumunda dünyanın aparıcı şirkətlərinin rəhbərləri iştirak edir. Bu baxımdan bura öz ölkəni təqdim etmək üçün ən yaxşı yerdir".

Riçard Kvest son zamanlar KİV-də ən çox müzakirə olunan mövzulardan birinin Azərbaycanla BP neft şirkətinin münasibətləri olduğunu deyib. O, hazırda BP-nin Rusiyanın "Rosneft" şirkəti ilə əlaqələrini möhkəmləndirdiyini xatırladıb və BP şirkətinin bu faktordan Azərbaycana təzyiq vasitəsi kimi istifadə edə biləcəyini soruşub. Prezident Azərbaycanın belə bir narahatlığın olmadığını deyib: "İlk növbədə qeyd edim ki, təbii ki, bizim belə bir narahatlığımız yoxdur. BP Azərbaycanda müstəqilliyimizin ilk illərindən – 1994-cü ildən fəaliyyət göstərən bir şirkətdir. Bizim əlaqələrimizin tarixi 20 ilə yaxındır. Bu münasibətlər hər zaman dostluq, əməkdaşlıq əlaqələri əsasında qurulub. Bundan başqa bu münasibətlərin ən azı 20 il də davam edəcəyi gözlənilir. Çünki bizim həyata keçirdiyimiz birgə layihələr gələcəyə hesablanıb. Bu səbəbdən də BP-nin başqa tərəfdaşları ilə hər hansı başqa səbəblərə görə əlaqə qurduğunu düşünmürəm".

Prezident həmçinin Azərbaycanın nümayəndə heyətinin Davosdakı əsas vəzifəsinə də toxunub. Onun sözlərinə görə, Azərbaycan iqtisadiyyatı çox stabildir və hətta böhranın olduğu illərdə belə iqtisadi artıma nail olub: "Azərbaycan iqtisadiyyatı dünyada ən sox inkişaf edən iqtisadiyyatlarından biridir. Son 10 ildə ümumi daxili məhsulu 300 faiz artırmağa nail olmuşuq. Bundan başqa hazırda bizim iqtisadiyyatımız şaxələnmiş iqtisadiyyatdır. Bu gün əsas vəzifələrimizdən biri sərmayədarları təkcə enerji sektoruna deyil, o cümlədən qeyri-neft sektoruna, xüsusilə də informasiya texnologiyaları, yüksək texnologiyalar və xidmət sektoruna cəlb etməkdir".

# Mehriban Əliyeva "Humanizm simvolu–2012-ci ilin adamı" elan edilib

Pakistanın nüfuzlu "Daily Times" qəzeti və Qadın Könüllülər Təşkilatı Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanı "Humanizm simvolu–2012-ci ilin adamı" elan edib. Fonddan verilən məlumata görə, İslamabadın "Serena" mehmanxanasında mükafatın təqdimetmə mərasimi keçirilib. Tədbirdə Pakistan Milli Assambleyasının sədri vəzifəsini icra edən Fəsəl Kərim Kundi, Senatın sədr müavini Sabir Bəluc, Milli Assambleyanın və Senatın komitə sədrləri, senatorlar, Milli Assambleyanın deputatları, digər dövlət və hökumət adamları, tanınmış ziyalılar, nüfuzlu universitetlərin rektorları, jurnalistlər, bir sıra ölkələrin İslamabaddakı səfirləri iştirak ediblər. Qadın Könüllülər Təşkilatının sədri xanım Samina Şah Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə Pakistanda həyata keçirilmiş humanitar layihələr haqqında geniş məlumat verib: " 2007-ci ildə Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə Pakistanın zəlzələdən zərər çəkmiş Müzəffərabad şəhərində qızlar məktəbi tikilib, 2012-ci ildə isə həmin məktəb əsaslı təmir edilib, orada yenidənqurma işləri aparılıb. Fond tərəfindən Pakistanda silsilə humanitar yardımlar proqramı çərçivəsində "Edhi Home" kimsəsizlər evində sığınacaq tapan uşaqlara tibbi baxış və hepatit B virusuna qarşı peyvəndləşdirmə aparılıb, Peşavar şəhərində "Akbar Care" Serebral Paraliç İnstitutunda, həmçinin Xeybər Paxtunxva əyalətinin Laki Marvat şəhərinin qadınlar və uşaqlar xəstəxanasında imkansızlar üçün pulsuz müayinə təşkil edilib, İslamabad şəhərinin "Kulsum İnternational" klinikasında açıq ürək əməliyyatları maliyyələşdirilib, Həmzə Fonduna (Peşavar) müasir qanköçürmə avadanlığı və laboratoriya ilə təchiz edilmiş təcili tibbi yardım avtomobili və 2000 qanköçürmə paketi hədiyyə edilib, Xeybər Göz Fondunun yeni binasının inşası üçün maddi yardım göstərilib, Pakistanın bütün əyalətlərində Ramazan ayında iftar süfrələri təşkil edilib, Qurban bayramında Lakki Marvat bölgəsində və Pəncab əyalətində qurbanlıqlar kəsilərək əhalinin kasıb təbəqəsinə paylanılıb".

Xanım Samina Şah deyib ki, "Daily Times" qəzeti və Qadın Könüllülər Təşkilatı bütün bunları nəzərə alaraq Mehriban xanımı "Humanizm simvolu–2012-ci ilin adamı" elan edib.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımın nəcib və xeyirxah fəaliyyətini, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Pakistan da daxil olmaqla xarici ölkələrdə həyata keçirdiyi xeyriyyə tədbirlərini əks etdirən videoçarx nümayiş etdirilib.

Pakistan Milli Assambleyasının sədri vəzifəsini icra edən Fəsəl Kərim Kundi mükafatı Azərbaycanın Pakistandakı səfiri Daşqın Şikarova təqdim edib. Mərasim məktəblilərin tanınmış instrumental qrupunun ifasında konsert proqramı ilə başa çatıb.

Təqdimat mərasimi Pakistanın nüfuzlu mətbuat orqanlarında – "Pakistan Observer", "The News", "Daily Times" və "The Nation", "DNA News", "Centreline", həmçinin PTV, DRY News, Vakt TV, CNBC və digər yerli kanallarda geniş işıqlandırılıb.

**Sevinc HƏMİDLİ**

# "Elə bir model təklif edəcəyik ki, Müsavat imtina etməsin"

***YUSİF BAĞIRZADƏ:*** "TANINMIŞ BİR ZİYALININ TƏŞƏBBÜSÜ İLƏ PARTİYALARARASI DANIŞIQLAR BAŞLAYIB"

**Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Yusif Bağırzadənin APA-ya müsahibəsi**

***– AMİP-in seçki strategiyası müəyyənləşibmi?***

– AMİP hakimiyyətə gəlməyin yolunun seçkidən keçdiyi qənaətindədir və Azərbaycanda hakimiyyət uğrunda mübarizə apardığını bəyan edən ilk siyasi partiyadır. Bundan başqa, müxalifət partiyalarının inteqrasiyası məsələsi də strateji xəttimizin bir hissəsidir.

***– Ötən il AMİP-in İctimai Palatanı tərk etməsini bu partiyanın müxalifətin inteqrasiyasına xidmət etməməsi kimi şərh edənlər oldu. Hələ də İctimai Palatanı tərk etməklə düzgün addım atdığınız qənaətindəsiniz?***

– Bu qərar təkcə mənim yox, partiyanın qərarı olub. Çünki AMİP-də bütün qərarlar kollegial qəbul olunur. İctimai Palatada və ya digər qurumlarda partiyanın təmsilçiliyi təkcə mənim arzumla həyata keçmir. Bizim İctimai Palatanın təsisçisi olmağımız da, buradan çıxmağımız da AMİP-in rəhbər strukturunun verdiyi kollegial qərara əsasən həyata keçib. O ki qaldı atdığımız addımın düzgün olub-olmamasına, bunu birmənalı olaraq bildirim ki, AMİP-in İctimai Palatanı tərk etməsi düzgün qərar idi. Sonuncu hadisələr də göstərdi ki, bu qərarı verməklə düzgün addım atmışıq. Düşünürəm ki, bu vəziyyətdə AMİP-in bu qurumda olmaması yaxşı haldır.

***– İctimai Palatadan kənarlaşdıqdan sonra partiyanın hər hansı birlikdə olmayacağı qənaəti vardı. Səhv etmirəmsə, AMİP-in buna bənzər açıqlaması da olmuşdu...***

– Bayaq dediyim kimi, İctimai Palatanı tərk etməyimiz düzgün addım idi. Bunu hazırki situasiya da göstərdi. Digər birliklərdə təmsilçilik məsələsinə gəldikdə isə, AMİP yarandığı gündən üzü bəri yaranmasında və təşkilatçılığında iştirak etmədiyi heç bir birlikdə təmsil olunmayıb. Biz ancaq yaranmasında özümüz iştirak etdiyimiz birliklərdə təmsil olunmuşuq. Məşvərət Məclisinin yaranmasında da məqsəd İctimai Palatadakı səhvləri təkrar etməmək və müxalifətin daha geniş konsolidasiyasına nail olmaqdan ibarət olub. Biz Məşvərət Məclisini yaratmaqla kənarda qalan siyasi dairələrin də fəallaşmasına nail olduq və bu istiqamətdə fəaliyyətimiz bundan sonra da davam edəcək. Bu gün müxalifətin konsolidasiyasını ən çox istəyən və bununla bağlı "Seçki İslahatları Memorandumu"nu belə qəbul edən ilk birlik Məşvərət Məclisidir.

***– Bu istəyi İctimai Palatada reallaşdırmaq mümkün deyildimi?***

– İlk gündən biz İctimai Palatanın daha geniş formatda olmasını istəyirdik. Çünki əvvəldən də bu niyyət razılaşdırılmışdı. Ancaq bu olmadı. Bunun əvəzinə İctimai Palata qapıları bağlamaq siyasəti apardı, bura gəlmək istəyən partiyaların yolu kəsildi və onların qarşısına müəyyən şərtlər qoyuldu. Bundan savayı, hər hansı bir təşkilatlanma olmadan vaxtsız aksiyaların keçirilməsi barədə qərar qəbul edildi. Bu da düzgün addım deyildi və zaman da bunu sübut etdi. Bu gün artıq İctimai Palatada olan bir qisim qüvvələr də müxalifətin daha geniş koalisiyasının yaranmasının vacib olduğu haqda fikirlər bildirirlər. Düşündük ki, bu qurumun belə formatda müxalifətin güc mərkəzinə çevrilməsi mümkün olmayacaq. İkincisi də 2010-cu ilin parlament seçkiləri kimin iqtidarla birgə olduğunu, kimin isə olmadığını göstərdi. Baxın, AMİP nə edir? İctimai Palatada olan qurumların vaxtilə öz yanında görmək istəmədiyi partiyaları Məşvərət Məclisi formatında bir-birinə yaxınlaşdırır. Biz bununla müxalifətin inteqrasiyası ilə bağlı niyyətimizi ortaya qoymuşuq. AMİP ilk gündən siyasi təşkilatların klub formatında birləşməsinin əleyhinə olub. Biz müxalifətin təklif etdiyi islahatlara nail olmağın birgə fəaliyyətdən keçdiyi qənaətindəyik.

***– Bəs niyə bu istiqamətdə aparılan danışıqlar öz bəhrəsini vermir?***

– Mən deməzdim ki, görülən işlər öz bəhrəsini vermir. Məsələn, kimin nə deməsindən asılı olmayaraq, 13 partiyanın təmsil olunduğu Məşvərət Məclisi fəaliyyət göstərir, "Seçki İslahatları Memorandumu" qəbul olunub. Onu da deyim ki, əslində Azərbaycanın fəal müxalifət partiyalarının siyasi baxışlarında ciddi ideoloji fərqlər yoxdur. Bu da müxalifətin birliyinə nail olmaq üçün bir şansdır.



***– Demokratik Qüvvələrin Məşvərət Məclisinin perspektivinə inanırsınızmı?***

– Məşvərət Məclisi siyasi partiyaların inteqrasiyası məqsədilə təsis olunub. Bu qurum burada təmsil olunan partiyaların qarşısına heç bir öhdəlik qoymur. Əksinə, siyasi proseslərdə fəal iştiraka zəmin yaradır. Bu qurumun qərarları da tövsiyə xarakter daşıyır.

***– Ancaq ictimaiyyət Məşvərət Məclisindən daha kəskin addımlar atmağı gözləyirdi...***

– Niyə, bəziləri elə düşünür ki, aksiya, piket, yürüş keçirməklə nəyəsə nail olmaq olar? Əlbəttə, bu da lazımdır. Siyasi mədəniyyət bir yerə toplaşıb, bu və ya digər məsələləri müzakirə etməklə başlayır. Müxalifətin yolu vahid ideya, namizəd və platforma mövqeyindən çıxış etməkdən keçir. Keçmiş SSRİ məkanında olan ölkələrin bir çoxu uğuru bu strategiyanı qəbul etməklə əldə ediblər. Yəni bu, sınanmış taktikadır.

***– Müsavat Partiyasının başqanı İsa Qəmbər prezidentliyə namizədliyini irəli sürüb. Belə vəziyyətdə müxalifətin konsolidasiyasına hansı şəkildə nail olmaq olar?***

– Əlbəttə, Müsavat Partiyasının iştirakı olmadan müxalifətin birliyinin reallaşdırılması çətin olacaq. Müsavatın hazırki mövqeyi müxalifətin birliyinin reallaşdırılmasında problem yaradacaq. Lakin seçki kampaniyasına rəsmi start verilməyib. Bu baxımdan hələ yaxınlaşmaq imkanı tükənməyib. Əgər bu baş verməsə belə, yenə də o fikirdəyəm ki, heç olmasa birlikdə mübarizə aparmaq istəyən qüvvələrin birliyinə və vahid mövqedən çıxış edərək birgə mübarizəsinə nail olmaq lazımdır.

Əslində əsas və güclü siyasi partiyaların bir araya gəlməsi daha uğurludur. Bununla razıyam. Hətta sizə bir məlumatı verim ki, artıq bu partiyaların seçkilərdə birgə fəaliyyəti ilə bağlı təşəbbüs var və bu istiqamətdə danışıqlar gedir. Hələlik bununla bağlı mətbuata açıqlama verilməməyə dair razılaşma var.

***– Danışıqlar hansı partiyanın təşəbbüsü ilə başlayıb?***

– Heç bir partiyanın. Azərbaycanda kifayət qədər tanınmış bir ziyalının təşəbbüsü ilə bu danışıqlar başlayıb. Müzakirələr partiya sədrləri səviyyəsində aparılır.

***– Bu müzakirələrdə Müsavat Partiyası iştirak edirmi?***

– Hələlik Müsavat Partiyasının başqanı bu müzakirələrə qatılmır. Bizim niyyətimiz İsa Qəmbərin də bu danışıqlara qoşulmasıdır. Hələ ki buna nail olmamışıq. Ancaq dediyim kimi, həmin partiyaların görüşü baş tutub və müzakirələr gedir. İlkin olaraq istəklərimizdən biri də Müsavat Partiyasını öz aramızda görməkdir. Biz elə bir model təklif edəcəyik ki, Müsavat bundan imtina etməsin.

***– Bu yeni model olacaq?***

– Xeyr, "Seçki İslahatları Memorandumu"ndan irəli gələn təşəbbüsün davamıdır.

***– Bəs, bütün bunlar öz bəhrəsini verməzsə, AMİP prezident seçkilərinə hansı formatda qatılacaq?***

– Ümid hələ tükənməyib. Ancaq belə davam edərsə, yəni müxalifətin birliyinə maneə yaradan partiyalar öz mövqelərindən çəkinməzsə, AMİP fərdi qaydada seçkiyə gedəcək. Martın birinci ongünlüyündə AMİP Mərkəzi Şurasının iclası keçiriləcək. İclasda qurultayın vaxtı bəlli olacaq. Qurultayda isə AMİP-in seçki mövqeyi və namizədi müəyyənləşə bilər.

# *Dmitri Medvedyev:* "SSRİ-nin bərpası haqda söz-söhbətlər sayıqlamadır"

Rusiyanın baş naziri Dmitri Medvedyev ölkəsinin SSRİ-ni bərpa etməyə çalışdığı haqda söz-söhbəti sayıqlama adlandırıb. APA-nın "RİS Novosti"yə istinadən verdiyi məlumata görə, D. Medvedyev Davos İqtisadi Forumunda çıxışında bildirib ki, keçmişə yol yoxdur: "Biz tez-tez eşidirik ki, Gömrük İttifaqı və Vahid İqtisadi Məkan SSRİ-nin bərpası deməkdir. Bu, sayıqlamadır. Ətrafa boylanın, özünüzə və bizə baxın – biz hamımız başqa insanlar olmuşuq və gələcəyə baxırıq. Bizim qarşılıqlı faydalı əsasda inteqrasiyanı möhkəmləndirmək üçün dəqiq planımız var. Biz Avropa Birliyinin həm müsbət, həm də mənfi təcrübəsindən yararlanaraq bu planı həyata keçirəcəyik".



D. Medvedyev qeyd edib ki, bu yolda çətinliklər az deyil, lakin bunun faydası daha çox olacaq: "Elə buna görə biz Avropa Birliyinə daha sıx, hətta maksimum sıx əməkdaşlığa keçməyi, vizasız rejim tətbiq etməyi və nəhayət, ümumi iqtisadi məkan formalaşdırmağı təklif edirik".

# Türkiyənin "Yüksel Savunma Sistemləri" şirkəti Azərbaycanla əməkdaşlıq etməyi planlaşdırır

Türkiyənin insansız atış platformalarının istehsalı sahəsində ixtisaslaşmış firmalarından olan "Yüksel Savunma Sistemləri" Azərbaycanla əməkdaşlıq qurmağı planlaşdırır. Bu barədə APA-ya açıqlamasında şirkətin biznesin inkişafı şöbəsinin müdiri Erol Altınok bildirib.

Hazırda Bakıda səfərdə olan Türkiyə müdafiə sənayesi firmalarının heyətində təmsil olunan "Yüksel Savunma Sistemləri"nin Azərbaycanla bağlı planlarının olduğunu deyən E. Altınokun sözlərinə görə, indiyədək bir neçə dəfə ölkəmizdə olub və görüşlər keçiriblər: "Azərbaycanda bu tip komandalı silah platformalarına tələblər var. Bizim hazırladığımız "Növbətçi", YAK, D-YAK tipli insansız atış platformaları Azərbaycan mühiti üçün də uyğundur. Bu sistemlər Türkiyədə hərbi məntəqələrin, sərhəddə yerləşən infrastrukturun mühafizəsi, gözlənilməz basqınlarda əsgərlər arasında itkiləri minimuma endirmək məqsədi ilə hazırlanıb".

Şirkət rəsmisinin sözlərinə görə, adıçəkilən sistemlərin Azərbaycana birbaşa satışı ilə yanaşı, onların yerli müəssisələrdə istehsalını təşkil etmək də mümkündür. Görüşlərdə bu məsələ də müzakirə olunur.

E. Altınokun sözlərinə görə, "Növbətçi" adı verilmiş komandalı silah sisteminin üzərinə həm NATO ölkələrində, həm də postsovet məkanında istehsal olunan 7,62 mm kalibrədək silahları qurmaq olar. Bütün proqramı türk mühəndisləri tərəfindən hazırlanmış bu sistemin istifadəçi tərəfindən tam mənimsənilməsi maksimum 2 gün tələb edir. "Növbətçi" proqramlaşdırıldıqda müəyyən trayektoriyfa üzrə hərəkət edə, elektrooptik və termal kameralar vasitəsi ilə hər cür hava şəraitində müşahidə apara, hədəfləri təsbit edə, məsafəsini və koordinatlarını müəyyənləşdirə, birdən artıq hədəflərə atəş aça bilir. Lazım olduqda bu sistem vasitəsi ilə hədəfin dəqiq koordinatlarını dəstək qüvvələrinə (helikopterlər, minaatanlar və s.) də ötürmək mümkündür. Şirkətin hazırladığı, 7,62 mm-dən böyük kalibrli güllələrlə atəş açan silahların yerləşdirildiyi YAK (Yüksel Atış Kullesi) adlı digər sistem isə həm stasionar, həm də nəqliyyat vasitələrinin, D-YAK isə dəniz platformalarının silahlandırılması üçün nəzərdə tutulur.

# Baş Prokurorluq Elçibəylə bağlı cinayət işinə dair yeni açıqlama verdi

"Əbülfəz Elçibəyin zəhərlənməsi ilə əlaqədar başlanmış cinayət işinin istintaqının guya dayandırılması barədə bəzi kütləvi informasiya vasitələrində yayılmış məlumatlar doğru deyil".

Bu barədə Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov Modern.az-ın sorğusuna cavabında bildirib. E.Sultanovun sözlərinə görə, Azərbaycanın mərhum eks-prezidentinin zəhərlənməsi ilə bağlı başlanmış cinayət işinin nəticələri ilə bağlı ictimaiyyətə əlavə informasiya veriləcək.

"Qeyd edilən cinayət işi üzrə Bakı şəhər prokurorluğunda zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir və nəticəsi barədə ictimaiyyətə əlavə informasiya veriləcəkdir".

Qeyd edək ki, mərhum eks-prezidentin qardaşı Almurad Əliyev də Modern.az-a açıqlamasında Əbülfəz Elçibəyin zəhərlənməsi iddiası üzrə başlanmış cinayət işinin müvəqqəti dayandırıldığını bildirmişdi.

Xatırladaq ki, Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyevin müraciəti əsasında Əbülfəz Elçibəyin qəsdən zəhərlənməsinin araşdırılması məqsədilə Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi açıb. Bir müddət əvvəl Azərbaycanın eks-prezidenti, mərhum Əbülfəz Elçibəyin həyat yoldaşı Həlimə Əliyeva cinayət işi üzrə Bakı şəhər Prokurorluğunda ifadə verib.

Əbülfəz Elçibəy 1992-1993-cü illərdə Azərbaycanın prezidenti olub.

# Nikahların sayının azalmasının səbəbləri açıqlanıb

"Artıq Azərbaycanda insanlar daha ağıllı və düşünülmüş formada ailə qurmaq istəyir. Bu da ötən il ölkədə nikahların sayına müəyyən təsir göstərib". Bunu APA-ya açıqlamasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Aynur Veysəlova deyib. O bildirib ki, insanların münasibətləri tənzimlənən, ailədaxili münasibətlər sistemini daha yaxşı formalaşdıran nikah formasını seçməsi nəticəsində ölkədə nikahların sayı azalıb. Onun sözlərinə görə, ölkədə nikahların ümumi əmsalı 2011-ci ildə 9,7 olduğu halda, 2012-ci ildə bu rəqəm 8,6 olub. Boşanmaların sayında isə artım müşahidə edilib.

Komitə rəsmisi nikahlarının sayının az, boşanmaların isə çox olmasının səbəblərinə aydınlıq gətirib: "Qanunvericilikdə olan dəyişikliklər və qadınların iqtisadi cəhətdən müəyyən mənada imkanlar əldə etməsi, hüquqlarını bilməsi onlara şərait yaradır ki, ailədə üzləşdiyi zorakılığa, təzyiqlərə məruz qalmasın və öz haqqını tələb etsin. Bu da boşanmaya təsir edir. Bundan əlavə, ekoloji problemlərin reproduktiv sağlamlığa olan təsiri nəticəsində sonsuzluq kimi məsələlərin olması boşanmaya gətirib çıxarır. Boşanmaya təsir edən ən ağrılı məqam isə erkən nikah məsələsidir. Erkən nikaha girən xanım və bəylər çox sonradan şəxsiyyət kimi formalaşır və hadisələrə münasibətləri dəyişir. Bu da ailədə problemlər yaradır və çox vaxt boşanma ilə nəticələnir".

# Azərbaycan ötən il taxıl istehsalını 14% artırıb

Ötən il ərzində Azərbaycanda kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 4 763,7 mln. manat olub. Onun sabit qiymətlərlə dəyəri 2011-ci ildəkinə nisbətən 5,8%, o cümlədən bitkiçilik məhsulları üzrə 5,8%, heyvandarlıq məhsulları üzrə isə 5,9% artıb.

Dövlət Statistika Komitəsindən "APA-Economics"ə verilən məlumata görə, 2012-ci ildə ölkədə qarğıdalı da nəzərə alınmaqla 1 030,8 min hektar sahədən, hər hektardan orta hesabla 27,2 sentner olmaqla, ilkin çəkidə 2 802,3 min ton taxıl məhsulu toplanıb. Əvvəlki ilə nisbətən taxıl istehsalı 14% və ya 343,8 min ton artıb.

"Dənli və dənli paxlalıların tərkibində payızlıq və yazlıq buğda əsas yer tutur. Belə ki, istehsal olunmuş taxıl məhsulunun 65,9%-ni və ya 1 847,4 min tonunu buğda təşkil edib. Taxılın 6,5%-i və ya 181,9 min tonu isə qarğıdalının payına düşüb", – deyə Komitədən bildirilib.



Bununla yanaşı, hesabat ilində ölkədə xam pambığın istehsalı 56,8 min ton olub və 2011-ci illə müqayisədə 14,4% azalıb. Pambıq istehsalının azalmasına əkin sahəsinin 2011-ci ildəki 42,8 min hektardan 2012-ci ildə 29,2 min hektara qədər azalması təsir göstərib. Əkin sahəsi azalsa da, məhsuldarlıq 15,5 sentnerdən 19,5 sentnerədək yüksəlib.

Tütün istehsalı 2011-ci ilə nisbətən 19,3% artaraq 4,3 min tona çatıb.

# Sevinc Fətəliyeva: “Qloballaşma beynəlmiləlçiliyin yeni mərhələsidir”

“Qlobal və milli iqtisadiyyat, onların siyası – iqtisadi tərkibi kimi, XX əsrin sonlarında intensiv inteqrasiya cərəyanları ilə xarakterizə olunur. Qloballaşma-ən mühüm forma və eyni zamanda, iqtisadi həyatda beynəlmiləlçiliyin yeni mərhələsidir”. Bu fikirləri Avropa Şurası Parlament Assambleyasının (AŞPA) öz işini davam etdirən qış sessiyasında çıxışı zamanı Azərbaycanın sözügedən qurumdakı nümayəndə heyətinin üzvü, Milli Məclisin (MM) Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva dilə gətirib. Millət vəkili çıxışında qeyd edib ki, bu fenomenin vacib xüsusiyyəti odur ki, müxtəlif beynəlxalq tənzimləyici müəssisələrin yeni tənzimləyiciləri beynəlxalq arenada –Beynəlxalq Maliyyə Fondu (İMF), Dünya Bankı(WB), Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Ümumdünya Ticarət Təşkilatı (WTO) və başqaları digər dövlətlərlə birlikdə getdikcə inkişaf edərək və davamlı olaraq mühüm rol oynamaqdadır: “Bu təşkilatların fəaliyyəti Mərkəzi və Şərqi Avropa ölkələrinin inkişafını, Avropanın siyasi və iqtisadi həyatına özlərinin sonrakı inteqrasiyası ilə yüksəltməyi nəzərdə tutub. Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) yaranması özəl sektorun inkişafını , infrastrukturu, Mərkəzi və Şərqi Avropa ölkələrində bazar islahatlarının struktur dəyişikliklərinin həyata keçirilməsini yüksəldir və bu, Avropada inteqrasiyanın inkişafı prosesində ən mühüm hadisələrdən biri olub. Lakin dövlət sektoruna malik səhmdarlarının olmasına baxmayaraq, bank əsasən digər kommersiya tərəfdaşlarının vasitəsilə özəl sektora investisiya yatırır. Avropa Yenidənqurma və İnkişaf Bankı əsasən özəl müəssisələrə ticarət tərəfdaşları ilə birlikdə səhmlər qoyur. AYİB bank, sənaye və biznes sektoru üçün layihələri maliyyələşdirir. O, həmçinin özəlləşdirməyə dəstək, dövlət müəssisələrinin restrukrizasiyası və bələdiyyə xidmətlərinin təkmilləşdirilməsi istiqamətində dövlət müəssisələri ilə də əməkdaşlıq edir. Avropa Yenidənqurma və İnkişaf Bankının əsas məqsədi açıq iqtisadiyyata ,bazara istinad keçidini yüksəltmək,həmçinin özəl və sahibkar təşəbbüsünü Mərkəzi və Şərqi Avropa ölkələrində həyata keçirməkdir”. Onun bildirdiyinə görə, adıçəkilən bank ölkənin illik vergisini saxlayır və aşağıdakı kriteriyaları öz qarşısına məqsəd kimi qoyur: “Azad seçkilər, müstəqil məhkəmə, vətəndaşların bərabər hüquqlarının qorunması təmin edilməli və bu proseslər qanuna uyğun şəkildə tənzimlənməlidir. Buraya azsaylı millətlərin söz, din, toplaşmaq, hərəkət azadlığı, xüsusi əmlak hüququ, həmkarlar ittifaqı və tətil keçirmə hüquqları daxildir. Buna görə də, bank özünü təkcə arazi bankı kimi deyil ,öz fəaliyyətini Mərkəzi və Şərqi Avropa olkələrində keçid prosesinin inkişafı ilə əlaqələndirən bir qurum kimi nəzərdə tutur. Bu zaman da rəsmi bank öz əməkdaşlığını çoxpartiyalı demokratiya prinsiplərinə, plüralizmə və bazar iqtisadiyyatına yönəlməyən ölkələrdə həyata keçirə bilmir. Öz xüsusi makroiqtisadi göstəricilərinə ciddi şərtlər qoyan Beynəlxalq Maliyyə Fonduna zidd olaraq, bank öz siyasət dəyişikliyini saxlayır. Müxtəlif ölkələr bazar iqtisadiyyatına keçid prosesində fərqli mərhələlərdədir. Yerli şərait bankın əməliyyat metodlarını, onun strategiyasını müəyyən edir , bir neçə halda maliyyə və risk azalmanın yeni yollarının inkişafına gətirib çıxarır.



Bank hər ölkənin əməliyyatı üçün hərtərəfli strategiyalar hazırlayır və özünün maliyyə alətlərini, təlimlərini hər ölkənin və hər proyektin tələbatına, ehtiyaclarına uyğunlaşdırır. Avropa Yenidənqurma və İnkişaf Bankının maliyyələşməsi üçün tələbin səviyyəsi və xüsusiyyəti keçid prosesinin mərhələsindən, o ölkənin və onun özəl investorlara füsunkarlığından asılıdır”.

**K.HƏMZƏOĞLU**

# Franko Frattin: “Azərbaycan və İtaliya arasında qarşılıqlı münasibətlər uğurla inkişaf edir”

“Azərbaycan və İtaliya arasında olan qarşılıqlı münasibətlər uğurla inkişaf edir. Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə sonuncu görüşümdə Azərbaycan-İtaliya və Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı ilə bağlı müsbət fikir mübadiləsi apardıq. Həmçinin 2011-ci ildə mən nazir olan vaxt Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla görüşdüm və biz əməkdaşlığın inkişafı barədə söhbət etdik. “Şərq Tərəfdaşlığı” son bir neçə ildə nəzərəçarpacaq dərəcədə inkişaf etdi və bu təkcə İtaliyaya yox, bütün Avropa İttifaqına aiddir”. Bu barədə İtaliyanın sabiq xarici işlər naziri, Aİ-nin sabiq müvəkkili, Xarici İşlər Nazirliyi nəzdində Beynəlxalq Təşkilat üçün İtaliya Cəmiyyətinin (SIOI) prezidenti Franko Frattini müsahibəsində bildirib.

Avropaya inteqrasiya yolunda İtaliya Azərbaycana hansı dəstəyi verə bilməsinə gəlincə, o deyib ki, İtaliya və onun xalqı əməkdaşlıq üçün ən yaxşı tərəfdaşlardan biri kimi dünyada məşhurdur: “İki ölkə arasında daha yaxın və daha güclü tərəfdaşlıq həm İtaliya, həm də Azərbaycan üçün çox faydalı ola bilər. Mən bir neçə ay əvvəl Bakıda səfərdə olarkən Prezident İlham Əliyev və XİN rəhbəri Elmar Məmmədyarovla görüşdə dediyim kimi, biz artıq çox iş görmüşük və irəlidə daha çox iş var”. Dağlıq Qarabağ münaqişəsi haqqında fikirlərini bildirən və Avropa İttifaqının münaqişənin həllinə cəlb olunmaq istəyinə toxunan F.Frattin deyib ki, Qarabağ probleminə böyük diqqət yetiririr və beynəlxalq ictimaiyyət də belə edir: “Lakin biz beynəlxalq qanun çərçivəsində hərəkət etməliyik. Hətta bu iqtisadi itki olsa belə. Ola bilsin, Avropa İttifaqı davamlı və sülh həllini tapmaq üçün əməkdaşlığa daha çox cəlb olunmalıdır”. Cənubi Tirolun öz müqəddəratını təyinetmə modeli olması barədə danışan qonaq deyib ki, Cənubi Tirol modeli beynəlxalq mənzərədə müsbət istisnadır. Modelin bir çox müsbət cəhətləri var, lakin daimi, davamlı icra və güclü siyasi iradə tələb edir. Biz həmçinin belə bir modelin ağır maliyyə şərtlərini nəzərə almalıyıq. Hər vəziyyətin özünün fərqli həlli var. Və bu haqq xalqdan gəlməlidir, diktə olunmalı deyil. F.Frattin bildirib ki, azərbaycanlıların və italiyalıların bir çox oxşar cəhətləri var: “Azərbaycanlılarla italiyalılar arasında bu qədər ümumi cəhətlər görmək məni həmişə heyran edir. Biz mədəniyyətdən tutmuş iqtisadiyyata qədər bütün münasibətləri təkmilləşdirməliyik. Bu birlikdə inkişaf etmək və əməkdaşlığı daha da gücləndirmək üçün mühüm və gözəl şans ola bilər. Mən Azərbaycanı və onun gördüyü ağır işi yüksək dəyərləndirirəm və ölkənizə son səfərimdə qeyd etdiyim kimi, Azərbaycan Avropanı Asiya ilə birləşdirən körpüdür.

**PƏRVANƏ**

# Azərbaycan bələdiyyələri “Merlər razılaşması” təşəbbüsü ilə tanış olur

Bakıda “Merlər razılaşması” təşəbbüsünə həsr olunmuş məlumat seminarı keçirilir. APA-nın məlumatına görə, seminarda Azərbaycan bələdiyyələrinin nümayəndələri yerli, regional və ümummilli hakimiyyət orqanlarının şəhərlərin enerji effektivliyi və enerji təhlükəsizliyinin artırılmasına, o cümlədən 2020-ci ilədək kabrohidrogen tullantılarının həcmini 20 faizədək azaltmağa dair üzərinə götürdüyü öhdəliklərə dair Avropa Birliyinin təşəbbüsü ilə tanış olublar.

Avropa Birliyinin Azərbaycandakı nümayəndəliyinin təmsilçisi Frederiko Berna bildirib ki, AB Azərbaycanda yaşıl iqtisadiyyatın və alternativ enerji mənbələrinin inkişafını dəstəkləyir: “Azərbaycan ətraf mühitin mühafizəsi sahəsində müəyyən uğurlara imza atıb. Kioto protokolu çərçivəsində Azərbaycanda karbohidrogen tullantılarının səviyyəsi iki dəfə azalıb, həmçinin ətraf mühitin mühafizəsinə imkan verən 20-dək sazişə qoşulub, içməli suyun keyfiyyətinin qaldırılmasına dair layihələr reallaşdırır”.

Seminarda Beynəlxalq Ekoenergetika Akademiyasının vitse-prezidenti Fərhad Əliyev və Sənaye və Energetika Nazirliyinin investisiya şöbəsinin rəhbəri, İNOGATE proqramının ölkədəki koordinatoru Ramiz Rzayev Azərbaycanın enerji effektivliyi siyasəti barədə məlumat verib, İqlim Dəyişiklikləri və Ozon Mərkəsinin direktoru Gülmalı Süleymanov qlobal iqlim dəyişiklikləri və yerli şəraitə uyğunlaşma mövzusunda məruzə edib. “Merlər razılaşması” təşəbbüsünün Tiflis Ofisinin nümayəndəsi Xatuna Siçinava təşəbbüsün məqsədləri, karbohidrogen tullantılarının həcmini 2020-ci ilədək minimum 20 faiz azaltmaq yolları barədə məlumat verib.

“Merlər razılaşması” təşəbbüsü Avropa Birliyinin 4416 şəhərini, Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya regionundan 49 şəhəri öz sıralarında birləşdirir. Avropa Komissiyası bu təşəbbüsün Katibliyinin Lvov və Tiflisdə filiallarının yaradılmasını nəzərdə tutan “Merlər razılaşması – Şərq” adlı xüsusi layihə reallaşdırıb. Bu layihə çərçivəsində Azərbaycanın şəhərlərinə məqsədyönlü dəstək həyata keçiriləcək. Qeyd edək ki, “Merlər razılaşması”nda Azərbaycandan hələlik bir bələdiyyə iştirak edir.

Bu gün Lənkəranda, yanvarın 28-də isə Gəncədə analoji seminarlar keçiriləcək.

# Fuad Qəhrəmanlı: “Əli Kərimli İsa Qəmbərdən beş dəfə çox səs toplayıb”

## “BU CÜR RƏY SORĞULARININ NƏTİCƏLƏRİNƏ – CƏMİYYƏTİN RƏYİNƏ HÖRMƏTLƏ YANAŞMAQ LAZIMDIR”

“Əli Kərimli seçkidə iştirak etmir və ya boykota meyllənir” kimi fikirlərin əsası yoxdur”. Bunu APA-ya açıqlamasında AXCP sədrinin müavini Fuad Qəhrəmanlı deyib. O bildirib ki, AXCP seçki ilə bağlı qərarını hələ verməyib. Çünki AXCP bu qərarın İctimai Palata çərçivəsində veriləcəyini nəzərdə tutur: “İctimai Palatanın son sessiyasında qəbul olunan memorandumda qeyd olunub ki, yekun qərar seçki ərəfəsində veriləcək. Bu mənada Əli Kərimli həmin məqamda seçkiyə qatıla bilər. Hələlik isə belə qərar yoxdur”.

F. Qəhrəmanlı sosial şəbəkələrin birində partiya sədrləri arasında keçirilən rəy sorğusuna da münasibətini açıqlayıb: “Bu rəy sorğusu liderlərin nüfuzunu, onların ictimai reytinqini göstərir. Bütün demokratik ölkələrdə seçkiöncəsi bu cür rəy sorğuları keçirilir. Seçkilərin demokratik keçirildiyi ölkələrdə səsvermənin nəticələri, belə rəy sorğuları ilə uzlaşır. Həmin rəy sorğusunda isə 16 mindən artıq respondent iştirak edib. Əli Kərimlinin aldığı səs 6600-ü artıq keçib, o özünə ən yaxın olan müxalifət namizədindən 5 dəfə artıq səs toplayıb. Əsas rəqabət bu sorğuda Əli Kərimli ilə İlham Əliyev arasında gedir. Ümumi göstəricilərə görə, Əli Kərimlinin səsi digərlərindən daha çoxdur”.

F. Qəhrəmanlı qeyd edib ki, bu cür rəy sorğularının nəticələrinə – cəmiyyətin rəyinə hörmətlə yanaşmaq lazımdır: “Sorğuda ən çox inam qazanan liderin üzərində dayanmaq lazımdır. Bu baxımdan da Əli Kərimlinin lider olması, təkcə AXCP-nin deyil, demokratik düşərgənin şansıdır”.

Partiya funksioneri Ə. Kərimli namizədliyini irəli sürməyəcəyinə dair fikir səsləndirmədiyini də qeyd edib: “Sadəcə bizim ümumi mövqeyimiz müxalifətin daha geniş formatda koalisiyasının yaradılmasıdır. Hər hansı partiyanın və İctimai Palatanın da bunun üçün resursları yetərli deyil. Daha geniş birliyə ehtiyac var. Bu məsələlər istiqamətində ciddi addımlar atıldıqdan sonra seçki mühiti dəyərləndirilərək, müvafiq qərar qəbul olunacaq. Biz indiki halda müxalifətdə iddia nümayişinin tərəfdarı deyilik. İstəyimiz daha çox mübarizə və birlik yaradılmasıdır. Sadəcə zamanı gələndə qərar veriləcək”.

Qeyd edək ki, sorğuda müxalifətçilər arasında rəqabət AXCP sədri Əli Kərimli və İsa Qəmbər arasında gedir. Ə. Kərimli İ. Qəmbəri xeyli qabaqlayır.

# Sənət sərhəd tanımır



*Xəlil MƏCİDOĞLU*
**E-mail: khalil_majid@mail.ru**

### AZƏRBAYCAN MUSİQİSİ

**1-ci yazı**

Musiqi həyatımın ayrılmaz hissəsidir. Musiqinin ovsunlayıcı qüvvəsini, insan həyatındakı rolunu, təsirini lap uşaqlıq vaxtlarından duymuşam, hiss etmişəm. Mənim “musiqi məktəbim” də, “musiqi akademiyam” da radio olub. Ona görə də məni musiqi aləminə qovuşdurduğu üçün radioya minnətdaram.

Keçən əsrin əllinci illərinin əvvəllərində Ağcabədidə şəxsi evlərin radiolaşdırılmasına başlandı və tezliklə hər bir evdən radionun mübarək səsi gəldi. O zaman radioda öz işini sevən professionallar çalışırdılar. Radio, musiqinin əsl təbliğatçısına çevrilmişdi. Hər radio dinləyicisi öz zövqünə uyğun musiqi eşidə bilirdi.

Yeri gəlmişkən, deyim ki, musiqi təbliğatı televiziyalarda daha uğurlu alınardı, çünki burada dinləyici həm görür, həm də eşidir. Təəssüf ki, telekanallar (“Mədəniyyət” kanalı istisna olmaq şərtilə) kommersiyaya aludə (onları səviyyəsiz şoular, mənasız verilişlər, bayağı, əttökən musiqinin təbliği daha çox maraqlandırır) olduqlarından onlardan əsl musiqinin təbliğini gözləmək yersizdir.

Mən, hər yazımı yazanda, özümə sual verirəm: mənim buna haqqım varmı? Musiqi təhsili olmayan bir adamın musiqi haqqında danışmağa, yazmağa haqqı çatırmı? Özüm də cavab verirəm ki, musiqidən yazmaq üçün heç də bu sahədə professional olmağa ehtiyac yoxdur. Musiqi haqqında sıravi dinləyicinin subyektiv, yalnız ona aid olan fikirlərini bilmək daha maraqlıdır. Odur ki, özümə haqq qazandırıb musiqi haqqında yazmaq istəyirəm. Nədən başlamalı? Əlbəttə, Azərbaycan musiqisindən. Ona görə yox ki, özümüzünküdür. Ona görə ki, Azərbaycan musiqisi dünya musiqisində özünün ləyaqətli, şərəfli yerini tutub. Musiqinin elə bir janrı yoxdur ki, Azərbaycan orada öz sözünü deməsin.

Azərbaycan musiqisindən danışanda, şübhəsiz, öncə dahi Üzeyir Hacıbəyli göz önünə gəlir. Əbəs deyil ki, ona Azərbaycan klassik musiqisinin banisi deyirlər.

Orta və ali məktəblərin buraxılış siniflərinin şagirdləri, tələbələri üçün hazırlanan vinetka kimi bir vinetka “Azərbaycan musiqi məktəbi” üçün düzəltsəydik, “direktorun”, “rektorun” (bu şəxslər vinetkanın yuxarısında, ortada, başqalarından daha böyük yer tuturlar) yerində əlbəttə ki, Üzeyir Hacıbəylinin şəkli verilərdi. Buna nə dünya şöhrətli Qara Qarayev, Fikrət Əmirov, nə maestro Niyazi, nə də sağlığında klassik səviyyəsinə yüksəlmiş Arif Məlikov etiraz edərdi. Çünki Üzeyir Hacıbəyli müəllimlərin müəllimi idi.

Üzeyir Hacıbəylinin yaradıcılığına, yaratdıqlarına, gördüyü işlərə nəzər saldıqda, araşdırdıqda, heyrətlənməyə bilmirsən. Bu şəxsin tarixi nöqteyi-nəzərdən qısa bir müddətdə Azərbaycan musiqisinə gətirdiyi inqilabi yeniliklər öz həcminə, əhəmiyyətinə görə yerə-göyə sığmır. O, həm dahi bəstəkar kimi musiqinin bütün janrlarında şedevr əsərlər yaradıb, həm də istedadlı təşkilatçı kimi musiqimizi təşkilatlandırıb, librettolar yazıb, millətin maariflənməsində, mədəniyyətimizdə müstəsna rol oynayıb.

Üzeyir Hacıbəylinin “Arşın mal alan”, “O, olmasın, bu olsun” operettaları yüz ildir ki, səhnələrdən düşmür. “Leyli və Məcnun”, “Əsli və Kərəm” operaları ilə o, Şərqdə ilk opera yaratdı. Bu operalar muğamlar üzərində qurulmuşdu, Azərbaycan musiqi alətlərindən istifadə olunurdu. O dövrün dinləyiciləri, tamaşaçıları üçün bu, daha başa münasib idi. Lakin bu operalardakı bəzi musiqi parçaları, xorlar Qərbyönlü operanın tezliklə yaranacağına bir işarə idi. Doğrudan da, çox keçmədi ki, klassik Qərb operaları üslubunda möhtəşəm “Koroğlu” operası yarandı. Operanın əzəmətli uvertürası illər sonra Vətənimizin ikinci himninə çevrildi. Həm sovetlər dövründə Azərbaycan SSRİ-nin, həm də müstəqil respublikamızın dövlət himninin musiqisinin Üzeyir bəy tərəfindən yazılması da onun qüdrətindən xəbər verir. O, böyük novator idi. Dövlət xalq çalğı alətləri orkestrini, Dövlət simfonik orkestrini yaratdı, onlar üçün ilk olaraq əsərlər yazdı (1,2 saylı fantaziyalar, “Arazbarı” və s.). Müslüm Maqomayev və başqaları da yeni yaranmış orkestrlər üçün musiqi bəstələdilər.

Şedevr romanslar (Azərbaycan musiqisi üçün yeni janr) da (“Sənsiz”, “Sevgili canan”) Üzeyir bəyin musiqimizə töhfəsi idi.

Özümə sual verirəm: nədən Üzeyir bəy klassik janr olan simfoniyalar yaratmayıb. Özüm də cavab verirəm: Üzeyir Hacıbəyli Azərbaycan klassik musiqisinin bünövrəsini qoymaq və bu bünövrəni möhkəmlətməklə məşğul idi. Simfoniyaların da növbəsi gələcəkdi. Axı, onun yaradıcılıq istedadının həddi-hüdudu yox idi. Onun simfoniyalar yaratmağa qüdrəti çatırdı. Təkcə “Koroğlu” operasının uvertürasını dinləməklə bu qənaətə gəlmək olar. Bu uvertüra özü bütöv bir simfoniyaya bərabər musiqidir. Uvertüradan görünür ki, Üzeyir bəy Bethoven tipli simfoniyalar yaradacaqdı, əzəmətli, təntənəli, qəhrəmanlıq əsərləri. Çox heyf ki, ömür imkan vermədi. Çox əsərləri yarımçıq qaldı, yazmağı planlaşdırdığı əsərlər yazılmamış qaldı. Xoşbəxtlik onda idi ki, Üzeyir bəyin istedadlı şagirdləri öz sözlərini deməyə başlamışdılar. Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Niyazi, Rauf Hacıyev, Tofiq Quliyev, Cahangir Cahangirov, Arif Məlikov və başqaları öz ustadlarının arzularını şərəflə yerinə yetirirdilər.

Qara Qarayevin dünyaya səs salmış “Yeddi gözəl”, “İldırımlı yollarla” baletləri, simfonik əsərləri, Cövdət Hacıyevin simfoniyaları, dünya şöhrətli dirijor Niyazinin “Rast” simfonik muğamı, Fikrət Əmirovun “Sevil” operası, “Min bir gecə” baleti, “Şur”, “Kürd-ovşarı” simfonik muğamları, Rauf Hacıyevin operettaları, Tofiq Quliyevin unudulmaz mahnıları, Cahangir Cahangirovun simfonik əsərləri, mahnıları, Arif Məlikovun səhnələrdən düşməyən baletləri, simfoniyaları göstərdi ki, Üzeyir bəyin bünövrəsini qoyduğu Azərbaycan klassik musiqisi etibarlı əllərdədir.

Sonrakı bəstəkarlar nəsli Vasif Adıgözəlov, Şəfiqə Axundova, Aqşin Əlizadə, Xəyyam Mirzəzadə, Tofiq Bakıxanov, Emin Sabitoğlu, Cavanşir Quliyev, Eldar Mansurov və başqaları öz yaradıcılıqları ilə sübut etdilər ki, Azərbaycan musiqisi dünya musiqisində öz ləyaqətli yerini həmişə qoruyub saxlayacaq.

Əlbəttə, Azərbaycan musiqisi bu yazdıqlarımla bitmir. Axı, bizim muğam kimi bir xəzinəmiz var.

Mən dünyaya gözümü muğamla açmışam, çünki Qarabağda, Ağcabədidə doğulmuşam. O dövrlərdə nəinki ustad xanəndələr, hətta, adi toy xanəndələri klassik muğam oxuyurdular, uşaqdan böyüyə qədər hamı muğamı dəyərləndirə bilirdi, ifasında xətalar olan xanəndəyə qulaq asmazdılar. Düzdür, indiki dövrdə də muğamı qəlbən sevən, onu qiymətləndirməyi bacaran insanlar çoxdur. Nardaran kəndində Yaqub Məmmədovla bağlı baş vermiş hadisə o dərəcədə fövqəladə bir hadisədir ki, onun haqqında təkrar-təkrar danışmağa, yazmağa dəyər.

Yaqub Məmmədov Nardarana toya xanəndə kimi dəvət olunur (bu kənddə hər xanəndəni toya dəvət etməzlər). Yaqub Məmmədov toyun əvvəlindəcə “Cahargah” dəsgahını oxuyur. Xanəndənin ifası toy iştirakçılarını heyrətə gətirir, ovsunlayır. Şokdan çıxan masabəyi toy əhlinə müraciətlə: “Mən inanmıram ki, bu gecə bu möcüzə ifadan sonra ona bənzər nəsə eşidək. Yaqubun ilahi ifası beynimizə həkk olundu. Odur ki, bu ovsunlu halımızı pozmamaq üçün toyu bağlı elan edirəm”. Etiraz edən tapılmır.

Bu, Nardaran camaatının Muğama, Yaqub səsinə, ifasına olan sevgisinin, onu qiymətləndirmək bacarığının nə dərəcədə yüksək olduğunun sübutudur.

Yol maşını ilə Ağcabədiyə gedirdim. Maşın yola düşən kimi sürücü maqnitofonu işə saldı. Kimsə kiminsə ata, ana, bacı, qardaş haqqında yazdığı əttökən, səviyyəsiz şeirləri üstündə guya muğam oxuyurdu. Əslində isə, o cılız səsi ilə ağı deyirdi, mərsiyə deyirdi (mənim muğam ifasına utanc gətirən, səviyyəsiz mahnı ifaçıları barədə “Musiqi terrorizmi” adlı yazım dərc olunub). Bu “şedevr”ə qulaq asmaq məcburiyyətində idim. Lakin artıq dözə bilməyib sürücüyə müraciətlə:

– Ağcabədilisən?
– Bəli.
– Lap köklü ağcabədili?
– Bəli.
– Amma inanmağım gəlmir.
– Niyə ki?
– İnana bilmirəm ki, köklü ağcabədili belə bir səviyyəsiz “musiqi”yə qulaq asa bilsin. Ə, Mütəllim Mütəllimov, Yaqub Məmmədov kimi korifeylərinə qulaq asmış bir adam bu cür “zibil musiqi”yə necə qulaq asa bilər?
– Müəllim, onların hər ikisinin, Xan Şuşinskinin, Arif Babayevin, Dədə-Süleymanın kasetləri, diskləri məndə çoxdan var, elə burada olanları da var. Amma mən onlara evdə qulaq asıram, maşında isə müasir sərnişinlərin zövqünü nəzərə alıb, Sizin “zibil musiqi” adlandırdığınız “musiqi”ni səsləndirməli oluram – deyib, Mütəllim Mütəllimovun “Segah”ını səsləndirdi.

Sürücü haqlıdır. İndi səviyyəsiz, insanların musiqi zövqünü korlayan “musiqi”nin təbliği onun çoxsaylı həvəskarlarını, dinləyicilərini yaradıb. Hər yüz metrdən bir 2-3 kv. metrlik budkalara sığınıb güclü səsgücləndiricilərlə havanın ruhunu çirkləndirən, saysız-hesabsız antimusiqi təbliğatı aparanların tələsinə düşmək reallıqdır.

Son dövrlər dövlət tərəfindən muğamlarımızın təbliği, yeni istedadlı muğam ifaçılarının üzə çıxarılması üçün böyük işlər görülüb. Təəssüf ki, bu antimusiqi mərkəzlər də ilbəil öz təbliğatını genişləndirir və etiraf etməliyik ki, bu təbliğat nəticəsiz qalmır.

Ən məşhur xanəndə belə bütün müğamlarımızı eyni səviyyədə oxuya bilməz. İfa üçün mühitin də böyük təsiri var. Hər xanəndə bir-iki muğamı müəyyən mühitdə tam başqa səviyyədə oxuyur. Məsələn, Xan Şuşinskinin “Mirzə Hüseyn” segahı, “Şahnaz”ı, Mütəllim Mütəllimovun “Segah”ı, Ağabala Abdullayevin “Zabul”u, Əlibaba Məmmədovun “Humayun”u, Yaqub Məmmədovun “Cahargah”ı, xüsusilə “Mənsuriyyə”si inanılmaz bir səviyyədə oxunur. Odur ki, belə ifaları Qızıl fonda daxil edib etalon kimi saxlamaq lazımdır.

Deyilənə görə, Xan Şuşinski “Mirzə Hüseyn segahı”nı oxuyanda, o qədər təsirli oxuyarmış ki, məclis iştirakçıları, hətta özü də ağlayarmış. Amma mənə görə, bu göz yaşları qəbiristanlıq, yas məclisində axıdılan göz yaşları deyil. Mən də Xanın bu ifasına, Mütəllim Mütəllimovun “Segah”ına qulaq asanda, sentimentallaşıram, qüssələnirəm, qəhərlənirəm, gözlərim yaşarır, lakin dünyadan əlimi üzmürəm, əksinə, bu ilahi səslərə, fantastik ifalara qulaq asmaq üçün yaşamaq istəyirəm, Allahımdan məni bu cür musiqi aləmindən məhrum etməməyi diləyirəm.

Mənim üçün Yaqub Məmmədovun “Mənsuriyyə”si Bethovenin doqquzuncu simfoniyası kimi əzəmətli, möhtəşəm səslənir.

Fikrət Əmirov simfonik muğam janrı yaratmaqla muğamı dünyaya yaydı. Onun simfonik muğamları dünyanın ən məşhur orkestrlərinin repertuarında yer aldı. Mən Fikrət Əmirovun “Kürd-ovşarı” simfonik muğamına maestro Niyazinin dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik orkestrinin ifasında qulaq asmışam. Dünya şöhrətli Filadelfiya filarmoniyası simfonik orkestrinin, bu yaxınlarda, Qəbələdə musiqi festivalında Böyük Britaniya Krallığı simfonik orkestrinin ifasında əcnəbi musiqiçilərinin Azərbaycan musiqisini ideal səsləndirməsinə heyran qalmışam.

Alim Qasımov öz novatorluğu, ifa üslubu ilə muğamlarımızı əcnəbi millətlərə sevdirə bildi.

Xoşbəxtliyimiz ondadır ki, həyatdan gedən korifey xanəndələrimizin, ustadlarımızın yerləri boş qalmır, onlara layiq gənc nəsil yetişir.

Bizim operalarımız, baletlərimiz, operettalarımızla yanaşı, zəngin kino musiqimiz, dram əsərlərinə, televerilişlərə yazılmış musiqimiz var. Mənə elə gəlir ki, bu tipli musiqini yazmaq müəllifdən xüsusi istedad tələb edir, çünki onun musiqisi ssenaridən, librettodan, süjetdən asılı olur, o, müəyyən sifarişi yerinə yetirmək məcburiyyətindədir. Sifarişlə yüksək səviyyəli musiqi yazmaq isə hər bəstəkarın işi deyil. Bu sahədə Qara Qarayevin, Tofiq Quliyevin, Arif Məlikovun, Polad Bülbüloğlunun, Cavanşir Quliyevin, Emin Sabitoğlunun, Eldar Mansurovun və başqalarının nailiyyətləri göz qabağındadır. Onların bu səpkidə yazdığı musiqi parçaları, mahnıları dillər əzbəridir.

# Allahı və Hippokratı unudanda...

Təsəvvür edin, Təcili Yardım Xidməti can verən insanı yolun ortasında atıb gedir – nə Hippokrat, heç Allahını da gözünün qabağına gətirmədən, elə-beləcə, atıb gedir...

Gözümlə görmüşəm, tıxac vaxtı aeroport yolunda özəl tibb klinikasına məxsus Təcili Yardım Xidməti briqadası maşın qəzasına düşüb ağır yaralanan insanı xəstəxanaya çatdırmaqdan imtina elədi. Soyuqqanlılıqla dedilər ki, çağırışsız xidmət göstərmək ixtiyarımız yoxdur: həmin an o Təcili Yardım Ximəti briqadasının tabe olduğu klinikanın daxili qanunları vicdandan da irəlidə durmuşdu. Amma vicdan olmayan yerdə hansısa qanun bir işə yarayarmı? İndi neynəyək, qanuna tabe olub, vicdana tüpürəkmi? Amma qanunvericiliyə xırda dəyişikliklər edib vicdanı qanuna "mindirmək" olar. Bu baxımdan səhiyyədə, xüsusilə təxirəsalınmaz təcili tibbi yardımla bağlı bir sıra islahatlara ciddi ehtiyac var.



Qüvvədə olan qanunvericiliyə görə, özəl Təcili Yardım Xidmətinin çağırışsız xidmət göstərmək borcu yoxdur – yəni xəstəni yolun ortasında atıb gedən özəl Təcili Yardım Xidməti əməkdaşları qanula, necə deyərlər, məsumdular.

Məsələyə sırf vicdani aspektdən baxmağın yanlış olduğunu qeyd edən millət vəkili Fazil Mustafaya görə, vicdani aspekt əsasən sıravi vətəndaşlara aiddir: "Xəstəni yolda qoyub getmək olmaz, yaralıya dərhal əvəzsiz yardım etmənin savabı kimi təbliğatı gücləndirmək lazımdır. Amma hər bir peşə fəaliyyətini həyata keçirən tibb personalı öz müəssisəsi qarşısında cavabdehlik daşıdığına görə bunu qanunvericilik bazasında həll etmək vacibdir".

Təcili Yardım Xidmətinin işi ilə əlaqədar qanunvericilikdə müəyyən göstərişlərin olduğunu qeyd edən millət vəkili hesab edir ki, bu məsələdə humanizmdən başqa, həm də xidmətə görə haqqın ödənilməsi ön plana çəkilməlidir: "Özəl təcili yardım maşınları ağır vəziyyətdə olanlara yardım göstərməsinin maddi stimullaşdırmasını müəyyənləşdirmək lazımdır. Əks halda onlar da özlərinin sırf funksional çalışmasının o anda daha vacib olmasını isbatlayacaq əsaslara malik olacaqlar. Yəni, onlar üçün "vacib xəstə aparıram", yaxud "xəstə dalınca gedirəm" kimi alibilər müəyyən etmək çətinlik yaratmaz".

Hazırda Təcili Yardım Xidməti briqadalarının paytaxtın tıxaclı yollarında hadisə yerinə vaxtında çatması müşkül məsələyə çevrilib. Bəzi mütəxəssislərin fikrincə, yola əlavə zolaq çəkməklə məsələni həll etmək mümkün olar. Lakin bu zaman yol infrastrukturu baxımından mövcud şərait nəzərə alınmalıdır.

Alternativ üsul kimi əlavə zolağın çəkilməsinin mürəkkəb məsələ olduğunu hesab edən F.Mustafa, bunu ictimai nəqliyyat alternativlərinin məhdud olması ilə əlaqələndirdi. Onun fikrincə, ağır xəstələrin xəstəxanalara vertolyotlarla çatdırılması məsrəf və vaxt baxımından daha uyğun olar: "Hər halda yolların genişlədilməsi zamanı bunu düşünmək bəlkə də olardı. İndi isə xüsusi zolaq yaratmaq xeyli çətindır".

Vahid mərkəzdən idarəolunma sisteminə də toxunan F.Mustafa bildirib ki, bu sistemi təmin etmək yalnız fövqəladə hallarda mümkündür: "Digər hallarda isə dövlətin özəl sektorun yükünün bir qismini öz üzərinə götürməsindən söhbət gedir ki, bu da idarəçilik effekti baxımından özəl sektorun işinə yaramır. Çünki hər işin maddi qiymətləndirilməsi əsas götürüldükdə bu forma səmərəli olmaya bilər. Həll yolu tapmaq üçün isə sadəcə, mütəxəssislərlə məsələni araşdırıb müvafiq qanunlarda dəyişikliklər etmək olar. Bu zaman özəl sektorun işinə müdaxilə etməmək prinsipini gözləmək şərti vacibdir. Hər halda məsələni biz millət vəkilləri də gündəmə gətirərik. Çünki çox aktual bir problemdən söhbət gedir".

Qeyd edək ki, səhiyyə naziri Oqtay Şirəliyev paytaxtda daha operativ Təcili Tibbi Yardım Xidməti göstərilməsini təmin etmək məqsədilə Təcili Tibbi Yardım maşınlarının yalnız köməkçi stansiyalarda deyil, əhalinin sıx məskunlaşdığı və hərəkət etdiyi ərazilərdə də saxlanılması barədə Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına göstəriş verib. Ancaq belə olan halda da magistral yollarda baş verən qəzalar zamanı təcili yardım xidmətinin günün pik saatlarında tıxac səbəbindən hadisə yerinə gəlib çatması xeyli vaxt aparır. Bu məsələdə adi sürücülər də ayıq davranmalı, təcili yardım xidməti maşınına yol verməlidilər. Lakin araşdırmalar onu göstərir ki, paytaxtda nəqliyyat vasitələrinin hərəkəti zamanı təcili yardım maşınlarına əksər sürücülər tərəfindən yol verilmir.

Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyanın 1 saylı Köməkçi Stansiyasının təcili yardım xidmətindən aldığım məlumata görə, operativ iş rejiminə keçdiklərindən çağırış zamanı ünvana vaxtında çatmaq baxımından heç bir problem yaranmır. Maşınlarda quraşdırılan rabitə cihazlarının köməyi ilə hadisə yerinə daha yaxın təcili yardım maşınları ilə əlaqə yaradılır və xəstələrə vaxtında yardım göstərilir.

Lakin Təcili Yardım Xidmətindən də bildirildiyi kimi, rabitə sistemi yalnız Dövlət Təcili Yardım Xidməti avtomobillərində quraşdırılıb.

Belə görünür ki, qanunvericilikdə özəl səhiyyəni əlaqələndirən ümumi tədbirlər planı nəzərdə tutulmadığından hər şey onların insafına və vicdanına qalır.

**Ceyhun ABASOV**

# Beynəlxalq Mətbuat İnstitutunun nümayəndəsi Almaniyanı tənqid etdi

Yanvarın 21-də Brüsseldə "İnsan hüquqları uğrunda" İctimai Birliyin beynəlxalq analitik qrupunun hazırladığı "Avropanın qürubu" hesabatın təqdimatı keçirilib. Təqdimatda media nümayəndələri, Avropa Parlamentinin deputatları, siyasətçilər, diplomatlar, ATƏT və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. "Newswire" saytının xəbərinə görə, "İnsan hüquqları uğrunda" İctimai Birliyin rəhbəri, jurnalist Eynulla Fətullayevin təqdim etdiyi hesabatda Şərqi Avropa ölkələri və keçmiş Sovet Birliyi ölkələrində mövcud olan dəyərlər sisteminin liberal dəyərlərin hazırki böhranı və Avropadakı multikulturalizmlə şərtləşdiyi göstərilir. E.Fətullayev Avropadakı insan haqları ilə bağlı ilk genişmiqyaslı təhqiqatına Almaniyadan başlamasını onunla izah edib ki, həbsxanada olduğu zaman o , "Occupy Frankfurt" hərəkatının gedişi zamanı nümayişçilərin polislərin müdaxiləsi ilə dağıdılması xəbərini oxuyub. "Mən sülhsevər etirazçıların ətraf mühiti qorumaq istəklərinin belə qarşılanmasından şok olmuşdum. Bu aksiyaların polis gücüylə dağıdılması məndə Almaniya Konstitusiyasının 8 maddəsində ehtiva olunmuş söz azadlığı və sərbəst toplaşmaq haqqında suallar doğurub. Mən bu nəticəyə gəlmişəm ki, regionlarımız arasında olan sivili, texnoloji və iqtisadi ziddiyyətlərə baxmayaraq Avropa ölkələrinin əksəriyyəti, xüsusilə Almaniya insan hüquqları sahəsində çoxsaylı problemlərlə rastlaşır".

Konfransın gedişatında nəinki etiraz aksiyalarının dağıdılması, eyni zamanda Almaniyadakı korrupsiyadan başlamış irqçiliyə qədər mövzuları əks etdirən sənədli film nümayiş etdirilib.

Konfransın qonağı, Beynəlxalq Mətbuat İnstitutunun nümayəndəsi Stiven Ellis bildirib ki, dünyada insan haqları sahəsində lider kimi qəbul olunan Almaniyanın üzərinə inkişaf edən ölkələrlə münasibətdə böyük məsuliyyət düşür. Və bu onun üzərinə xüsusi öhdəliklər qoyur. "Bu gün bizim şahidi olduğumuz təqdimat xüsusi güzgüdür və dünyada fundamental azadlıqların lideri kimi qəbul olunan Almaniyadakı narahatçılığı görür. Almaniya bu məsələlərdə nüfuzunu itirsə, o zaman digər ölkələr ona qulaq asmayacaqlar".

# "Almaniyanın insan haqları ilə bağlı ən böyük problemi polisə nəzarətdir"

"AMNESTY İNTERNATİONAL" TƏŞKİLATININ ALMANİYA ŞÖBƏSİNİN NÜMAYƏNDƏSİ ALEKSANDR BOŞ ALMANİYANI TƏNQİD ELƏDİ

"Amnesty İnternational" təşkilatının Almaniya şöbəsinin nümayəndəsinin Almaniyada insan hüquq və azadlıqlarının pozulması ilə bağlı hər hansı açıqlama verib-verməməsi ətrafında mübahisələr qızışır. thedecline.info saytında yayılmış "Avropanın qürubu" sənədli filmində "Amnesty İnternational" təşkilatının Almaniya şöbəsinin nümayəndəsi Aleksandr Boş bu ölkədə insan haqları ilə bağlı vəziyyəti kəskin tənqid edib: "İnsan haqları ilə bağlı olan problemlərimizin ən böyüyü polisə nəzarətdir. Əgər hansısa aksiyada polis insanlara qarşı zorakılıqla yanaşırsa, onda ən birincisi siz həmin zorakılığı dayandıra bilən heç bir polis tapmazsınız. Belə aksiyalarda, misal üçün Ştutqartda iki il əvvəl keçirilən aksiyada, ya da son illərin ən böyük yürüşü sayılan və mərkəzi stansiyanın tikintisinə qarşı olan tədbirdə insanlar etirazlarını bildirirdilər. Və aksiyanın iştirakçılarından biri bu günü "qara cümə axşamı" adlandırdı. Baxmayaraq ki, həmin yürüşdə daha çox normal insanlar idi, nəinki, misal üçün, 1 may günündə keçirilən aksiyada, harada ki, solçular, sağçılar, liberallar, kommunistlər yığışır və burada polisin sərt davranışı adekvat qəbul olunur, çünki onlar hakimiyyəti ona qarşı yönələn təzyiqlərdən qoruyur. Lakin Ştutqartda baş verən hadisələr normal deyildi, çünki orada insanlar sadəcə stansiyanın tikintisinə qarşı çıxırdı və belə sərt münasibət onları ölkədəki polis haqda düşünməyə vadar edib. Artıq iki aydır belə halların araşdırılması ilə məşğuluq və sosial sorğuları keçirəndə insanlar bizdən soruşurlar: axı niyə "Amnesty İnternational" bizim kimi normal ölkədə fəaliyyət göstərir. Amma sonradan aşkar olunurdu ki, doğrudan da Almaniyada polislə bağlı ciddi problemlər var. Bizdə hətta məhbuslara heç bir nömrə verilmir ki, "Amnesty İnternational" kimi təşkilatlarla əlaqə saxlaya bilsinlər. Onlar yalnız dustaqxanadan yerli ofislərə məktub yaza bilərlər və belə məktub mənə gələndə biz onu nəzarətə ala bilmirik. Çünki həmin məktubu yazandan soruşanda onlar sadəcə deyə bilərlər ki, bizim həbsxanalarda heç nə baş vermir, o isə dəlidir. Əgər biz məktubun həqiqi olmasına inanırıqsa, yeganə edə biləcəyimiz budur ki, yüngül araşdırmalara başlayaq".

# *Qənirə Paşayeva:* "Bolqarıstan Hak və Özgürlüklər Hərəkatı Partiyasının başqanına qarşı silahlı hücumu kəskin pisləyirik"

Millət vəkili Qənirə Paşayeva Strasburqda Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyası çərçivəsində Bolqarıstan Hak və Özgürlüklər Hərəkatı Partıyasının başqan yardımçısı Ünal Lütfi ilə görüşüb.



Bolqarıstan Parlamentinin türk kökənli millət vəkili, Hak və Özgürlüklər Hərəkatı Partiyasının başqan yardımçısı, Bolqarıstanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Ünal Lütfi ilə görüşdüyünü və ona Azərbaycan türkləri olaraq Hak və Özgürlüklər Hərəkatı Partiyasının dəyərli başqanı Ahmet Doğana qarşı silahlı hücumu kəskin qınadığını deyən Q. Paşayevanın bildirdiyinə görə, bu hadisədən ciddi üzüntü duyduğunu söyləyib: "Ahmet bəylə görüşümüz zamanı onun nə qədər dəyərli bir siyasətçi olduğu, millətinin haqları və hüquqları uğrunda nə qədər mübariz bir siyasətçi və dəyərli bir insan olduğunun şahidi olmuşdum. Allaha çox şükür ki, silahlı saldırı, sui-qəsd cəhdi uğursuz olub və Ahmet bəy ciddi bir xəsarət almayıb. Ona keçmiş olsun diləklərimizi göndərmişdik və bu gün , Hak və Özgürlüklər Hərəkatı Partıyasının başqan yardımçısı Ünal Lütfi ilə görüşdə də bunu bir daha səsləndirdik.

Ümid edirik ki, Bolqarıstan dövləti bu məsələni ciddi araşdıracaq və günahkar öz cəzasını alacaq, hadisənin arxasında dayanan məsələlər də ciddi araşdırılacaq. Bu məsələ ilə bağlı geniş məlumatı olmayan dostlara bildirmək istəyirəm ki, Sofiyada Bolqarıstanda yaşayan türkləri təmsil edən Hak və Özgürlüklər Hərəkatı Partiyasının 8-ci Qurultayında partiya sədri Ahmet Doğan çıxış edən zaman Oktay Enimehmedov adlı bir şəxs səhnəyə çıxaraq Ahmet Doğanın başına silahı tutaraq vurmaq istəsə də xoşbəxtlikdən onun bu addımı uğursuzluqla nəticələnib.

Ahmet Doğanın rəhbərlik etdiyi Hak və Özgürlüklər Hərəkatı Bolqarıstan siyasətində böyük güclərdən biridir və 240 nəfərlik Bolqarıstan parlamentində 35 millət vəkili ilə təmsil olunurlar. Bolqarıstana səfərim zamanı da Hak və Özgürlüklər Hərəkatını ziyarət etmiş geniş müzakirələr aparmışdıq. AŞPA çərçivəsində, müxtəlif beynəlxalq təşkilatlar, tədbirlər, konfranslar çərçivəsində Hak və Özgürlüklər Hərəkatı partiyasının rəhbərliyi, millət vəkilləri, təmsilçiləri ilə davamlı görüşür və gözəl əməkdaşlıq edirik. Ümid edirik ki, bir daha bu cür üzücü hadisəni yaşamayacaqlar".

**K.HƏMZƏOĞLU**

# ABŞ fondunun yaydığı siyahıda Sumqayıt ikinci yerdədir

***EKOLOGİYA NAZİRLİYİ:*** "SUMQAYITDA İNSAN SAĞLAMLIĞI ÜÇÜN HEÇ BİR CİDDİ TƏHLÜKƏ YOXDUR"

ABŞ-ın "Blacksmith Institute" fondunun yaydığı siyahiya görə, dünyada elə yerlər var ki, orada olmaq ümumiyyətlə məsləhət deyil.

Fondun araşdırmalarına görə, dünyanın insan həyatı üçün ən təhlükəli 10 şəhəri arasında Sumqayıt Çernobıldan sonra 2-ci yerdə qərarlaşıb.



Yayılan məlumata görə, Sumqayıt keçmiş SSRİ-nin ən böyük və ən zəhərli kimya sənayesi komplekslərindən biridir. Hazırda 300 min nəfərdən çox əhalisi olan şəhərdə ağır metallar, neft məhsullarının emalı zamanı atmosferə düşən zəhərli maddələr insanların sağlamlığında ciddi problemlər yaradıb. Şəhərdə sümük iliyi xəstəliyi xüsusi ilə geniş yayılıb. Siyahıda Hindistanın Vapi, Sukinda, Çinin Tyanjin, Linfan, Rusiyanın Norilsk, Dzerjinsk, Perunun La-Oraya və Zambiyanın Kabve şəhərləri yer alıb.

"Blacksmith Institute" fondunun qənaətinə görə, bu şəhərlərdə ötən əsrdən qalan bir sıra fəsadlar havanı zəhərləyərək xəstəlik mənbəyinə çevrilib. Məlumatda hazırda da zavod, fabriklərdən havaya buraxılan zəhərli maddələr, eləcə də kimyəvi tullantıların çoxluğunun şəhərlərdə vəziyyəti daha ağırlaşdırdığı vurğulanıb.

ABŞ-ın "Blacksmith Institute" fondunun yaydığı bu xəbəri dezinformasiya adlandıran Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat Xidmətinin rəhbəri İradə İbrahimova "525"ə açıqlamasında bildirib ki, bu məlumat hələ Azərbaycanın Sovetlər Birliyinin tərkibində olduğu dövrü əhatə edir: "Xəbəri yayan fondun məqsədi başadüşülən deyil. Çünki indi biz nə SSRİ-nin, nə də hər hansı bir dövlətin tərkibində deyilik. Müstəqil dövlətimiz, müstəqil siyasətimiz var. Çünki ötən əsrin 70-80-ci illərinə istinad edilən bu xəbər, köhnə xronika olmaqla yanaşı olduqca şişirdilmiş informasiyadır. Sumqayıtda nəinki sümük iliyi xəstəliyindən, eyni zamanda insan sağlamlığı üçün heç bir ciddi təhlükədən söhbət gedə bilməz. Bunu orada yaşayan insanlarda təsdiqləyə bilər".

Ölkədə davam edən yenidənqurma, təmir və abadlıq işlərinə də toxunan İ.İbrahimova onu da qeyd edib ki, ötən bu vaxt ərzində nəinki Sumqayıtda, eləcə də ölkənin əksər şəhərlərində yenidənqurma işləri uğurla aparılıb, ölkənin ekoloji durumu xeyli yaxşılaşdırılıb: "Bu cür həqiqətə uyğun olmayan informasiyaları araşdırmadan mətbuatda yaymaq düzgün deyil".

**Ceyhun ABASOV**

# Yevda Abramov: "Ermənistanın populist çıxışları seçkilərə hesablanıb"

"Ermənistan prezidenti Serj Sarkisyan elektoratın səsini qazanmaq üçün hər gün populist çıxışlar edə bilər. Mən inanmıram ki, hansısa beynəlxalq təşkilatın nümayəndələri, hansısa rəsmi şəxslər Azərbaycanın işğal olunmuş ərazilərindən təyyarəyə minsinlər, belə bir reysdən istifadə etsinlər". Onların nə diplomatik savadı, nə öz üzərlərinə götürdükləri missiya, nə də təmsil etdikləri ölkələrin xarici siyasət doktrinaları belə bir mürəkkəb məsələyə baş qoşmağa imkan verir". Bu açıqlama ilə mətbuatda ermənilər tərəfindən Xocalı hava limanının istismara veriləcəyinə dair səsləndirilən fikirlərə münasibət bildirən millət vəkili Yevda Abramov çıxış edib. Millət vəkili deyib ki, məgər onlar indiyə qədər Qarabağa təyyarə ilə gəlirdilər: "Bunlar hamısı populist bəyanatlardır. Bu cür çıxışlar daxili auditoriyaya hesablanıb və seçicilərin dünyagörüşünə təsir etmək üçün atılan addımlardır. Mən onların bu fikrinin ciddiliyinə inanmıram".



Qeyd edək ki, erməni tərəfi uçuş üçün hər şeyin hazır olduğunu bəyan edib. Azərbaycan Nazirlər Kabineti isə hava məkanının qorunmasına dair yeni qaydaları təsdiqləyib. Həmin qaydalarda Azərbaycanın hava məkanını pozan təyyarələrin vurulmasına icazə verən qərar da var.

Y. Abramov AŞPA-da Azərbaycanla bağlı müzakirələrə də toxunub: "Azərbaycanda demokratik seçkilərin keçirilmədiyi haqda məlumatın sənəddə yer alması qətiyyən reallığa uyğun deyil. Bir sıra təşkilatlar var ki, onlar həmişə Azərbaycan əleyhinə çıxışlar edirlər. Bu cür çıxışlar tutuquşu effekti yaradır. Azərbaycandan qat-qat pis formada seçki keçirən ölkələr var. Niyə onlar haqqında bir dənə də olsun tənqidi qeydlər yoxdur? Azərbaycan haqqında bu cür hesabatlar yalan məlumatlar əsasında hazırlanır. Bu gün Avropa Şurasında Azərbaycanı anlayan, başa düşən, onun daxili və xarici siyasətini alqışlayan kifayət qədər deputatlar var. Mən bilirəm ki, Azərbaycanın dostları bu müzakirədə öz sözlərini deyəcəklər. Biz belə şeylərə çox alışmışıq".

**PƏRVANƏ**

# Sahibə Qafarovanın məruzəsi AŞPA komitəsində yüksək dəyərləndirilib

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyası çərçivəsində qurumun Bərabərlik və Qeyri-Diskriminasiya Komitəsinin iclası keçirilib. İclasda sözügedən komitənin rasizm və ksenofobiya məsələləri üzrə alt komitəsinin sədri, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Sahibə Qafarovanın "Əmək bazarında yaş ayrı-seçkiliyi problemi" mövzusunda hazırladığı məruzə müzakirə olunub. Məruzə haqqında ətraflı məlumat verən alt komitənin sədri bildirib ki, müəyyən yaş həddindən yuxarı olan insanlar Avropa əmək bazarında ayrı-seçkiliklə qarşılaşırlar: "Belə insanlar müəssisələrdə işçilərin ixtisarları zamanı ilk qurbanlara çevrilirlər. Yaş, karyera məsələsində, qulluq prosesində irəliləmə zamanı, həmçinin əmək şəraitində də vacib amillərdən birini təşkil edir. İtaliyada aparılan araşdırmalardan belə məlum olur ki, yaşa görə ayrı-seçkilik cinsə görə ayrı-seçkilikdən daha geniş yayılıb.

Böyük Britaniyada 2006-2007-ci illərdə məhkəmələrə yaş diskriminasiyasına dair daxil olan 972 şikayət ərizəsinin sayı 2008-2009-cu illərdə 4000-dək artıb. Bu rəqəmlər yaşa görə ayrı-seçkiliyinin nə dərəcədə ciddi bir problem kimi qaldığını ortaya qoyur". S.Qafarova həmçinin vurğulayıb ki, hazırda müşahidə olunan iqtisadi böhranla əlaqədar yaşı 50 və ondan yuxarı olan şəxslər iş yerini itirməkdən əziyyət çəkirlər.

Hesabatında müxtəlif istiqamətlərdə ümumiləşdirmələr aparan deputat problemi bu şəkildə təsnifatlandırıb: yaş və diskriminasiya müxtəlifliyi, birbaşa və dolayı ayrı-seçkilik, işə qəbul zamanı ayrı-seçkilik, gündəlik işdə ayrı-seçkilik, karyera yüksəlişi zamanı ayrı-seçkilik, işdən azad edilmə zamanı diskriminasiya, biznes sahibləri ilə vəziyyət və sair. Problemin həlli yolları ilə bağlı məsələlərə də hesabatda geniş yer verən S. Qafarovanın sözlərinə görə, yaşa görə ayrı-seçkiliklə mübarizədə ən müsbət tədbirlər yaşlılara ehtiyacın olmasını nəzərə alaraq stereotiplərlə mübarizə və münasibətin dəyişdirilməsidir:

"İşə götürülən zaman müxtəlifliyin təşviqi, dövlət proqramları və konstruktiv addımlar atılmalıdır".

Qeyd edək ki, hesabatda yekun olaraq üzv dövlətlərdə yaşa görə diskriminasiyaya dair tövsiyələrə yer verilir.

Daha sonra məruzə ətrafında çıxışlarda avropalı deputatlar azərbaycanlı deputatın məruzəsini yüksək dəyərləndirib, bəzi tövsiyələr diqqətə çatdırılıb.

**K.HƏMZƏOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU



"Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti üzrə

# "Dini tolerantlıq Azərbaycan cəmiyyətinin nümunəvi cəhətlərindən biridir"

## SEYİD CAMAL ƏZİMBƏYLİ: "DİNLƏRARASI MÜNASİBƏTLƏRDƏ DÖVLƏTİMİZİN YÜRÜTDÜYÜ SİYASƏT, TUTDUĞU MÖVQE TƏQDİRƏLAYİQDİR"




**Tarix boyu Azərbaycanda ayrı-ayrı milli azlıqlar, müxtəlif din daşıyıcıları, təriqət sahibləri bərabər şəkildə yaşayaraq, öz ayinlərini azad şəkildə yerinə yetiriblər. Əcdadlarımızın bizə miras qoyduğu bu dəyərli nemət xalqımız tərəfindən qorunmaqla yanaşı, dövlətin bu sahədə yürütdüyü uğurlu siyasət dinlərarası və milli münasibətləri nümunəvi şəkildə yaşadır. Dövlətin bu sahədə yürütdüyü siyasət təqdir olunmaqla, ölkədəki dini tolerantlıq mühiti örnək kimi xarakterizə edilir. Tanınmış ictimai xadim, şərqşünas Seyid Camal Əzimbəyli ilə söhbətimiz bu barədədir.**

***– Hazırda ölkədəki dini tolerantlıq mühitini, dinlərarası münasibətləri necə qiymətləndirirsiniz?***

– Həqiqətən də ölkəmizdə dini tolerantlıq, dinlərarası münasibətlər çox yüksək səviyyədədir. Azərbaycanda tarixən heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma baş verməyib, qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olub. Hazırda mütərəqqi dünyada demokratik dəyərlərdən biri kimi qəbul edilən etnik dini tolerantlıq Azərbaycan cəmiyyətinin nümunəvi normalarına çevrilib. Fikrimcə, ayrı-ayrı etiqad və inanclara malik etnosların yüz illərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik mədəni müxtəlifliyin gümüzədək qorunub saxlanmasında xalqımıza xas olan humanizm və multikulturalist dəyərlərin müstəsna rolu var. Dinlərarası münasibətlərlə yanaşı, milli münasibətlər və bu sahədə dövlətimizin yürütdüyü siyasət, tutduğu mövqe təqdirəlayiqdir. Bununla bərabər əsrlərdən bəri gələn xeyirxah ənənələrdən yoğrulmuş könül sahibi olan Azərbaycan xalqının bu məsələlərə münasibəti, dini dözümlülüyü çox yüksək səviyyədədir. İstər ölkəmizdə məskunlaşan etnik xalqlara, istərsə də digər məzhəblərə, təriqətlərə münasibətlərdə Azərbaycan xalqının, eləcə də Azərbaycan dövlətinin tutduğu mövqe alqışalayiqdir.

Düşüncəmə görə, ölkəmizdə dini tolerantlıq özünü demokratiyanın beşiyi hesab edən və demokratik prinsipləri digər cəmiyyətlərə yaymağı öz missiyaları kimi qəbul edən dövlətlərlə müqayisə olunmaz dərəcədə yüksəkdir. Azərbaycanda dini tolerantlıq, millətlərarası münasibətlərin yüksək səviyyədə olması bir tərəfdən əcdadlarımızın bizə miras qoyduğu dəyərli ənənədirsə, digər tərəfdən bu, dövlətimizin uğurlu siyasətinin məntiqi nəticəsidir. Əsrlər boyu öz milli-mənəvi dəyərlərini qoruyan Azərbaycan xalqı digər xalqların dəyərlərinə də hörmətlə yanaşıb. Tarixi faktdır ki, azərbaycanlılar torpaq alıb, yəhudi sinaqoqlarının tikilməsinə yardım ediblər. XVI əsrdə Azərbaycan xalqının dünyaya bəxş etdiyi Səfəvilər atəşpərəstlər üçün məbəd tikintisinə şərait yaradıblar. XX əsrin əvvəllərində qurulan Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində bütün millətlərin, dini qruplarin, o cümlədən ermənilərin qrupu olub. Bakıda xristianlar, hətta sayı az olan katolik icması üçün də kilsə tikilib. Tolerantlığın daha bir nümunəsi isə erməni katolikosunun Bakıya gəlməsidir. Fikrimcə, bir çox ölkə Azərbaycandakı dini dözümlülükdən nümunə götürməlidir. Bu, bizim tarixi ənənəmizdir.

Ölkəmizdə dini tolerantlıq o qədər yüksək səviyyədədir ki, bir çox məkrli qüvvələr bu sağlam mühitdən çirkin məqsədləri üçün istifadə etməyə də çalışıblar. Belə cəhdlər indi də hiss edilir. Hətta bu tolerantlıq zaman-zaman Azərbaycan torpaqlarının işğalına səbəb olub. Hesab edirəm ki, Ermənistanın işğalçı mövqeyi, habelə xalqımıza qarşı çirkin niyyətlərin həyata keçirilməsi məhz Azərbaycan xalqının qonaqpərvərliyindən, tolerant yanaşmasından irəli gələn məsələdir. Lakin biz bu məsələni heç vaxt dini müstəviyə keçirməmişik. Bunun nəticəsidir ki, işğalı həyata keçirən millətin dini abidələri də Azərbaycanda qorunur.



***– İslam dinində dini tolerantlıqla bağlı yanaşma necədir? Bununla bağlı Qurani-Kərimdə hansısa ayələr varmı, müqəddəs kəlamlarda və ya hədislərdə nə tövsiyə edilir?***

– Hər zaman din cəmiyyətin rifahının və sabitliyinin yeganə qarantı olub. İslam dini – müsəlman coğrafiyasında hər sahədə təməl kimi əsas götürülən normativ dəyərlərin qaynağıdır. Dəyərlər dünyasında islam hər bir müsəlmanın stabil həyat sürməsinə yardımçı olub. Qərbdə isə dünyəvilik din və dövlət arasında münasibətlərdə tənzimləyici rol funksiyasını yerinə yetirib. Əgər SSRİ dağılanda Azərbaycanda 18 məscid vardısa, hazırda müsəlmanlar üçün ibadət yerlərinin sayı 2 minə çatıb.

İslamda dini tolerantlıq məsələsinə gəlincə, həqiqətən də, dini tolerntlıqla bağlı müqəddəs kitabımızda müxtəlif ayələr var. Həmçinin bizim sevgili peyğəmbərimizdən bizə gələn müxtəlif hədislər mövcuddur. İslam dini özü birmənalı olaraq xoşgörünün, barışın, birliyin, bərabərliyin tərəfindədir. Allah-Təala Qurani-Kərimdə buyurur ki, sizin dininiz sizə, onların dini onlaradır. Peyğəmbərimiz bizə söyləyir: "Siz onların bütlərinə söyməyin ki, onlar da sizin Allahınıza söyməsin". Hətta bir hədisdə deyilir ki, bir yəhudinin cənazəsi dəfnə aparılırdı və bu zaman Məhəmməd peyğəmbərimiz (s.ə.v.) yanındakı şəxslərə dəfn mərasimində iştirak etməyi tövsiyə etdi. Dini tolerantlıqla bağlı İslamda xeyli kəlamlar var. Məhz bütün bunlar dinimizin barış, mərhəmət, bərabər yaşam dini olmasının göstəricisidir. Bu, bir faktdır ki, İslamın tolerant din olmasının ən böyük göstəricisi və dinimizin ən böyük tolerant adamı kimi ilk növbədə məhz Məhəmməd peyğəmbərin (s..ə.v.) mübarək adı çəkilməlidir.

***– Bəs Azərbaycan dövlətinin bu sahədə həyata keçirdiyi siyasət, atdığı addımlarla bağlı düşüncələriniz necədir?***

– Hesab edirəm ki, Azərbaycan hökuməti milli-mənəvi dəyərlərimizə böyük qiymət verir. Yaxın günlərdə ölkəmizdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumu və bir sıra beynəlxalq qurumların təşəbbüsü ilə "Dövlət və din: Dəyişən dünyada tolerantlığın gücləndirilməsi" I Beynəlxalq Bakı Forumu keçirildi. Tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə, Türkiyənin Diyanət işləri başqanı Mehmet Görməz, İran prezidentinin müşaviri, İslam Mədəniyyəti və Əlaqələri Təşkilatının sədri Məhəmməd Baqir Xürrəmşad, Küveyt vəqflər və islam işləri nazirinin müavini Adel Abdulla Əl-Fəlah, o cümlədən Misir, Dağıstan və digər ölkələrin rəsmi nümayəndələrinin iştirak etməsini mühüm hadisə hesab edirəm. Ayrı-ayrı dövrlərdə dini siyasətlə məşğul olan rəsmi hökumət nümayəndələrinin və nüfuzlu elmi təşkilatların, eləcə də aparıcı elmi tədqiqat mərkəzlərinin təmsilçilərinin, görkəmli din xadimlərinin ölkəmizdə bir araya gəlməsini mühüm hal hesab edirəm. Bu, bir faktdır ki, qloballaşma şəraitinin sürətləndiyi müasir dünyada gedən mürəkkəb etnosiyasi proseslərdə dinin yeri və rolu, beynəlxalq münasibətlərdə və cəmiyyət həyatında din amili və bəşəriyyətin gələcək taleyi naminə mədəniyyətlərarası dialoq kimi qlobal məsələləri xüsusi əhəmiyyət kəsb edir. Zəngin mədəni-mənəvi irsə, çoxəsrlik tolerantlıq ənənələrinə, nümunəvi dövlət-din münasibətləri modelinə malik olan və fərqli sivilizasiyaların qovşağında yerləşən Azərbaycanın belə müzakirələrə ev sahibliyi etməsi təsadüfi deyil. Çünki ölkəmiz tarixən bu dəyərlərə mühüm yer verib. Hesab edirəm ki, konfransa ev sahibliyi edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bu tədbiri çox yüksək səviyyədə təşkil edərək, dövlətin bu sahəyə hər zaman diqqət və qayğı göstərməsini bir daha nümayiş etdirdi. Ümumiyyətlə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bu sahədəki fəaliyyətinin təqdirəlayiq olduğu düşüncəsindəyəm. Həqiqətən də bu qurum dövlətin qeyd edilən sahədə yürütdüyü siyasəti yüksək səviyyədə həyata keçirir.

**Aqil LƏTİFOV**
**(Ardı var)**

Səhifədəki materiallar Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub

# Türkdilli dövlətlərin gömrük əlaqələri müzakirə edilib

Dünən Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Xəlil Akıncının başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Komitədən verilən məlumata görə, DGK-a sədri türkdilli ölkələrin əməkdaşlığının, o cümlədən iqtisadi-ticari, gömrük sferasında əlaqələrinin genişləndirilməsinin əhəmiyyətindən danışıb, bu əməkdaşlığın davamlı inkişafının zəruriliyini vurğulayıb. A.Əliyev İpək Yolu layihənin bərpası, eyni zamanda türkdilli ölkələrin iqtisadi-ticari münasibətlərinin inkişafına stimul verdiyini bildirib.



Ötən il Naxçıvanda keçirilən Türkdilli dövlətlərin gömrük xidməti rəhbərlərinin görüşünü xatırladan Komitə sədri bu görüşdə ticarətin və sərhəddən keçmənin sadələşdirilməsi üçün türkdilli dövlətlərin gömrük xidmətləri arasında əməkdaşlığın genişləndirilməsi, buraxılış məntəqələrinin infrastrukturunun təkmilləşdirilməsi, potensialının gücləndirilməsi və s. bu kimi müzakirə olunan məsələləri, əldə olunan razılaşmaları birgə əməkdaşlığın gələcək inkişafına yönələn mühüm addımlardan biri kimi dəyərləndirib.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi X.Akıncı bu mötəbər quruma daxil olan ölkələrin bütün istiqamətlərdə, eləcə də gömrük sahəsində əlaqələrinin inkişafı üçün nəzərdə tutulan məsələlərdən danışıb. Türkdilli ölkələr arasında əlaqələrin inkişafında gömrük orqanlarının mühüm rolunu qeyd edən qonaq bu baxımdan müvafiq sahədə qarşılıqlı əməkdaşlığın genişləndirilməsinin zəruriliyini diqqətə çatdırıb, mal və nəqliyyat vasitələrinin sərhəddən keçidinin sürətləndirilməsi ilə bağlı birgə həyata keçirilən tədbirlərin daha da intensivləşdirilməsinin vacibliyini vurğulayıb.

A.Əliyev isə öz növbəsində bildirib ki, bu gün Azərbaycanın əsas sərhəd məntəqələrində yoxlama müddəti zamanı vaxt itkisi minimuma endirilib: "Artıq ölkə sərhədlərində Azərbaycan tərəfdən bu kimi problemlərin yaşanmır və ümidvaram ki, gələcəkdə qarşı tərəflərin də bu cür halların aradan qaldırılması istiqamətində konkret tədbirlər həyata keçirəcəklər".

**BƏXTİYAR**

# İsmət Abasov Almaniyada rəsmi görüşlər keçirib

Kənd təsərrüfatı naziri İsmət Abasov ərzaq, kənd təsərrüfatı və bağçılıq üzrə "Beynəlxalq Yaşıl Həftə-2013" sərgisində iştirak etmək məqsədilə Almaniyanın paytaxtı Berlində rəsmi səfərdədir. Nazirlikdən verilən məlumata görə, İ.Abasov səfər çərçivəsində Almaniyanın İqtisadi Əməkdaşlıq və İnkişaf üzrə Federal Nazirliyinin dövlət katibi Hans-Yürgen Beerfeltz ilə görüşüb.

Dövlət katibi H.Y.Beerfeltz Azərbaycanın son illər mütəmadi olaraq sərgidə təmsil olunmasını təqdirəlayiq hesab edərək, bu faktı həm Azərbaycan və Almaniya arasında kənd təsərrüfatı və ərzaq sənayesi sahəsində əməkdaşlığın yüksək səviyyədə davam etdirilməsi üzrə siyasi iradənin göstəricisi, həm də Azərbaycanın öz məhsullarının potensial alıcılara və yeni bazarlara təqdim olunması üçün səmərəli vasitə kimi qiymətləndirib.



İ.Abasov Azərbaycanın kənd təsərrüfatı və ərzaq məhsullarının ixrac potensialı barədə geniş məlumat verib. Eyni zamanda, nazir bu potensialın reallaşdırılması məqsədilə qeyri-ənənəvi bazarlara çıxışın asanlaşdırılmasında bu sərginin və sərgi çərçivəsində təşkil edilən aqrar forumun xüsusi əhəmiyyətə malik olduğunu bildirib.

Daha sonra İ.Abasov Almaniyanın Ərzaq, Kənd Təsərrüfatı və İstehlakçıların Müdafiəsi Nazirliyinin dövlət katibi Gerd Müllerlə görüşüb. Görüş zamanı nazir ölkəmizin müstəqillik əldə etdiyi ilk illərdən etibarən kənd təsərrüfatı sahəsində hökumət tərəfindən həyata keçirilən təşəbbüsləri müxtəlif layihələr vasitəsilə fəal şəkildə dəstəklədiyinə görə minnətdarlığını bildirib. Bununla yanaşı, azərbaycanlı tələbələrin Almaniyanın aqrar universitetlərində təhsil alması imkanları, kənd təsərrüfatı sahəsində ilkin peşə təhsilinin gücləndirilməsinə həsr olunmuş Tvinning layihəsi, tərəflər arasında birbaşa təmasların genişləndirilməsi məqsədilə qarşılıqlı səfərlər və ekspert mübadiləsi ilə bağlı məsələlər müzakirə olunub.

Qeyd edək ki, səfər çərçivəsində İ.Abasov Avrasiya İqtisadi Komissiyasının aqrar sənaye siyasəti departamentinin rəhbəri Nadejda Kotkovets ilə də görüşüb. İ.Abasov iqtisadiyyatın bütün sahələrində olduğu kimi kənd təsərrüfatı sahəsində də inteqrasiyaya, beynəlxalq və regional təşkilatlarla əməkdaşlığa Azərbaycan tərəfindən böyük önəm verildiyini qeyd edib, Azərbaycanın bir çox beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etdiyini qarşı tərəfin diqqətinə çatdırıb.

Görüşdə tərəflər, Azərbaycan və Avrasiya İqtisadi Komissiyasına üzv ölkələr–Rusiya, Belarus və Qazaxıstan arasında iqtisadiyyatın digər sahələri ilə yanaşı, kənd təsərrüfatı sahəsində də qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin mövcud olduğunu qeyd edib, bu ölkələrlə daha sıx əlaqələrin yaradılmasında təşkilatın rolu barədə danışıblar.

**BƏXTİYAR**

# "Akkreditasiya haqqında" Qanun layihəsi hazırlanıb

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən hazırlanmış "Akkreditasiya haqqında" Qanun layihəsi Azərbaycan Respublikasının akkreditasiya sistemini formalaşdırmaq və fəaliyyət qaydalarını təkmilləşdirmək, eləcə də akkreditasiya edilmiş uyğunluğun qiymətləndirilməsi orqanları tərəfindən verilmiş sertifikat, sınaq, kalibirləmə və inspeksiya hesabatlarının tanınmasını, istehlakçıların, digər maraqlı tərəflərin uyğunluğun qiymətləndirilməsi nəticələrinə dair əminliyini təmin etmək, o cümlədən akkreditasiya vasitəsilə mümkün dərəcədə ticarətdə texniki maneələri azaltmaq və ya aradan qaldırmaq üçün Azərbaycanın Akkreditasiya sistemini beynəlxalq və regional akkreditasiya sisteminə uyğunlaşdırmaq məqsədilə hazırlanıb. Komitədən verilən məlumata görə, qanun layihəsinin hazırlanmasında Avropa Birliyinin Komitə ilə birgə həyata keçirdiyi "Twinning" layihəsinin beynəlxalq mütəxəssisləri iştirak edib. Qısa müddət ərzində adıçəkilən sənəd ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin xarici və yerli mütəxəssisləri tərəfindən Ümumdünya Ticarət Təşkilatının və Avropa Birliyinin tələbləri əsasında təkmilləşdirilib və beynəlxalq təşkilatların tələblərinə uyğunlaşdırılıb. "Akkreditasiya haqqında" Qanun layihəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilib.

Bu Qanun layihəsi Azərbaycanın akkreditasiya sisteminin əsas prinsiplərini, ümumi tələbləri, uyğunluğun qiymətləndirilməsi təşkilatlarının (orqanlar və ya laboratoriyalar) akkreditasiya sistemini idarə edən milli akkreditasiya orqanının iş prinsiplərini, akkreditasiya prosedurlarını, akkreditasiya sahəsində beynəlxalq əməkdaşlığın əsaslarını və onların standartlarını müəyyən edir.

**BƏXTİYAR**

# Bu il analoq televiziya yayımı dayandırılacaq

2012-ci ildə ölkə ərazisində televiziya və radio proqramlarının yayım keyfiyyətinin və əhatə zonasının genişləndirilməsi məqsədilə 41 ədəd müxtəlif təyinatlı avadanlıqların istismara verilib. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyindən verilən məlumata görə, bunlardan 16 ədədi rəqəmli DVB-T verici olub. Azərbaycanda hazırda 25 televiziya kanalı fəaliyyət göstərir, onlardan 11-i ümumrespublika, 14-ü isə regional kanaldır. 15 radio proqramı mövcuddur. Eyni zamanda, 12 kabel televiziyası və 20-dən çox internet televiziya studiyaları fəaliyyət göstərir.

Milli Teleradio Şurasının razılığı ilə ölkəmizdə mərkəzləşdirilmiş və lisenziyalaşdırılmış 100-dən çox xarici radio-televiziya kanallarının qəbulu, saxlanma və paylanma sistemi yaradılıb ki, RİTN-nin planı bu sistemi regional mərkəzə çevirməkdir. Televiziya və radio proqramlarının əhali üzrə yayım əhatəsi AzTV üzrə 99,9, "İctimai" TV üzrə 89, "Lider" TV üzrə 88, ATV üzrə 82,2, ANS TV üzrə 80, "Xəzər" TV üzrə 78, ATV-İNT üzrə 23, "Mədəniyyət" TV üzrə isə 70 faiz təşkil edir. 2013-cü ilə qədər ölkəmizdə rəqəmsal yayıma keçidin tam təmin edilməsini nəzərdə tutan "Azərbaycan Respublikası ərazisində DVB-T rəqəmli televiziya yayım sisteminin tətbiqi və inkişafı Proqramı" üzrə işlər davam etdirilib.

Artıq bu istiqamətdə görülmüş tədbirlər nəticəsində respublika əhalisinin yaşadığı ərazilərin 93 faizi açıq paketlə (10-12 kanal) rəqəmli televiziya yayımı ilə təmin edilib. 2013-cü ildə respublika ərazisində analoq televiziya yayımının dayandırılacağı və rəqəmli yayımın qalan ərazilərdə tətbiqi nəzərdə tutulur.

Bundan əlavə, hesabat dövründə respublika və regional TV və radio proqramlarının yayım əhatəsinin və keyfiyyətinin artırılması, kənar yayımların qarşısının alınması, rəqəmli TV proqramların regionlarda ötürülməsini təmin etmək, avadanlıqların normal iş rejiminin yaradılması məqsədilə müvafiq avadanlıqlar quraşdırılıb və zəruri tədbirlər görülüb.

**BƏXTİYAR**

# Maliyyə sanksiyası tətbiq edilib

"Qaradağ-AND" MMC-yə məxsus istehsalat sahəsində aparılan yoxlama zamanı "Qaradağ-AND" əmtəə nişanlı M-400 və M-500 markalı sementlərin etiketində çəkidəki kənarlaşma həddinin normativ texniki sənədlərlə müəyyən edilmiş normadan artıq göstərilməsi, həmçinin bu sementlərin ümumi təyinatlı olduqları halda, onların etiketində xüsusi təyinatlı olmasına dair yanlış məlumatın verilməsi səbəbindən İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən müəssisə barəsində antiinhisar qanunvericiliyinin tələblərinin pozulması əlamətləri üzrə iş qaldırılıb. Nazirlikdən verilən məlumata görə, Dövlət Xidmətində işə baxılıb və "Haqsız rəqabət haqqında" Qanunun tələblərini pozduğuna görə "Qaradağ-AND" MMC-yə 10.1 min manat məbləğində maliyyə sanksiyası tətbiq edilib.



**BƏXTİYAR**

# Azərbaycanda Türkiyə Mədəniyyəti Günləri keçiriləcək

Bu il Azərbaycanda Türkiyə Mədəniyyəti Günlərinin keçirilməsi nəzərdə tutulur. Tədbirin aprel və ya may ayının sonunda gerçəkləşəcəyi gözlənilir. APA-nın Mədəniyyət və Turizm Nazirliyinin saytına istinadən yaydığı xəbərə görə, bu barədə Türkiyənin Azərbaycandakı Səfirliyinin mədəniyyət və tanıtım müşaviri Əhməd Seyid Arslan mətbuat nümayəndələri ilə görüşündə məlumat verib.

Müşavir Türkiyədə turizmin müxtəlif növlərinin inkişafına böyük önəm verildiyini də deyib. O bildirib ki, qardaş ölkə turizmin Azərbaycanda inkişaf etdirilməsinə də töhfə verir. Azərbaycan Turizm İnstitutu və Mədəniyyət və Turizm Nazirliyinin xətti ilə həyata keçirilən proqram çərçivəsində türkiyəli mütəxəssislər hotel xidməti ilə bağlı təcrübələrini bölüşüblər. Ötən il Türkiyə Bakıda keçirilən ənənəvi Beynəlxalq Turizm və Səyahətlər Sərgisinə tərəfdaş ölkə olaraq qatılıb. Bu il Türkiyə turizminin Azərbaycanda tanıtım kampaniyasına mart ayının 15-də start veriləcək.



## İmdat Avşar İLESAM–ın mükafatına layiq görülüb



Türkiyənin məhşur İLESAM təşkilatı (Türkiyə Elm və Ədəbiyyat Əsəri Sahibləri Məslək Birliyi) 2012-ci ilin yekununa dair beş kateqoriya üzrə bir sıra mükafatlar təsis edib. Müxtəlif nominasiyalar üzrə təsis edilən 35 mükafat sahiblərinə təqdim olunub. Tanınmış yazıçı, Azərbaycan ədəbiyyatının dostu və təbliğçisi İmdat Avşar "Bəngü" nəşriyyatında çap olunan "Soyuq röya" hekayələr kitabına görə seçilərək yüksək mükafata layiq görülüb.

Qeyd edək ki, İmdat Avşar mütəmadi olaraq Azərbaycan yazıçılarının əsərlərini Türkiyə türkcəsinə çevirir. Sonuncu dəfə isə M.F.Axundzadənin əsərlərini tərcümə edib. Ötən il isə İmdat Avşarın Bakıda hekayələr kitabı işıq üzü görüb.

Dəyərli qələm dostumuz İmdat Avşarı yeni uğuru ilə əlaqədar təbrik edirik.

**GÜNEL**

## Məmməd İsmayıl Çanaqqala 18 Mart Universitetinin professoru seçilib

Bugünlərdə Türkiyə Yüksek Öyretim Kurulunun (YÖK) qərarı ilə məşhur Azərbaycan şairi Məmməd İsmayıla Çanaqqala 18 Mart Universitetinin professoru adı verilib. Bu xoş xəbəri "525-ci qəzet"ə yazıçı İmdat Avşar çatdırıb. Xatırladırıq ki, dəyərli şair, gözəl ədəbiyyat bilicisi Məmməd İsmayıl uzun illərdir ki, Türkiyədə çalışır, Çanaqqala Universitetində dərs deyir. Bu illər ərzində onun Türkiyədə bir sıra kitabları çap olunub, qardaş ölkənin mətbuatında məqalələri çıxıb, yubileyi yüksək səviyyədə qeyd edilib.

Ustad şairimizi bu münasibətlə təbrik edir, ona cansağlığı, yeni uğurlar diləyirik.

**GÜNEL**

## "Azərbaycan"ın yeni sayı işıq üzü görüb

"Azərbaycan" jurnalının növbəti sayı nəşr olunub. Jurnalın bu sayı üçün ayrılmış "Azərbaycan-90" başlıqlı səhifədə nəşrin 90 illik yubileyi ilə bağlı, tanınmış qələm adamlarının, o cümlədən Xalq yazıçısı Anarın "90 yaşlı müasirimiz", dramaturq Əli Əmirlinin "Ədəbiyyatımızın güzgüsü", İmamverdi Əbilovun "Oxucuların könül dostu", Ramiz Qusarçaylının "Doğma və müqəddəs "Azərbaycan" başlıqlı yazıları, İsa Muğannanın jurnalın baş redaktoru İntiqam Qasımzadəyə ünvanladığı təbrik məktubu yer alıb. Toplunun "Poeziya" guşəsinə bu dəfə Vaqif Bəhmənlinin, Nazir Rüstəmovun, Vüqar Əlisoyun, Nisə Bəyimin və Mahir Mehdinin şeirləri daxil edilib. "Nəsr" bölməsində Məmməd Orucun "Güman", "Kiyevli Oksana", "Akvariumda farel ovu", "Testeron" hekayələri və Fikrət Qocanın "Qarğa səsi" əsəri öz əksini tapıb. "Yaddaş" başlıqlı guşədə Mövlud Süleymanlının "Yer üzünə məktub" publisistik məqaləsi verilib. "Xatirələr, duyğular" adlı səhifədə Qəşəm Nəcəfzadənin "Şəhid anası" xatirə yazısı oxuculara təqdim olunub. Jurnalın "Dünya səndən kimlər keçdi" başlıqlı bölməsində bu dəfə Südabə Ağabalayeva "Mən səni sevirəm azadlıq qədər" məqaləsində şair Böyükağa Qasımzadədən bəhs edib. "Tənqid və ədəbiyyatşünaslıq" səhifəsində Firuz Mustafanın "Roman janrının inkişaf trayektoriyası", "İmamverdi Həmidovun "M.F.Axundzadə və ərəb-islam mədəniyyəti", Mahir Həmidovun "M. Nüaymənin şeirlərində həqiqət axtarışı" və Əli Məmmədbağıroğlunun "Yazılı folklor ədəbiyyatımıza aid yeni bir mənbə" başlıqlı yazıları var. Nəşrin "Kitablar, rəylər" bölməsində Vaqif Yusifli "Bir mərhələnin sonu yaxud yenisinin başlanğıcı" yazısında professor Nizaməddin Şəmsizadənin "Ədəbiyyat nəzəriyyəsi" kitabından bəhs edib. Ənənəvi olaraq jurnalın son səhifəsində yer alan "Kitab rəfi"ndə yeni işıq üzü görmüş kitabların qısa xülasəsi verilib.

**GÜNEL**




***Türkiyənin "Bahar" və "Xəbər" jurnallarında tanınmış ədibimiz, şair, tərcüməçi, tənqidçi Abbas Abdulla haqda məqalələr çap olunub. Birinci məqalə "Ürəyi Türkiyə üçün döyünən Abbas Abdulla var Azərbaycanda" adlanır, ikinci məqalə isə "Azərbaycanın türkçü şairi Abbas Abdulladan Bayburta" adlanır. Hər iki məqalənin müəllifi türk dünyasının tanınmış yazarı Cazim Gürbüzdür. O, neçə illər bundan əvvəl bir neçə dəfə Azərbaycanda olub, respublikamızı yaxşı tanıyır.***

# Ürəyi Türkiyə üçün döyünən bir Abbas Abdulla var Azərbaycanda

*Cazim GÜRBÜZ*

"Köhnə adı "Kommunist" yeni adı "İstiqlal küçəsi" adlanan yola gedib Abbas Abdullanın redaktoru olduğu "Ulduz" jurnalının redaksiyasına girdiyiniz zaman, azərbaycanca desək, günorta yeni başlayırdı.

Türkcəsi ürəyi qədər işıl –işıl parıldayan şair Abbas Abdulla bizi böyük bir ürəklə qarşıladı. Yaxasında bozqurd nişanı , oturacağının üst tərəyində, başı üstündə Atatürk portreti, maşınında türk bayrağı qatı bir türk milliyyətçisi Abbas Abdulla Azərbaycan Xalq Cəbhəsi idarə heyətinin üzvü...

Yeni sözcüklər də daxil İstanbul türkcəsinə çox yaxın, təmiz bir dili var. Keçən zamanlarda türkiyədən bir tanışı telefon etmiş, Azərbaycanın müstəqilliyini təbrik etmiş və hal –əhvalını soruşmuşdur.

– Çok mutluyum! – demiş Abbas Abdulla.

Qarşısındakı səsin sahibi də Türkiyə milliyətçilərindən. Amma mühafizəkar, köhnəliyini davam etdirən, inadkar bir milliyyətçi. "Mutluluk" sözünü yadırqamış və demiş:

– Sən mutlu deyil, bəxtiyar olduğunu demək istəyirsən hər halda.

Abbas Abdulla Türkiyə türkcəsini belə gözəl bilməsinin sirrini belə açıklayır:

– Mən indi Gürcüstanda qalan Borçalıda doğuldum. Böyüklərim Türkiyə həsrətiylə yanıb –yaxılan insanlardı. Bu duyğularla böyüdüm. Türkiyə radiosunu daim dinlədim.

Zatən Borçalıda danışılan türkcə ilə Qarsdakı türkcə arasında heç bir fərq yoxdur. Çox yaxşı xatırlayıram. Anam bir bayatı söyləyirdi:

**Karsa yaz,**
**Bura gündür, Kars ayaz**
**Qələm qurbanım olum**
**Qismətimi Qarsa yaz.**

(Abbas bəyin qohumu, məşhur şair Zəlimxan Yaqub keçən il Qarsa gəlmiş , bu bayatını xatırlamış və nəzirə yazmışdır:

**Qars ayazdı,**
**Bura gün, Qars ayazdı,**
**Qələmə qurban olum**
**Qismətim Qarsa yazdı.**

Abbas Abdulla çox şey anlatdı bizə. Hamısı da bir-birindən gözəl.

Çap etdiyi "Ulduz" jurnalına maddi kömək almaq məqsədilə Moskvaya getmiş, dərdini demiş, lazım olan yardımı almışdır. Həmin vaxt Kremlin koridorunda azərbaycanlı bir dostuna rast gəlmişdir. Dostunun gözləri Abbas Abdullanın döşündəki nişana dikilmişdir:

– Yahu, sən dəlisənmi? Atatürk nişanı ilə burada gəzməkmi olar?

Abbas Abdulla gülmüş:

– Narahat olma, onlar Leninə bənzətmişlər.

Abbas Abdullanın canlı bir arxiv olduğunu anlayan Şəmsi Bəlli abi videokameranın obyektivi ilə kifayətlənmədi, çantasını açıb maqnitafonunu çıxartdı. Bir sözünü belə qaçırmayaraq Abbas Abdullanı dinləməyə başladı:

– Biz türkçülüyü də, milliyətçiliyi də Nazim Hikmətdən öyrəndik. Öz dilimizə candan bağlanmamızda onun payı az deyildir. Burada bizim ziyalılarımızın eləyə bilmədiyini o, elədi. Kommunizmə bürünmüş rus imperializminə ilk qarşı çıxanlardan biri Nazim Hikmət oldu.

Bizim görkəmli dramaturqumuz Mirzə Fətəli Axundzadənin xatirə günü keçirilirdi o illərdə. Nazim də Bakıda idi, dəvətli idi. İclasın aparıcısı Nazimə söz vermək istəmir, onun başını qatırdı.

Nazim birdən kürsüyə sıçradı:

"Sən kimsən ki, mənə söz vermirsən, mən istədiyim yerdə danışa bilərəm, səndən nəzakət xatirinə söz istədim" – deyə hayqırdı və başladı danışmağa. Hamıdan fərqli olaraq o, Axundov yox, Axundzadə deyirdi və birdən necə oldusa Axundzadə yerinə Axundov dedi. Həmən kürsüdən yerə tüpürdü və əvf dilədi "Günahımdan keçin pis "ov" dedim, ağzım kirləndi, təmizlədim.

Ruslar Nazimin kommunizmdən artıq diksindiyini başa düşmüşlərdi, amma susurdular, çünki dünya ictimaiyyətindən çəkinirdilər...

"Ortadoğu" qazetinin 8 dekabr 1992-ci ildə və "Şeir dərgisi" jurnalının 39-cu sayında yazmışdım bunları. Abbas Abdulla ilə o gün bu mövzuda doyunca mübahisə etmişdik (çəkişmişdik desəm daha düz). Oturacağının arxasında, başı üstə divarda Alparslan Türkeşin şəkili olduğunu, bir neçə gün əvvəl düşüb şüşənin qırıldığını söyləmişdi, bunun üstündə rəhmətlik Şəmsi Bəlli ilə mübahisə etmişdi. Mən də sözə qarışmaq məcburiyyətində qalmışdım. "Abbas bəy, Türkiyədə hər kəsin Azərbaycana simpatiyası və sevgisi var, bizdəki siyasi və ideoloji mübahisələri, çəkişmələri buraya gətirməyin, Azərbaycana zərər verirsiniz" demişdim. Abbas bəy daha kəskin söhbət etməyə başlamışdı: "Mənim İsmət İnönünün oğlu Ərdal İnönü xaricində hər kəsə sevgim və sayqım var. Sən Boraltan Körpüsü hadisəsini bilirsən. Almaz İldırımın "Bizi siz öldürün, verməyin rusa, Yaraşmaz türklüyə, sığmaz namusa" misralarını da bilirsən. Tayib Ərdoğanın indilərdə CNP-i çətin vəziyyətə salmaq üçün istifadə etdiyi o 147 Azərbaycan türkü hadisəsi var hə, ruslara təslim edilən və qarşı tərəfdə güllələnən türklər o misralarda deyiləni deyirdi.

Bu dediklərinizi yazımmı Türkiyədə dedim "yaz" dedi. "Məndə yazasan deyə dedim".

Mən də yazdım "Ortadoğu" qəzetində.

Gələn il Abbas Abdulla rəhmətlik Elçibəy prezident olanda Azərbaycanın İstanbul başkonsulu təyin olundu. Bir az sonra Elçibəy Türkiyəyə gəldi. Ankarada o gecə bütün dövlət adamlarının iştirak etdiyi bir qonaqlıq varmış. Abbas bəy də orada imiş təbii ki. Bu arada mədəniyyət naziri Fikri Sağlar Abbas bəyin qoluna girib Ərdal İnönünün yanına aparmış, "hörmətli başqanım, budur o arkadaş" deyə təqdim etmiş. " Gəl, görüm sən mənim babamdan nə istəyirsən" demiş Ərdal bəy. Abbas bəy daha sonra bu hadisəni mənə danışarkən belə deyirdi: "Dilimlə bəlaya düşmüşdüm. Başıma qaynar su töküldü. İndi mən nə deyim bu adama... sənin günahını aldım haqqını həlal eylə... "Əfəndim, mən elə bir şey deməmişdim, o qəzetçi, söz qatıb sözlərimə – dedim".

Abbas Abdulla Türkiyəni tanıdıqca adamlara baxışı da dəyişdi.



Mənə "Sənin köhnə kommunistlərlə qələm yoldaşlığı etmən çox xoşuma gəlir. Onlarla əlaqəni kəsmə, onlar yaxşı adamlardır. Mən də köhnə kommunistəm" demişdi bir telefon söhbətimizdə.

1985-ci ildə A.Qadirin ölüm xəbərini eşitdim.

**Gözyaşım selə döndü,**
**Dəli bir rüzgar olaydım,**
**Əsəydim İstanbula,**
**Üzümü sürtəydim**
**məzar torpağına...**
**O da Nazim kimi gəldi, getdi.**
**Doğma xalqı var olsun,**
**Var olsun doğma məmləkəti.**

– deyə yazdığını bilirdim, səmimi idi bu dediklərində.

Abbas bəy indilərdə Bakıda yaşayır, Azərbaycan Yazıçılar Birliyində vəzifəsi var, Türkiyə-Azərbaycan ədəbi əlaqələrini irəlilətmək üçün hələ də çırpınır. Telefon etdim əz əvvəl. Bayburutda 18 il əvvəl keçirilən Dədə Qorqud Kültür və Sənət bayramında oxuduğu "Bayburta xitab" şeirini istədim, faksla göndərdi. Ağlıma onun illərlə əvvəl imzalayıb bağışladığı, sovet zamanında kiril hərfləri ilə çap olunmuş "Sonsuzluğa gedən karvan" adlı kitabındakı "Bu dünyanın çıxmazları" şeiri gəldi. Azadlıq və müstəqillik həsrəti ilə yazılmış bu şeiri sizinlə bölüşmək istəyirəm, Abbas Abdullaya və Azərbaycana salam göndərirəm:

**Bu dünyanın çıxmazları**
**Çıxılmazdır, bilmədinmi?**
**Bu sınırın dirəkləri**
**Yıxılmazdır, bilmədinmi?**

**Bu yazıya yoxmu pozu?**
**Yaram sızlar səpmə duzu,**
**Sənsizliyin qarı, buzu**
**Yaxılmazdır, bilmədinmi?**

**Getmə, getmə insan oğlu,**
**Vətən dönüb qürbət olu.**
**Bu sonsuz həsrətin yolu**
**Baxılmazdır, bilmədinmi?**

**Gözdə qoydun diləyimi,**
**Qəm yuvası ürəyimi**
**Sıxdın, sındı şüşə kimi**
**Sıxılmazdır, bilmədinmi?**

# Əlyazmalar İnstitutundan Mirzə Fətəlinin yubileyinə layiqli töhfələr

Böyük ədib, milli dramaturgiyamızın banisi Mirzə Fətəli Axundzadənin 200 illik yubileyi münasibəti ilə AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda bir sıra tədbirlər həyata keçirilib. Məlum olduğu kimi, Mirzə Fətəli Axundzadənin sənədlərindən, əsərlərinin əlyazmalarından, məktublarından, kitablarından ibarət zəngin şəxsi arxivi Əlyazmalar İnstitutunda saxlanılır. Ötən yubiley ilində bu eksponatlar içində ən maraqlılarının fotolarından ibarət sərgi təşkil edilib. Yubileyin keçirildiyi dövrdə Əlyazmalar İnstitutunda üzə çıxarılmış, tədqiq edilərək oxuculara çatdırılmış bəzi materiallar, fikrimizcə, axundzadəşünaslığa töhfə ola bilər.

M.F. Axundzadənin Təbriz naibül-vəzarəsi Mirzə Yusif xanın "Yek kəlmə" əsəri barədə yazısında onun dünyagörüşü, Şərqin geriliyinin səbəblərinə dair fikirləri əksini tapmışdır. Mirzə Fətəlinin əsərindən xəbərimiz olsa da, MirzəYusif xanın "Yek kəlmə" əsərindən xəbərimiz yox idi. İnstitutun elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Sevər Cabbarlı əsərin əlyazma nüsxələri əsasında "Yek kəlmə"ni fars dilindən tərcümə edərək geniş ön söz(müəllifi filologiya üzrə fəlsəfə doktoru Raqub Kərimovdur) və faksimile ilə çap etdirmişdir. Əsəri oxuduqca Mirzə Yusif xanın dünyagörüşü etibarı ilə Axundzadəyə yaxın bir adam olduğunu görürük.

İran şahzadəsi,Fətəli şah Qacarın nəvəsi, Abbas Mirzənin oğlu, bir çox dəyərli əsərlərin müəllifi Fərhad Mirzə 1875-1876-cı illərdə Məkkə ziyarətinə gedərkən və oradan qayıdarkən yolüstü bir müddət Şimali Azərbaycanın şəhər və kəndlərini də gəzmiş, Nizami Gəncəvinin məqbərəsini görmüş, M. F. Axundzadə və H. Zərdabi ilə görüşmüşdür. Sonralar yazdığı "Səfərnamə" əsərində onun Mirzə Fətəli, Həsən bəy ilə söhbətləri də əksini tapmışdır.Həmin əsərin Almaniyada yaşayan həmvətənimiz Məhəmmədəli Hüseyninin yardımı ilə əldə etdiyimiz İran çapının mətnini institutun əməkdaşı, tarix üzrə elmlər doktoru Tahirə Həsənzadə fars dilindən tərcümə edərək ön sözlə (müəllifi tarix üzrə elmlər doktoru Kərim Şükürovdur) nəşr etdirmişdir. Qeyd etmək istərdik ki,əsər böyük ədibimizin həyat və yaradıcılığının daha ətraflı öyrənilməsi baxımından əvəzsiz mənbədir. Kitabda Mirzə Fətəlinin Tiflisdəki çar canişiliyindəki, yüksək cəmiyyətdəki mövqeyinə, əlaqələrinə, ona qarşı münasibətə dair maraqlı məlumatlar diqqəti cəlb edir. Məsələn, kitabda Bakı qubernatoru, general-mayor Staroselski Tiflisdə Fərhad Mirzə ilə söhbətində Axundzadə barədə belə deyir: "Axundov sizin gəlişinizi dünən mənə xəbər vermişdir. O, xeyli səmimiyyət və mehribanlıq etdi. İnsafən gözəl əxlaqlı insandır". Bu həmin Staroselskidir ki, H. Zərdabiyə böyük hörmət bəsləmiş, ilk milli qəzetimiz "Əkinçi"nin çapına əvəzsiz yardımlar etmişdir. Əsərdə Fərhad Mirzə də Staroselski barədə gözəl sözlər yazmışdır. Mirzə Fətəli Fərhad Mirzə Tiflisdə olarkən onun yüksək vəzifəli şəxslərlə görüşlərində tərcüməçi kimi iştirak etmişdir. Kitabdan görünür ki, geniş bilik dairəsinə malik Axundzadə ilə həmsöhbət olmaq, xüsusilə də onun yeni əlifba layihəsi ilə tanışlıq Qacar şahzadəsinin böyük marağına səbəb olmuşdur. Mirzə Fərtəli onu da ərəb əlifbasının çətinliklərinə bunun aradan götürülməsi zərurətinə inandıra bilmişdir. Lakin Fərhad Mirzə bu fikirdə olmuşdur ki, geniş xalq kütləsi yeni əlifbanı qəbul etməyəcəkdir: "Rusların "Axundov" deyə müraciət etdikləri polkovnik bütün Qafqazın canişininin mütərcimi Mirzə Fətəli Axundzadə özünün ixtira etdiyi əlifbanı gətirmişdi. Bu üç qisim layihədən, ixtiradan ikisini bəyəndim.

Layihənin birində hərflər ayrı-ayrı, həm də soldan-sağa yazılır. Şəkillərinə görə latın əlifbasının hərfləridir. Dedim: "Avropa yazısına oxşadığı üçün, Xaqani demişkən, "Fələk kəcrəftar əst əz xətti-tərsa". İslam əhli bunu qəbul etməyəcək. Lakin o biri iki növ əlifba mümkün olsa, yaxşıdır. Necə ki, İbn Müqlə kufi yazısını nəsxlə əvəz etdi və işi asanlaşdırdı".

Axundzadə bu əlifbaları ixtira etməklə çox zəhmət çəkmişdir. Ərəb və fars dillərində bəzi hərflər səslənir, lakin hərf kimi şəkli yoxdur. Ona görə də əgər bir sözün yazılışında nöqtələr qoyulmasa, onda fikir ayrılıqları, ixtilaf yaranacaq. Məsələn, əgər bir şəxs "müxbir" sözünü oxuya bilməsə, o sözü müxtəlif cürə oxuyacaq, yəni müxbir yox, mocir, möbir, məxiz, müxəyyər, mühəyyər kimi oxuyacaq.

Hərflərin ayrı-ayrı yazıldığı layihə isə oxumağı xeyli asanlaşdırardı və uşaqlar üçün və oxumağa yeni başlayanlar üçün dərs xeyli asan olardı. Lakin indi iki yüz milyon islam milləti bu əlifbaya öyrəşib, onu dəyişdirmək çətindir. ... Bu da mümkündür ki, bəzi avam insanlar, adi xalq kütləsi əlifbanın dəyişdirilməsini dində bidət, küfr hesab edələr. İbn Müqlə də kufi xəttini dəyişdirdi".

Fərhad Mirzə Axundzadəni yüksək savada, geniş bilik dairəsinə malik bir şəxsiyyət kimi dəyərləndirir, onun atasının da, anasının da əslən Cənubi Azərbaycandan olduğunu qeyd edir: "Xülasə, müşarileyh fazil bir insandır, rus dilini yaxşı bilir və yaxşı tərcümə edir. Ərəb, fars və türk dillərini də bilir, şeir yazmaq təbi də vardır. Şiəməzhəb olsa da, on ikinci imamın zühuruna inanmır. O, şeyx Mahmud Şəbüsərinin "Gülşəni-raz"da yazdığı bir beyti tez-tez oxuyur:

**Hər an kəsra ke, məzhəb qeyri-gəbr əst,**
**Təbi fərmud kou manəndi-gəbr əst.**
**(Cəbrdən başqa yolu seçənlər üçün**
**Peyğəmbər buyurdu ki, onlar atəşpərəst kimidirlər).**

Mirzə Fətəli Axundzadənin atası Mirzə Məhəmmədtağı Xamnənin Ərvənq adlanan kəndindən idi. Ərvənq Təbrizin 18 qəzasından biridir. Anası Şəki əhlindən idi. Onun əsli isə vaxtilə Şəkiyə köçmüş Marağanın Müqəddəm tayfasındandır. Mirzə Fətəli bir neçə il Qaradağda yaşamış, sonra Rusiyanın və İranın iğtişaş dövründə, 28 yaşında olarkən Qarabağa və Şəkiyə gəlmiş, burada, dayılarının yanında qalmışdır. Onun İrana qayıtmaq meyli olmamışdır. Rusiya dövləti tərəfindən bir sıra işlə təmin olunaraq vəzifə almış sahibmənsəb bir şəxs kimi tanınır".

Əsəri oxuduqca Mirzə Fətəlinin Fərhad Mirzə ilə ən yüksək vəzifəli şəxslər arasında tərcüməçilik etdiyini, Tiflisdə böyük nüfuza malik olduğunu görürük. Kitabın başqa bir yerində oxuyuruq: "Müşarileyhin mütərcimi Ağa Mirzə Fətəli idi. Onun geyimi və silahı başqa cürdür və eşikağasıların geyimi kimidir. Mirzə Fətəli İran dövlətindən də orden almışdır".

Fərhad Mirzə Axundzadənin kürəkəni, Qacar şahzadəsi Bəhmən Mirzənin oğlu Xanbaba xanı, onun oğlu Mənsur Mirzəni də gördüyünü qeyd edir: "Bəhmən Mirzənin oğlu Xanbaba xan gəldi. O, öz oğlu Mənsur Mirzəni də gətirmişdi. Mənsur Mirzə Axundovun qız nəvəsidir. Yeddi yaşı vardır. Yaxşı, diribaş oğlandır. Onda Axundovun zəkasının təsiri görünür".

Fərhad Mirzənin Məkkə ziyarətinə gedərkən və ordan qayıdarkən yüksək vəzifəli şəxslər tərəfindən çox böyük ehtiram, təntənə ilə qarşılanması diqqəti cəlb edir. O, Tiflisdə Rusiya imperatorunun qardaşı Mixaillə, Osmanlı dövlətində olarkən Sultan Əbdüləzizlə, Misirdə hökmdar İsmayıl Paşa ilə və vəliəhdlə, Hicazda vali Şərif Abdulla ilə görüşmüşdür. Tiflisdə Mirzə Fətəli ona deyibmiş ki, "bu müddətə hələ heç bir şahzadə və ya hər hansı bir əyan canişin tərəfindən belə yüksək səviyyədə qəbul edilməmiş və qonağa bir saat vaxt sərf edərək onunla söhbət etmək, onu hər bir yerlə tanış etmək olmamışdır. Bütün bunlar sizə xüsusi hörmət və meyl xatirinə baş verdi".

Azərbaycanda əhali Fərhad Mirzəyə ehtiramını nümayiş etdirmiş, onun gəlişi münasibəti ilə şənliklər, atəşfəşanlıq təşkil edilmişdir. Fərhad Mirzə əsərində Bakının neft quyularını da təsvir edir, qara qızılın qiymətini Qacar hökümətinin bilmədiyini vurğulayır, Atəşgədəni ziyarət etdiyini, teatra getdiyini qeyd edir. Nizami Gəncəvinin yaradıcılığına bələd olan Qacar şahzadəsi dahi şairin dağınıq məqbərəsini görərkən çox mütəəssir olduğunu bildirir: "...Yeddi versdən sonra yolun sağ tərəfində kiçik bir günbəz göründü, dağılmışdı. Bu, Şeyx Nizaminin qəbridir və Gəncə şəhərindən yeddi vers aralıdır. Yerə düşüb onun qəbrinin üstünə getdim. Yaxınlıqda gözətçi məntəqəsi yerləşir. Keşikçilər öz atları üçün buraya o qədər ot tökmüşdülər ki,günbəzin yanına getmək mümkün olmadı. Bu yerdə Şeyxin "İsgəndərnamə"-də yazdığını xatırladım... Fatihə verib geri qayıtdım". Müəllif əsərində Gəncənin adının dəyişdirilib Yelizavetpol qoyulmasını da təəssüflə yazmışdır.

Səfəri zamanı Fərhad Mirzə Həsən bəy Zərdabi ilə də görüşmüş, onun nəşr etdiyi "Əkinçi" qəzeti ilə maraqlanmışdır: "Səhər "Əkinçi" qəzetinin naşiri Həsən bəy Zərdabi gəlmişdi... Mən dedim ki, qəzet sadə xalq təbəqəsi üçündür, əgər onun bir tərəfi fars dilində olsa idi, İranda da xeyli oxucusu tapılardı. O burada farsdilli əhalinin az olduğunu söylədi. Mən ona dedim: " Zərdabi ifadəsi heç məlum deyil və Zərdabın harada yerləşdiyi məlum olmur, Şirvani təxəllüsü yazsa idin, bu məlum, məşhur şəhərdir. Şah da bilir ki, Şirvanda sünni əhali yaşayır. Həsən bəy bildirdi ki, bu vaxtadək belə tanınmışam və Şirvani olmaq xanzadələrin haqqıdır. Əgər dəyişdirməli olsaq, gərək dövlətdən izn alaq və çətin ki, izn verələr!"

Tahirə Həsənzadə Fərhad Mirzənin "Səfərnamə" əsərinin Qafqazla bağlı hissəsini tərcümə etmişdir. Şübhə yoxdur ki, tədqiqatçılar Azərbaycanın XIX əsrdə ictimai-mədəni həyatını, M. F. Axundzadənin həyat və yaradıcılığını tədqiq edərkən bu hissədən dəyərli məlumat mənbəyi kimi bəhrələnəcəklər.

Fikrimizcə, gələcəkdə "Səfərnamə" əsərinin bütövlükdə tərcümə etmək lazımdır. Yüzillərdir ki, azərbaycanlılar, o cümlədən, görkəmli dövlət, elm, mədəniyyət xadimlərimiz Həcc ziyarətinə gedirlər. Onlardan çox azının bu səfər barədə qeydləri qalmışdır. Məsələn, Xaqaninin şeirlərində onun Məkkə ziyarəti marşrutu, səfər zamanı görüşləri müəyyən qədər əksini tapmışdır. İsmayıl bəy Qutqaşınlı 1852-ci ildə həyat yoldaşı Bikə xanımla Həcc ziyarətinə getməsini öz "Səfərnamə"sində təsvir etmişdir. Bu mövzuda əsərlər çox azdır, mövcud əsərlərin isə hələ hamısı üzə çıxarılmamışdır. Fərhad Mirzənin haqqında danışdığımız kitabının tam həcmdə çap edilməsi bu boşluğu müəyyən qədər doldura bilər.

**Paşa ƏLİOĞLU,**
**filologiya üzrə elmlər doktoru**

# "Millət kimin muzdla iftiralar yazdığını bilir"

"Hansısa radio verilişində Xəlil Rzanın Anar haqqında tənqidi sözlərini oxuculara çatdırmağa tələsən Məlahət adlı müəllif özünü "karlığa", "korluğa" qoymasaydı, Xəlilin Anar haqqında yazdığı tərif dolu üç məqaləsinə də göz yummazdı. Xəlil Rza həbs olunanda məhz Yazıçılar Birliyində onu müdafiə üçün komitəsi yarandı, SSRİ Ali Sovetinin deputatı kimi Anar Lefortovo həbsxanasında Xəlillə görüşdü, onun azad edilməsi haqqında dəfələrlə Azərbaycan və SSRİ rəhbərliyinə müraciətlər etdi. Az sonra həbsdən azad olan Xəlil xatirələrində yazıçının xidmətlərini xüsusi minnətdarlıq hissiylə xatırlayır, Anarın Lefortovo türməsinə onunla görüşə gəlməsini Azadlığın gəlməsi kimi qiymətləndirir. Şairlər haqqında iftiralar uydurmaqdan başı açılanda Məlahət bu yazıları tapıb oxusun, onda bəlkə aldığı tapşırığı – Fikrət Qocanı və Anarı ləkələmək tapşırığını daha səviyyəli şəkildə yerinə yetirər". Bu cümlələr Azərbaycan Yazıçılar Birliyinin Mətbuat xidmətinin yaydığı mətndə yer alıb. Mətndə daha sonra qeyd olunur ki, bu məsələyə Xəlil Rzanın ailəsi adından Firəngiz xanım Ulutürk də münasibət bildirib. "Azadlıq" qəzetinin 18 yanvar 2013-cü il sayında Məlahət Ağacanqızının "Xəlil Rza Ulutürk – xalqın şairi mənim şairim" köşə yazısında həqiqəti əks etdirməyən ifadələr narazılıqla qarşılanıb. Xəlil Rza Ulutürkün həyat yoldaşı olaraq bildirirəm ki, Xəlil Rza şəxsiyyətinə xələl gətirən, onun adıyla başqa mənəvi dəyərlərimiz barədə təhqiramiz ifadələr işlədən "Azadlıq" qəzeti və onun köşə yazarı Məlahət Ağacanqızı təkzib verib səhvlərini düzəltməlidir. Xəlil Rzanın qeydlərində, çıxışlarında hər iki ədib həmişə ləyaqətlə, hörmətlə yad edilib, vətəndaş mövqeləri unudulmaz şairimiz tərəfindən dəfələrlə qiymətləndirilib".

AYB Mətbuat xidmətinin yaydığı mətndə Fikrət Qocanın Xalq şairi adı alması məsələsinə də toxunulub: "Fikrət Qocanı Xalq şairi adı almaqda suçlayan Məlahət unudub ki, ondan çox qabaq bu adı Anarın təqdimatıyla Xəlil Rza Ulutürk alıb. Bu səpkidə yazılar yazan müəlliflər tipik üsullarına uyğun olaraq, Anara və Fikrət Qocaya nifrətlərini onların övladlarının adlarını hallandırmaqla da ifadə edirlər. Məlahət Ağacanqızı yazır: "Millət onların atalarından nə yarıdı ki, balalarından da nəsə görsün!" Narahat olmasın Məlahət! Millət kimin kim olduğunu, kimlərdən yarıdığını və kimlərin muzdlu iftiralar yazdığını çox gözəl bilir".

# Şairin xatirəsinə

*Sultan MƏRZİLİ,*
**"Şəhriyar" Ədəbi Mədəni Cəmiyyətinin poeziya və nəsr üzrə katibi**

Ömrü boyu, həyatının ən çətin anlarında belə nikbin olmağa, gələcəyə ümidlə baxmağa çalışan, yazılarında bir güc, bir inam, insanın qəlbini isidəcək bir hərarət olan, günəşə baxan və günəş şüaları kimi misrlarayla ürəklərin buzunu əritməyə çalışan bir şair qəlbi döyüntülərini misralara pıçıldayıb susdu... Hər bir insan həyatda ruhən güclü, nikbin olmağa çalışsa da elə anlar olur ki, həyatın, dünyanın özü bir yarpaq kimi saralıb gözündən düşür. İndi Moskvanın bu soyuq qarlı qışında bir çox dost-tanışlarla birgə mənim də qəlbim üşüyür, ürəyimdə, gözlərimdə yaş donur. Bəzən od da, alov da donur, buz kimi, çıraq şüşəsi kimi kövrək olur, zaman dayananda hər şey donur...

Hər şairin dünyadan köçməyi təkcə bir ömrün baş günü deyil, həm də bir zamanın sonudu.

**Yer üzündə xəzəllər son dəfə gülər,**
**Son dəfə dil açar, diləyər kömək.**
**Ömür ağacından güllər tökülər,**
**Payızın saralmış yarpaqları tək.**

**Çəkər öz ardıyca məni tale, bəxt,**
**Əlimdən nə gəlir, öndə – qar, külək.**
**Bir gün, son günüm də o son yarpaq tək,**
**Ömür ağacımdan qopub düşəcək.**

Bu misralar qürbətdə, nəhəng Rusiyanın baş şəhəri Moskvada yaşayan həmyerlimiz, qələm dostumuz, söz sirdaşımız olan şair Sabir Abdullanın 2006-cı ildə Moskvada nəşr olunan "Günəşə bax" adlı kitabının son səhifəsindəndi. Bu günlərdə acı bir xəbər hamımızı titrətdi, sarsıtdı. Uzun müddət xəstə yatan, ölümlə çarpışan, həyatda həmişə nikbin, gülərüz, təmkinli və cəsarətli insan, hər şeydən öncə kövrək qəlbli şair olan bir insan, arzuları, ümidləri yarı yolda qaldı, 8 yanvar 2013-cü ildə gözlərini əbədiyyətə qapadı... O hələ oğul evləndirməli, qız köçürməli, nəvə qığıltısı eşitməli idi, hələ neçə-neçə kitablıq sözlərlə dolu ürəyini misra-misra boşaltmalı idi. Göylərin sirrini yerdə açmaq olmur ki?!..

Onun yaxınlarına, əzizlərinə, dostlarına səbr və əziz qələm qardaşımıza Allahdan rəhmətlər diləyirik!

Məmmədov Sabir Abdulla oğlu 1950-ci il 15 iyunda Şəkidə, Oraban kəndində doğulub. Azərbaycan Politexnik İnsititunu və Moskvada Qorki adına Ədəbiyyat İnstitunu bitirmişdi.



Azərbaycan və Rusiya Yazıçılar Birliyinin üzvü idi. Ədəbiyyat üzrə V.Tsıbin adına mükafata layiq görülmüşdü. Rusiyadakı azərbaycan diasporunda, eləcə də rusiya şairləri arasında tanınmış və sevilən bir şəxsiyyət idi.

Qəlbi Vətənə, taleyi şeirə bağlı şairin Moskvada nəşr olunan Azərbaycan və rus dilində kitabları ilə, gözəl və mənalı şeirləri ilə yaddaşlarda öz yeri var. Doğulduğu gündən öləcəyi bəlli insanın ömrü sanki bir məchulluğa doğru gedən yoldu. Zaman-zaman hər bir insan həyatın mənasını dərk etməyə çalışır. Və bu əbədi sual-cavablara ən həssas yanaşanlar şairlərdi. Sabir Abdullanın klassik rübailər səpkisində belə bir şeiri var:

**– Hardansan, nəçəsən? Sual verməyin,**
**Cahan millətimdir, dünya Vətənim.**
**Bir gün mən öləndə kədərlənməyin,**
**Ölümlə qurtarmır ömürüm mənim.**

Doğrudan da sənətkar ömrü, şair ömrü, ölümlə bitmir. Onun yazdığı, yaratdığı, qəlbinin ən dərin, pak qatlarından süzülüb gələn əsərlərində, şeirlərində qalır. Sabir Abdullanın geniş yaradıcılıq irsi var, bu ayrıca bir tədqiqat və araşdırma tələb edir. Mən istərdim ki, oxuculara onun son şeirlərindən bir dəstə, çələng təqdim edim. Ola bilsin məzarı üstünə qoyulan güllər solacaq, təravətini itirəcək, amma onun şeirləri həmişə tər-təzə, doğma Şəkisinin, doğulduğu Oraban kəndinin baharda açılan gül-çiçəkləri kimi təravətini saxlayacaq. Bu şeirlərdə yetkin bir şair düşüncəsi, həyatın son damlasını, acısını da mərdliklə qəbul edən müdrik bir insanın ibrətamiz və poetik düşüncələri var. Bu şeirlər sanki şair Sabir Abdullanın son qu quşu nəğmələridir. Bu möhtəşəmlikdə misralar yalnız şair ömrünün sonunda, əbədiyyət qapısının önündə yazıla bilər...

**Gəlişim sualdır, gedişim bir sirr,**
**Nələr görməmişəm, nələr görəcəm...**

*Sabir ABDULLA*

### SAĞLIĞIMDA GƏL

Mən xəstəxanada olan zaman bir nəfər doğma adam telefonda məndən soruşdu: "Səni görməyə nə vaxt gəlim?"

**Günaha batmışam, halım indi yox,**
**Günahkar yanına öz ağlında gəl.**
**Sən məni görməyə can verəndə yox,**
**Sən məni görməyə sağlığımda gəl.**

**Sən məni görməyə sağlığımda gəl,**
**Hələ tükənməyib səsim, nəfəsim.**
**Fikrində, qəlbində inam ək, becər,**
**Zərrəcə ümid ver – bəsimdir, bəsim.**

**Tufanlar qoynunda çırpınır ömür,**
**Həyatın zövqünə çatmayır da əl.**
**Sanıram üstümə Əzrayıl dönür,**
**Sən məni görməyə sağlığımda gəl.**

**Sən məni görməyə sağlığımda gəl,**
**Giley-güzarları saxla sabaha.**
**Bir gün axtaracan məni əlbəəl,**
**Bir gün axtaracan... Mən yoxam daha?!**

**Göylərin qoynunda keşikçin ollam,**
**Yer üstdə heç nəyə qoyma da məhəl.**
**Allahdır can alan, ömrü saxlayan,**
**Sən məni görməyə sağlığımda gəl.**

**Sabir Abdullayam, halım indi yox,**
**Halımı duymağa öz ağlında gəl.**
**Sən məni görməyə can verəndə yox,**
**Sən məni görməyə sağlığımda gəl.**

**Moskva. 01 iyul 2012-ci il.**

### SAXTALIQ

**Möcüzə qoynunda titrəyir səsim,**
**Heyrət axarında mən bata-batda.**
**Hər kəlmə başında "can" deyən kəsi,**
**Qarğışı ürəkdən, alqışı saxta.**

**Yersiz qürrəliyib özəyi şöhrət,**
**Şöhrət sevənlərin sevgisi yalan.**
**Məqsədlə edilən yaxşılıq, hörmət,**
**Söyüşdən, yumruqdan yamandır, yaman.**

**Nadürüst kimsənin ocağı saxta,**
**Nəfsinin alovu, közü saxtadır.**
**Beşiyi, qundağı, qucağı saxta,**
**Əməli saxtadır, sözü saxtadır.**

**Zorla qürrələnib, zorla gülməkdən,**
**Bir daşa könüllü dönmək yaxşıdır.**
**Pul üstə kif basıb ömür sürməkdən,**
**Çul üstə fərəhlə ölmək yaxşıdır.**

**Güldanda toz basıb ipək güllərin,**
**İyi yox, qoxu yox – baxışı saxta.**
**Könül ovsunlayan "şəkər", "bal" dilin**
**Qəlblərə vurduğu naxışı saxta.**

**Yolun əyrisini seçsən əzəldən,**
**Getmə... gedirsənsə, "cəhənnəmə get"...**
**Cənnətdə könülsüz veyillənmə sən,**
**Sidqi ürək ilə cəhənnəmə get.**

**Mərmər şahənşahda ət ürpəşir, ət,**
**Qızılı taxt-tacın kişisi axta.**
**Minlərlə yoğrulan nəzakət, hörmət,**
**Qayğı, məhəbbət də saxtadır, saxta.**

**Hara boylanırsan nağıldır, nağıl,**
**Toyda gülməyən kəs hüzürdə gülür.**
**Dağ boyda atanı görməyən oğul,**
**Darı böyüklükdə daş-qaşı görür.**

**Məzmunsuz dastandır şərəfsiz ömür,**
**Dastanın bu başı, o başı saxta.**
**Sağlığı bir yana rəzil ömürün**
**Qəbrinə qoyulan başdaşı saxta.**

**Quruluq evinin yolları əyri,**
**Cah-cəlal içində xəstədi vicdan.**
**Bu dünya Adəmdən, Həvvadan bəri**
**Göz yaşı axıdır, ya axıdır qan.**

**Əsilsiz kimsənin qanı da saxta,**
**Yağını çıxartsan – yağı saxtadır.**
**İştahı təbii, imanı saxta,**
**Gözünün qarası, ağı saxtadır.**

### ULDUZUMUZ SÖNDÜ...

**Ayaq izlərindən soruşdum səni,**
**Yolları göstərdi, yollar duman, sis.**
**Qovuşub ayrılan cığırlar kimi,**
**Görüşdük, ayrıldıq səssiz-səmirsiz.**

**Yağdı aramıza yağış, dolu, qar,**
**Günəşi axtardım, günəş görünməz.**
**Sandım ki, üstümə dartındı dağlar,**
**Dağlar da sevgidir, sevgi bölünməz.**

**Qorxunc xəbərlərdən titrəyəndə can,**
**Demə, tükənərmiş ürəyin sözü.**
**Qımışa-qımışa dolanan hicran,**
**Oxşada-oxşada ayırdı bizi.**

**Görüş yerlərinə bir dön, qayıt gəl,**
**Qayıt bax, gör necə dünya daraldı.**
**Min-min ulduzların içində bircə,**
**Bizim ulduzumuz söndü, qaraldı.**

---

**Türkiyə Cümhuriyyəti Səfirliyinin Din Xidmətləri Müşavirliyi, Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycan Yazıçılar Birliyi, Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumu ilə Hz. Məhəmməd (s.a.s) Peyğəmbərin doğum günü ərəfəsində Peyğəmbərimizi vəsf edən (Nat-i şərif ) şeir müsabiqəsi elan edir.**

**Müsabiqənin şərtləri:**

1) Müsabiqəyə heç yerdə çap olunmamış yeni şeirlər qəbul olunur. Hər şair müsabiqəyə yalnız bir şeir təqdim edə bilər.
2) Təqdim olunarkən şeir yazılmış vərəqədə müəllifin nə adı, nə də imzası olmamalıdır.
3) Şeir zərfə qoyulmalı, həmin zərfin içində müəllifin imzası, adı, şəxsiyyət vəsiqəsinin surəti olan digər bağlı bir zərf olmalıdır.
4) Qiymətləndirmə bitib, qalib yerlər məlum olduqdan sonra müəllif adları olan zərflər münsiflər heyəti tərəfindən açılacaqdır.
5) Şeirlər 20.01.2013 tarixindən – 30.03. 2013-cü il tarixinə qədər təqdim olunmalıdır.
6) Şeirlər aşağıdakı ünvana müəllif tərəfindən şəxsən təqdim edilməlidir.
7) Müsabiqədə qalib gələn şairlər 2013-ci il aprel ayının 18-i keçiriləcək təntənəli təqdimatda elan edilərək mükafatlandırılacaqdır.
8) Müsabiqənin qaliblərini 9 nəfərdən ibarət Münsiflər Heyəti müəyyən edəcəkdir.Münsiflər Heyətinin sədri şair Əjdər Oldur.

**Mükafatlar:**

a) 1 ədəd 1 – ci yer – 5000 (beş min dollar)
b) 2 ədəd 2 – ci yer – hər biri 2000 (iki min dollar)
c) 3 ədəd 3 – cü yer – hər biri 1000 (min dollar)
d) 5 ədəd həvəsləndirici yer – hər biri 500 (beş yüz dollar)

Əsərləri bu ünvana təqdim edə bilərsiniz:
Az 1000, Bakı şəhəri, Azərbaycan Yazıçılar Birliyi, Xaqani 25.
**Tel:012-493-74-81 Məlahət Qənbərova**

***TƏŞKİLAT KOMİTƏSİ***

## BİLDİRİŞ

2013-cü il yanvar ayının 25-də saat 14.00-da "Bayatı" kitab mağazası Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda Əsəd Cahangirin "Kim yatmış, kim oyaq" kitabının təqdimat və imza gününü keçirəcək.

**Maraqlananlar dəvət olunurlar.**

## Azərbaycan komandası İtaliyada keçiriləcək Buzadırmanma üzrə Dünya Kuboku yarışlarında iştirak edəcək

18-19 yanvarda Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının (FAİREX) son illər buzadırmanma idman növü üzrə yetişdirilən 5 idmançısı İsveçrənin Saas-Fee şəhərində keçirilən Buzadırmanma üzrə Dünya Kuboku yarışlarının 2-ci mərhələsində iştirak etmişlər. Qeyd edək ki, Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının idmançıları keçən ildən başlayaraq buzadırmanma üzrə Dünya Kuboku yarışlarına qoşulmuşlar.

Buzadırmanma üzrə Dünya Kuboku yarışlarının 2-ci mərhələsində Cənubi Qafqazdan 8 idmançı iştirak etmişdir. Mürəkkəblik mərhələsi üzrə keçirilən yarışda idmançımız Renat Rəhimxanov Cənubi Qafqazdan olan idmançılar arasında ən yaxşı nəticə göstərmişdir. Nəzərə alsaq ki, Renat Rəhimxanov ilk dəfədir bu yarışda öz gücünü sınayır, onun göstərdiyi nəticə yaxşı hesab oluna bilər. Sürət üzrə keçirilən yarışlarda da idmançılarımız qənaətbəxş nəticələr göstərmişlər.

Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının idmançılarından təşkil olunmuş Azərbaycan komandası 26-27 yanvar 2013-cü il tarixlərində İtaliyada keçiriləcək Buzadırmanma üzrə Dünya Kuboku yarışlarında daha geniş tərkibdə iştirak edəcək.

İdmançılarımıza uğurlar arzulayırıq.

## Ramin Musayev: "Klublarımızda yeni bir şey görmədim"

**Peşəkar Futbol Liqasının prezidenti Ramin Musayev Qol.Az saytının Antalyaya ezam olunmuş xüsusi müxbirinə müsahibə verib.**

***– Artıq dördüncü ildir ki, Azərbaycan hakimləri Antalyada təlim-məşq toplanışında iştirak edir. Bu toplanış çərçivəsində özümüz də müşahidə etdik ki, hazırlıq zamanı onlar onların çempionatda buraxdığı səhvlər də müzakirə olunur. Ondan başlayaq ki, bu toplanış çərçivəsində hakimlərin ciddi səhvləri üzə çıxıbmı?***

– Siz sualı doğru ünvana göndərmədiniz. Amma cavab verə bilərəm.

***– Hər halda siz Hakimlər Komitəsinin sədri ilə daim müzakirə aparırsınız.***

– Sözsüz. Bilirsiniz ki, ölkəmizdə son zamanlar futbola və ümumiyyətlə idmana böyük diqqət var. AFFA rəhbərliyi Azərbaycan futbolunun inkişafı üçün əlindən gələni edir. Hakimliyin inkişafı üçün çempionatda yaranan fasilələlər zamanı AFFA hakimləri ölkədən kənara göndərr. Hazırlıq zamanı çempionat vaxtı hakimlərin etdiyi səhvlər də müzakirə olunur. Elə səhvlər olur ki, hakimlər qərarların doğru olduğunu deyir. Amma onlara videoyazı göstərilir, dəlillərlə sübut olunur ki, hansı epizod düzdür, hansı səhvdir. Siz də mənimlə razılaşarsınız ki, son dövrlər hakimlərimizin səviyyəsi qalxıb. Sözsüz ki, səhvsiz çempionat və hakim yoxdur. Heç bir zaman da olmayıb. Sadəcə söhbət qərəzdən gedir. Çalışmaq lazımdır ki, hakimlər daha çox savadlansınlar və səhvlərə yol verməsinlər.

***– Bu mövsüm oyunların nəticəsinə təsir edən hakim səhvləri olub?***

– Olub və həmin hakim cəzalanıb.

***– Hansı oyunda olub?***

– Onu açıqlamağa ehtiyac yoxdur.

***– Bizdə olan məlumata görə, "Qarabağ"ın iştirakı ilə keçən iki oyunda nəticəyə təsir edən ciddi səhv aşkarlanıb, Ağdam klubu hakim səhvlərinə görə xallar itirib.***

– Təkcə "Qarabağ"ın yox, başqa komandaların oyunların da səhvlər üzə çıxıb.

***– Heç olmasa, hakimlərin adlarını çəkə bilərsiniz?***

– Buna ehtiyac yoxdur.

***– Əksər federasiyalarda Hakimlər Komitəsi ilə Hakim-İnspektorlar Komitəsi birgə fəaliyyət göstərir, bizdə isə ayrı. Onların axır ki, birləşməsinin vaxtının çatması fikri ilə razısınız?***

– Bu haqda AFFA rəhbərliyi məlumatlandırılacaq. Şübhəsiz ki, həmin komitələr birdəşməlidir.

***– Hakimlərin qərarların ləğv olunması tez-tez etiraza səbəb olur. Sizin PFL-in prezidenti kimi buna münasibətiniz necədir?***

– Bəzən hakim özü etiraf edir ki, səhvə yol verib. Mənə elə gəlir ki, hakimin vərəqəsi o halda ləğv oluna bilər ki, hakim səhvən başqa futbolçuya vərəqə göstərib.

***– AFFA Apelyasiya Komitəsinin çıxardığı qərarlar müəyyən komandalarda belə rəy yaradır ki, onlara qarşı qərəz var. Məsələn "Neftçi"nin baş məşqçisi Böyükağa Hacıyev deyir ki, Azərbaycan xalqını təhqir edən "Simurq"un qapıçısına verilən dörd oyunluq cəza ikiyə endirilir, amma heç bir səbəb olmadan mənim oyunçum Mitreviskiyə sarı vərəqə verilir və ləğv olunmur. Siz bununla bağlı nə düşünürsünüz?***

– Mən bayaq da dedim, gəlin, sualı lazımi ünvana çatdıraq.

***– Antalyada olduğunuz müddətdə siz neçə oyuna baxmısınız?***

– Elə oyunlarda oldum ki, heç klub rəhbərlərinin bundan xəbəri olmadı.

***– Komandaların oyununda dəyişiklik gördünüz?***

– Elə bir dəyişiklik hiss etmədim. Qarşıda gərgin oyunlar gözlənilir. Ona görə də komandalar ciddi şəkildə çalışırlar. Xüsusən də bu qış hələ yaddaqalan transferə rast gəlməmişəm.

***– Transferdən söhbət düşmüşkən, sizə elə gəlmirmi ki, bu gün əksər klubları hansı futbolçunu almaq və satmaq maraqlandırır? Tez-tez baş məşqçiləri qovurlar. Bu hadisələr Azərbaycan futbolunu hara aparır?***

– Mənim bu yaxınlarda çıxışım oldu. Həmin çıxışımda bildirdim ki, bəzən bəzi klublarımız öz işlərinə qeyri-peşəkar yanaşır. Özlərinə bəraət qazandırmaq üçün etdiyi səhvləri PFL-in üstünə atırlar. Amma elə deyil. Mən əvvəl klubda işləmişəm. Klubların işini yetərincə bilirəm. Bəzi klublarımız altılıq sisteminin düzgün olmadığını deyir. Bəziləri isə deyir, düzgündür, amma hansı səviyyədə futbolçu almağı qətiləşdirmək üçün qış fasiləsinə qədər altılıq müəyyənləşməlidir.

Mənə elə gəlir ki, artıq dekabr ayına qədər klublarımız bilməlidilər ki, hansı futbolçunu alacaqlar. Səviyyəli futbolçu alanda onu yoxlamağa da ehtiyac olmur. Ancaq mən hələ ki, klublarımızda ciddi transferə rast gəlmədim.

Səbəbini bilmirəm. Ancaq bu, məni narahat edir. Klublarımızda belə bir xəstəlik var. Gözləyirlər, hansı klub nə edirsə, o biri onu təkrarlayır. Heç biri fikirləşmir ki, yeni bir şey edim.




***– O fikirlər razısınız ki, bu vəziyyətin yaranmasının bir səbəbi də klubların ətrafında həddən artıq menecerin olmasıdır?***

– Mən sizinlə razı deyiləm. Çünki Azərbaycanda cəmi üç peşəkar, öz işini bilən futbol agenti var. Üç nəfər menecer Azərbaycan futboluna nə edə biləcək? Əfsuslar olsun ki, bizim menecerlər peşəkar iş gömürlər. "Kiminsə xətrinə dəymiyim", "kimsə mənə yaxşı oğlan desin"... Belə şeyləri fikirləşib iş görürlər.

***– Oğlunuz Elvin Musazadənin "Qarabağ"a gəlişi son günlər müzakirə mövzusuna çevrilib. Bu transferə bir ata və PFL rəhbəri kimi münasibətiniz necədir?***

– PFL prezidenti kimi istəsəydim, "Neftçi"dən xahiş edərdim. Çünki Elvin uşaqlıqdan "Neftçi"də futbol oynayıb. Oğlumla mənim aramda onun transferi ilə bağlı söhbət olmayıb. Mən onun futbolçu olmasına etiraz etmişəm. Uşaqlıqdan onda başqa istedadlar görürdüm. Ancaq o futbola olan istəyini bildirdi. Bir ata kimi isə deyə bilərəm ki, əgər bu gün o, "Rəvan"dan ayrılıbsa, istənilən kluba keçməyə haqqı var. Mən onun ətrafında yaranan söhbətlərə məhəl qoymuram. Yəqin ki, onun problemlə üzləşməsi mənə görədir. Mən həmişə düzgünlüyün tərəfdarı olmuşam. Heç vaxt vəzifəmdən istifadə etməmişəm və edə də bilmərəm. Çünki bu, mənim xarakterimə uyğun deyil. Elvinin "Qarabağ"a keçməsini onun müqavilə bağlandığı gün bilmişəm. Birinci mətbuatdan eşitdim ki, Elvin Musazadə "Qarabağ"la müqavilə bağlayıb. Mən oğlumun futbol həyatına qarışmıram.

***– Sizin statusunuz, PFL prezidenti olduğunuza görə yaranan söhbətlər oğlunuzun oyununa təsir göstərə bilər?***

– İnanmıram. Çünki o, elə söhbətlərə fikir verən uşaq deyil.

***– Yəqin ki, ata-bala oturub bu haqda söhbət etmisiniz.***

– O mənim övladımdır. Xarakterini bilirəm. Oyuna çıxmağa beş dəqiqə qalmış nə desələr də, ona təsir edə bilməz.

***– Yeri gəlmişkən, Elvinin "Qarabağ"dakı ilk oyunu sizə necə təsir bağışladı?***

– Normal. Qeyri- adi bir şey görmədim. Qurban müəllim sağ olsun, gətirdi "Qarabağ"a. "Rəvan"da ona şans verilmirdi. Mən Elvinin "Qarabağ"a keçməsinə həm də ona görə heç nə demədim ki, Qurban Qurbanov Azərbaycanda gənclərə yetərincə qiymət verir.

***– Oyun zamanı sizdən soruşmuşduq ki, Elvinin "Qarabağ"dakı ilk oyuna qol vurmağına sevinirsiniz? Dediniz ki, yox, çempionatda vuranda sevinəcəm.***

– Həmin oyunda Elvindən bir neçə dəqiqə əvvəl gənc bir oyunçu qol vurmuşdu (Toğrul Bilallı nəzərdə tutulur – red.). Səmimi deyirəm, mən onlar arasında fərq qoymadım. Çünki o oyunçu Elvindən kiçikdir. Mən onu Azərbaycan futbolunun gələcəyi görürəm.

***– Siz oğlunuzun "Qarabağ"a keçməsinə görə nə vaxt sevinəcəksiniz?***

– Millidə oynayanda.

***– Onu millidə görürsünüz?***

– Özünü göstərərsə, yəqin ki, düşəcək. Bu onun özündən asılıdır. Azərbaycanda tapşırmaqla milliyə heç kim düşmür.

***– Amma suala cavab vermədiniz: oğlunuzu millidə görürsünüz?***

– Hələ yox.

***– "Neftçi"nin baş məşqçisi Böyükağa Hacıyev iddia edir ki, milliyə futbolçular Berti Foqts çağırmır, ona hazır siyahı gəlir.***

– Bu fikirlə razı deyiləm.

## Droqba Avropaya qayıdır

Futbol həyatını Çinin "Şanxay Şenhua" klubunda davam etdirən Didye Droqba, komandadan ayrılmaq istədiyini bildirib. Droqba Çin klubu ilə müqaviləni uzatmayacağını söyləyib. Karyerasını Avropada davam etdirmək istəyən hücumçu ilə İtaliyanın "Yuventus","Latsio" və "Milan" klubu maraqlanır.

## *Kapello:* "MDB nədir?"

Rusiya milli komandasının baş məşqçisi Fabio Kapello MDB çempionatı ideyasına münasibət bildirib. "Sport-ekspress" qəzetinə müsahibəsində Kapello jurnalistin bununla bağlı belə reaksiya verib.

"MDB çempionatı? MDB nədir? Bilirsiniz, mən gerçək şeylər haqda danışmağa adət etmişəm, layihələr barədə yox" – deyə o qeyd edib.

## "Çelsi" baş məşqçisini dəyişir

"Çelsi" klubu mövsümün sonu baş məşqçini dəyişməyi düşünür. Xosep Qvardiola "Bayern"i seçdikdən sonra London təmsilçisi bir sıra mütəxəssislə danışıqlara başlayıb.

Xatırladaq ki, komandanın hazırkı baş məşqçisi Rafael Benitesin müqaviləsi mövsümün sonu başa çatır.

**ELAN**

Bakı Slavyan Universitetinin Roman-german filologiyası fakültəsinin 4-cü kurs tələbəsi Abasova Günelin Tələbə bileti bu il yanvarın 2-də itdiyi üçün etibarsız sayılır.

Qəzet 1992-ci il noyabrın 17-dən çıxır.

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar Əliyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet "Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: "525" şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:239
"TURAN", "TREND", AzərTAc, "AssA-İradə", APA və "OLAYLAR"ın informasiyalarından istifadə olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.